www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 avqust 2016-cı il Çərşənbə № 180 (6501) Qiymət 60 qəpik

**Xəbər**

## Elmar Vəliyevin oğlu haqda sensasion xəbərləri kim və niyə yayır?

yazısı səh.4-də

**Gündəm**

### Rusiya Ermənistanı ovundurmaq üçün hərəkətə keçdi



Moskvada erməni silahlı qüvvələri üçün kadrların hazırlanması barədə razılıq əldə olundu; politoloq: "Kreml hələ ki rayonların boşaldılması üçün İrəvana təsir etmək istəmir"

yazısı səh.11-də

### ANS-in bağlanmasından bir ay ötür: "Yeri görünür..."

yazısı səh.7-də

### Azərbaycanın "Rusiya NATO"suna qoşulmasının tək şərti

yazısı səh.9-da

### İlqar Məmmədov Natiq Cəfərlinin həbsini özünə qarşı təzyiq sayır

yazısı səh.5-də

### Hollandiya Jurnalistlər Birliyinin üzvü olan soydaşımız "Yeni Müsavat"ın qonağı oldu

yazısı səh.10-da

### Yeni dərs ili dollara tələbatı artırıb

yazısı səh.6-da

### "Bizi seçkilərə 10 manata əl çalmağa aparırdılar" -

Əməkdaşımız "Qul bazarı"ndan yazır

yazısı səh.12-də

### İdmanımızın legioner bəlası - Rio olimpiadasının gətirdiyi bəzi gerçəkliklər

yazısı səh.15-də

### Rusiya Türkiyəni zəif görüb Ukraynanın üzərinə yeriyir - Moskva Qara dənizin tək hakimi olmaq istəyir

yazısı səh.3-də

### Toyuq fermasının altından çıxan tariximiz

Şəkidəki "Əbədi sükut dünyası" muzeyi biganəlikdən məhv olur...

yazısı səh.14-də

## Şoyqunun qəfil Bakı ziyarətində üçüncü hədəf

# RUS-TÜRK ANLAŞMASINDA "AZƏRBAYCAN İZİ" - İLGİNC GƏLİŞMƏ

Ankara-Moskva barışından sonra şimal qonşumuz üçün ölkəmizin geostrateji önəmi ikiqat artıb; Rusiya Xəzərdən Suriyanı vurmaq üçün Bakının razılığını niyə istəyib, Türkiyənin 3 bəndlik həll planı nəyə hesablanıb?; Rus hərbi nazirin Azərbaycan səfərinin və dənizdəki son hərbi təlimlərin daha bir pərdəarxası...




yazısı səh.8-də

## Həbsdəki generalın qanla qazanılan milyonları əlindən alınır

Akif Çovdarovun daha bir əmlakı üzə çıxdı; Binəqədi Rayon İcra Hakimiyyəti həmin vaxt ağacların kəsilməsinə niyə reaksiya verməyib?

yazısı səh.5-də



Məlahət İbrahimqızı

### YAP-çı deputat Qərbi topa tutdu - "Artıq Qərb ifşa olunub..."

yazısı səh.6-da



Fətullah Gülən

### Azərbaycandakı Gülən tərəfdarları hansı maddə ilə ittiham olunacaqlar?

yazısı səh.5-də



*Əli Mirəliyev:*

### "Onlar satqın, vətən xainidirlər"

yazısı səh.12-də



## İlham Əliyev sərhədçilərə ali hərbi rütbələr verdi

**Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir: "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq qərara alıram: Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:**

"general-leytenant" ali hərbi rütbəsi:
general-mayor İsmayıl Bayram oğlu Əkbərova
general-mayor İlham İsmayıl oğlu Mehdiyevə
"general-mayor" ali hərbi rütbəsi:
polkovnik Elşən Ələkbər oğlu Verdiyevə".

## ABŞ hərbçiləri Azərbaycan zabitləri üçün seminar keçirir

**ABŞ-ın Oklahoma Milli Qvardiyasının Mobil Təlim Qrupu "Beynəlxalq sülhməramlı əməliyyatlarda maddi-texniki təminat üzrə tələbatlar" mövzusunda seminar keçirir.**

Virtualaz.org Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, tədbirin məqsədi Azərbaycan zabitlərini beynəlxalq sülhməramlı əməliyyatlarda NATO kontingentlərinin qarşılaşdığı maddi-texniki təminat tələbatları və qarşıda duran çağırışlarla bağlı məlumatlandırmaqdan ibarətdir.

Seminar müddətində Mobil Təlim Qrupu tərəfindən ABŞ və NATO-da tətbiq olunan maddi-texniki təminat şəbəkəsi (MTT) sistemləri, əməliyyat zonasına çıxmamışdan əvvəl MTT ilə bağlı hazırlıq tapşırıqları, NATO kontingentinin əməliyyat zonasına çıxışı zamanı çoxeşelonlu MTT dəstəyinin tələbatları, NATO çevik həmlə qüvvələrinin əməliyyat zonasına çıxışının planlaşdırılmasında qarşıda duran məsələlər və digər mövzularla bağlı məlumatlar veriləcək müzakirələr aparılacaq. Seminar avqustun 19-dək davam edəcək.

## Nazarbayev indi də Putinlə Poroşenkonu barışdırmaq istəyir

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev Soçidə rusiyalı həmkarı Vladimir Putinlə görüşü zamanı Ukrayna prezidenti Pyotr Poroşenkonun ona zəng etdiyini və kompromisə hazır olduğunu bildirib.**

«RİA Novosti»nin verdiyi məlumata görə, N. Nazarbayev deyib ki, Poroşenko bu yaxınlarda ona zəng edərək Donbasın və ikinci bölgənin statusunun qəbul edildiyini, lakin Ukrayna parlamentində çoxluğa malik olmamasının qərar qəbul olunmasına imkan vermədiyini bildirib: "Digər məsələləri həll etmək lazımdır. Mən də hesab edirəm ki, o, kompromislərin tapılmasına meyllidir, lakin nəyəsə görə onlar tapılmır. Bütün bu məsələlər təbii ki, Rusiyaya əlavə yükdür, ancaq onların hamısı həll olunandır".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# Yalnız 1 universitetdə plan yerləri tam dolub

**2016/2017-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbulun nəticələri haqqında statistik məlumat açıqlanıb.**



TQDK-nın mətbuat xidmətindən lent.az-a verilən məlumata görə, 2016/2017-ci tədris ilində magistraturaya qəbul imtahanında iştirak etmək üçün ümumilikdə 24110 bakalavr qeydiyyatdan keçib. İki mərhələdə keçirilən imtahanın nəticələrinə əsasən, 5184 bakalavr respublikanın ali təhsil müəssisələrinin magistraturalarına qəbul olub. Lakin qəbul olanlardan 730 nəfəri (14 %) müəyyən olunmuş vaxtda ali məktəblərdə qeydiyyatdan keçməyib. Boş qalan plan yerlərinə aparılan müsabiqədə isə əlavə olaraq 305 nəfər magistratura səviyyəsinə qəbul olub.

Bu il ali təhsil müəssisələrinin magistratura səviyyəsinə Azərbaycan bölməsi üzrə 5142 (69.85 %), rus bölməsi üzrə 825 (11.21 %), birgə müsabiqə əsasında isə 1395 (18.95%) yer olmaqla ümumilikdə 7362 plan yeri ayrılıb. İmtahanının nəticələrinə əsasən, 4769 bakalavr (Azərbaycan bölməsi üzrə 4312, rus bölməsi üzrə 457) magistratura səviyyəsinə qəbul olunub. Onlardan 2209 nəfəri dövlət sifarişi əsasında təhsil almaq hüququ əldə edib. Aşağıdakı cədvəldən də göründüyü kimi qəbul planı 64.78 % dolub. Plan yerlərindən 2593-ü (35.22 %) boş qalıb.

Bu il yalnız Azərbaycan Tibb Universitetində plan yerləri tam, Qafqaz Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Musiqi Akademiyasının plan yerləri 90 faiz və daha çox, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Azərbaycan Dövlət Aqrar Univeristeti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının plan yerləri isə 80 faizdən çox dolub.

Magistraturaya qəbulda plan yerlərinin dolma göstəricisi üzrə ən zəif nəticə Bakı Avrasiya Universitetinə (14.29%) aiddir.



## Pan Ki Mun: "İstərdim ki, BMT-yə qadın rəhbərlik etsin"

**"Şəxsən mən istərdim ki, bundan sonra BMT-yə qadın rəhbərlik etsin". APA-nın "Assosiated Press" agentliyinə istinadən verdiyi xəbərə görə, bunu BMT baş katibi Pan Ki Mun bəyan edib.**

"BMT-yə ilk dəfə qadının rəhbərlik etməsinin əsl zamanı gəlib. Lakin bu məndən asılı deyil", - deyə Pan Ki Mun bildirib.

Qeyd edək ki, Pan Ki Munun səlahiyyət müddəti bu il dekabrın 31-də başa çatır. BMT Təhlükəsizlik Şurası yeni baş katibin namizədliyini Baş Assambleyaya tövsiyə etməlidir. Hazırda BMT baş katibi postuna 5-i qadın olmaqla, 11 nəfər namizəddir. Bağlı qapılar arxasında keçiriləcək seçkilərin üçüncü turu avqustun 29-na təyin olunub. İlk iki raund iyulun 21-i və avqustun 5-də baş tutub. Məlumatlara görə, seçkilərdə Portuqaliyanın sabiq baş naziri, 2015-ci ilədək BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarı olmuş Antoniu Qutyerreş liderlik edir.



## Keçmiş Eçmiədzin meri: "Azərbaycan vətəndaşlığına keçmək istəyirəm"

**Ermənistanın Eçmiədzin şəhərinin keçmiş meri Raçik Abqaryan Azərbaycan vətəndaşlığı almaq niyyətindədir. Buna səbəb keçmiş merin uzun illər yaşadığı ünvandan qeydiyyatdan xəbərsiz çıxarılmasıdır.**

Virtualaz.org Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu barədə R.Abqaryan özü məlumat verib. O, yenidən şəhər meri olmaq üçün namizədliyini vermək istəyərkən öyrənib. Məlum olub ki, R.Abqaryanın 2014-cü ildə yaşadığı ünvanda qeydiyyatını ləğv ediblər.

"Qeydiyyatdan çıxmaq üçün ailə üzvlərimizdən heç biri müraciət etməyib. Bu absurddur. Çünki bu şəhərdə 53 ildir yaşayıram. Mən bununla bağlı inzibati məhkəməyə müraciət etmişəm, amma məhkəmə mənim müraciətimi rədd edib", - deyə keçmiş mer bildirib.

Qeydiyyatının ləğvində hazırkı mer, general Manvel Qriqoryanın oğlunun əli varmı sualına gəlincə isə bildirib ki, heç kəsdən şübhələnmək istəmir, ancaq tamamilə aydın görünür ki, Ermənistanda heç bir qanun işləmir.

"Görünür, mən vətəndaşlıqdan çıxıb Azərbaycan vətəndaşlığını qəbul etməliyəm", - deyə keçmiş mer bildirib.

## Prokurorluq: "Gəncədə qadın özünü ehtiyatsızlıqdan yandırıb"

**Gəncə şəhər prokurorunun böyük köməkçisi Anar Haqverdiyev şəhər sakini Mehriban Alıyevanın özünü yandırması barədə məlumata aydınlıq gətirib. Anar Haqverdiyev APA-ya açıqlamasında bildirib ki, şəhər sakini Mehriban Alıyeva yaşadığı evin həyətyanı sahəsində qaz sobasında yemək bişirən zaman təbii qazla ehtiyatsız davranıb. Nəticədə üzərində olan paltar yanıb. M. Alıyeva dərhal Gəncə Şəhər Təcili Tibbi Yardım Stansiyasına çatdırılıb. Ona ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Hazırda onun səhhəti normaldır.**

A. Haqverdiyev göstərilənlərin M. Alıyevanın qardaşı Tapdıq Alıyev və gəlini Ülviyyə Namazova tərəfindən də təsdiq edildiyini deyib.



## Polisi öldürən şəxs 17 il azadlıqdan məhrum edilib

**Bakı Ağır Cinayətlər Məhkəməsində qətldə təqsirləndirilən İsgəndər Bəbirovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, prosesdə hökm oxunub. Hökmə əsasən İ. Bəbirov 17 il azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, məlum qətl hadisəsi ötən il noyabrın 21-də Xəzər rayonunun Şüvəlan qəsəbəsində qeydə alınıb. Lerik rayon sakini İsgəndər Bəbirov qısqanclıq zəminində ov tüfəngindən atəş açaraq Bakı şəhər sakinləri Malik Muradovu öldürüb, Nicat Şəmiyevə isə bıçaqla ayaq nahiyəsindən xəsarət yetirib.

Xəzər rayon 1-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İ.Bəbirov tutulub. Hadisə yerindən ov tüfəngi götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin 120-ci ( qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb. Qətlə yetirilən M. Muradovun Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinin əməkdaşı olduğu açıqlanıb.

## Bu gün 38 dərəcə isti olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, avqustun 17-də paytaxt və yarımadada şimal-qərb küləyi gündüz cənub-qərb küləyilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-25° isti, gündüz 30-35° isti, Bakıda gecə 23-25° isti, gündüz 33-35° isti olacağı gözlənilir.**

Azərbaycanın rayonlarında sabah hava şəraiti əsasən yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 33-38° isti, dağlarda gecə 15-19° isti, gündüz 25-30° isti olacağı gözlənilir. Tibbi-meteoroloji proqnoza görə, avqustun 17-də Abşeron yarımadasında meteoroloji amillərin normal sutkalıq gedişi meteohəssas insanlar üçün əsasən əlverişlidir. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 65-75 %, gündüz 30-40 % təşkil edəcək. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 24-25°, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacağı gözlənilir.

YENİ MÜSAVAT
N 180 (6501) 17 avqust 2016

**İqtisadi çətinliklər içində boğulan Rusiya daxildə yarana biləcək hər cür təhlükəni önləmək üçün diqqəti özü tərəfindən yaradılan xarici münaqişələrə yönəldir. Xatırladaq ki, 2013-cü ilin sonları - 2014-cü ilin əvvəllərində Ukrayna daxilində baş verən qarışıqlıqdan istifadə edərək Rusiya qardaş saydığı dövlətin ərazisinə daxil olaraq, onun torpaqlarının bir hissəsini özbaşına ilhaq edib, digər hissələrini isə işğal altında saxlayır.**



# Rusiya Türkiyəni zəif görüb Ukraynanın üzərinə yeriyir - Moskva Qara dənizin tək hakimi olmaq istəyir

## ABŞ-ın Ukraynadakı səfiri: “Krım həmişə Ukraynanın olub və belə də qalacaq”

Moskva bütün postsovet ölkələrində olduğu kimi, öncə psevdo-dövlətlər yaradıb sonra onları qorumaq altında faktiki işğalçılıq siyasəti yürüdür. Rusiya Ukrayna ilə münaqişədə daha da irəli gedərək onun ərazisinin işğalını faktiki deyil, hüquqi yolla formalaşdırıb. Putin rejimi Krımda təşkil etdiyi yalançı referendumla başqa bir dövlətin ərazisinin hüquqi yolla ilhaqını rəsmiləşdirib. Lakin Rusiya gözəl başa düşür ki, Krımın işğalının təktərəfli olaraq legitimləşdirilməsi mümkün deyil.

Mədəni və demokratik dünya birliyi lap öncədən Rusiyanın bu hərəkətlərinə qarşı sərt mövqe sərgiləyib.

Rusiya ilə Ukrayna arasında elan edilməmiş müharibə Minsk razılaşmalarından sonra bir müddət susqunluq dövrünə girmişdi. Lakin bugünlərdə Rusiya Krımda Ukrayna hərbçilərinin törətmək istədiyi terror aktının qarşısını aldığını bəyan edib.

Vladimir Putin isə Ukraynanın Krımda terror həyata keçirdiyini bildirib. O, insidentlə bağlı bütün məsuliyyəti Ukraynanın radikallarının deyil, məhz dövlətin kəşfiyyat orqanlarının üzərinə yıxıb. Putin bəyan edib ki, tərəflər arasında münaqişənin nizamlanması üzrə Normand formatında danışıqlar aparmağın daha faydası yoxdur. Rusiya Xarici işlər Nazirliyinin Ukraynaya yönəlik təhdid dolu bəyanatında isə insidentlə bağlı əsas günahkar olaraq birbaşa Ukrayna prezidenti Pyotr Poroşenko göstərilib: **“Əgər Ukraynanın Ali Baş Komandanı belə bir qərarın *(guya Krımda diversiya hazırlığının -red.)* hazırlanmasında iştirak edibsə, bu, onun sülh prosesinin qəbirqazanına çevrilməsi demək olacaq”.**

Kremlin Kiyevə qarşı demarşına Qərbin mövqeyi kifayət qədər sərt olub. ABŞ-ın Ukraynadakı *(Rusiya mətbuatı onu nifrətlə ABŞ-ın Kiyevdəki pro-konsulu, yəni canişini adlandırır - red.)* səfiri Ceffri Payet bəyan edib ki, ABŞ hökuməti Ukraynanın Krıma müdaxilə həyata keçirməsi barədə Rusiyanın səsləndirdiyi ittihamları təsdiqləyəcək heç bir dəlilə rast gəlməyib. Səfir Krım Rusiya tərəfindən işğal olunan yer kimi dəyərləndirərək, ölkəsinin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaları, Krımın işğalı başa çatanadək davam edəcəyini söyləyib. **“Krım həmişə Ukraynanın olub və belə də qalacaq”**, deyə səfir bəyan edib.

**ABŞ Dövlət Departamentinin sözçüsü Elizabet Trüdo da “Rusiya belə bəyanatlarla özünü Ukraynada yaratdığı əsas problemdən - Krımın işğalından və ölkənin şərq hissəsinin işğalı faktından yayındıra bilməz”** deyib. NATO-nun Baş Qərargahında da Rusiyanın Kiyevin ünvanına səsləndirdiyi ittihamların tutarlı dəlili olmadığı qeyd edilib. NATO insidentlə bağlı bəyanatında Rusiyanın Krımdakı hərbi fəaliyyətinin gərginliyin azaldılmasına xidmət etmədiyi vurğulayaraq, Rusiyanı Krımın işğalını dayandırmağa çağırıb.

ABŞ vitse-prezidenti Co Bayden Ukrayna prezidenti Pyotr Poroşenko ilə telefon söhbətində Ukraynanı Rusiya ilə gərginliyin artırılmasından qaçmağa çağırıb. Onun sözlərinə görə, Vaşinqton Ukraynanın suverenliyinin və ərazi bütövlüyünün bərpası üçün əlindən gələni edəcəkdir. Avropa Birliyinin xarici məsələlər üzrə komissarı Federik Mogerini də tərəfləri, xüsusilə Rusiyanı Minsk razılaşmalarına əməl etməyə çağırıb.

Görünür, Qərb dövlətlərindən ard-arda gələn açıqlamalar Ukrayna dövlətini əməlli-başlı ürəkləndirib. Xatırladaq ki, Ukrayna prezidenti Pyotr Poroşenko Rusiya prezidentinin məlum insidentlə bağlı bəyanatının boş fantaziyalardan ibarət olduğunu söyləmişdi. Ukrayna Təhlükəsizlik və Müdafiə Şurasının sədri Aleksandr Turçinov özünün facebook-dakı səhifəsində “Moskvaya təbliğat xarakterli ”sabun operalarını" daha yaxşı qurmaq üçün bir neçə yeşik sabun göndərməyi təklif edib.

**Moskva və Kiyev arasında mübahisə, məsələ ilə əlaqədar toplanan BMT Təhlükəsizlik Şurasının iclasında da qızğın müzakirə edilib:** “Hanı sübutlarınız, fotolarınız, video yazılarınız”, - deyə Ukraynanın BMT-dəki daimi nümayəndəsi Vladimir Yelçenko rusiyalı həmkarına səslənib. Ukraynanın ATƏT-dəki daimi nümayəndəsi Vladimir Aryevin “Kommersant” qəzetinə verdiyi açıqlamada “Münaqişənin danışıqlar yolu ilə həll edilməsinin mümkünsüzlüyünü söyləyən Ukrayna deyil, Rusiyadır”, - deyə bəyan edib.

“Kommersant”ın yazdığına görə, Qərb KİV-lərinin hadisə ilə bağlı narahat şərhlərinə rəğmən rəsmi məqamlar Rusiyanın Ukrayna üzərində hərbi hücum təşkil edə biləcəyinə inanmırlar. **“İqtisadi problemləri də nəzərə alaraq, Moskva sanksiyaların ləğv ediləcəyinə ümid edərək Ukraynada hərbi hərəkətlərdən çəkinir”,** - deyə “Nyu York Tayms” yazır.

Rusiya mətbuatının da etiraf etdiyi kimi, hər halda, Ukrayna Rusiyanın son insidentlə bağlı Kiyevə yönəlik tələbləri qarşısında əyilmədi. Krım insidenti isə Kiyev üçün münaqişənin kəskinləşməsi halında Qərbin reaksiyasını imtahan etmək üçün əla imkan oldu. Qərb KİV-lərində Rusiyanın Krım hadisəsi ilə bağlı versiyaları tamamilə puça çıxarılıb...

Ukrayna rəhbərliyi isə Moskvanı məsxərəyə qoyan açıqlamalar yaymaqda davam edir. Rusiya KİV-lərinin yazdığına görə, bundan başqa aydın oldu ki, hətta Rusiyanın Krımdakı hərbi və nəqliyyat infrastrukturuna qarşı hər cür akt Qərb tərəfindən qınanmaya məruz qalmayacaq. Hətta bu tip hadisələr Qərb tərəfindən Krımın “Rusiya işğalı”na qarşı müqavimət hərəkatı olaraq dəyərləndiriləcək. Rusiyanın bölgədə Kiyevə qarşı həmlələri isə Qərbin informasiya meydanında aqressiyaya hazırlıq və ya aqressiya aktı kimi qələmə veriləcək.

**Belə olan halda Rusiya Ukrayna ilə münasibətlərdə danışıqlardan qaçan, münaqişəni gərginləşdirən, aqressiya yaradan tərəf olmaq riski ilə üz-üzə qalıb. Deyəsən, bunu Rusiyada da başa düşənlər tapılıb:** “Kiyevlə münasibətlərin kəsilməsi Moskvaya qarşı yeni anti-Rusiya dalğasını yaradacaq. Onların məntiqi bundan ibarət olacaq ki, Rusiya danışıqlardan imtina etmək üçün diplomatik kanalları qəsdən bağlayır”, - deyə Rusiyanın beynəlxalq əlaqələr şurasının direktoru Andrey Kortunov “Kommersant”a açıqlamasında bildirir.

Rusiyanın Ukrayna ilə bağlı atdığı son addımlar bizi yenidən tarixə nəzər salmağa vadar edir. Çünki tarix nə qədər qəribə olsa da təkrarlanan təsadüflərlə doludur. 1853-cü ilin 21 fevralı. Həmin vaxtlarda Fransada yenicə dövlət çevrilişi həyata keçirilmiş, III Napoleon hakimiyyətə gəlmişdi. Rusiya Fransanın Avropada mövqelərinin zəiflədiyini düşünərək çoxdan arzuladığı addımı atmaq qərarına gəlir. İmperator I Nikolay böyük knyaginya Yelena Pavlovnanın evində təşkil edilən ziyafətdə Böyük Britaniyanın səfiri qraf Seymura yaxınlaşaraq onunla söhbət edir. Bu söhbət əsnasında imperator Türkiyənin xəstə adam olduğunu, sağalmasının mümkün olmadığını və onu öz aralarında bölməyi təklif edir.

Həmin vaxt dünyanın ən qüdrətli dövləti sayılan Böyük Britaniya olduqca sərt bir tərzdə buna qarşı çıxdı. Məsləhətçilərinin Qərbin etirazlarını nəzərə almadan müharibəyə başlamamaq barədə xəbərdarlıqlarına qulaq asmayan I Nikolay xarici işlər naziri, yunan əsilli qraf Nesselrodenin təhriki ilə Türkiyəyə qarşı hərbi əməliyyata başladı. Nəticədə Rusiyaya qarşı Qərbin aparıcı dövlətlərindən ibarət böyük bir koalisiya təşkil edildi. Daha sonra isə tarixə “Krım müharibəsi” kimi düşəcək hadisə baş verdi. Müharibə Rusiya üçün acınacaqlı sonluqla bitdi və Rusiya uzun müddət Qara dənizdə hərbi donanma saxlamaq hüququndan məhrum oldu.

Maraqlıdır ki, Rusiya hazırda da Türkiyədə yeni baş verən hərbi çevriliş cəhdindən sonra onun zəiflədiyini düşünərək “xəstə”, deyə adlandırdığı başqa bir dövlətin üzərinə yeriyir. Rusiyanın “Krım hoqqa”sını məhz Türkiyə ilə münasibətləri normallaşdırdıqdan sonra çıxarması bu nöqteyi-nəzərdən qiymətləndirilə bilər.

Lakin unutmayaq ki, Türkiyə Qara dənizdə gerçək rəqibinin kim olduğunu çox gözəl anlayır və beynəlxalq münasibətlərdə, Anadolu türkcəsi ilə təbir etsək, “bu gün bana, yarın sana” prinsipini hamıdan yaxşı qavrayıb...

❑ **Vaqif Hüseyn**



Elşən Mustafaoğlu

# MTN-də Şeyxə qarşı ifadə verməsi istənilən ilahiyyatçı hakim qarşısında

**Avqustun 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində Qafqaz Müsəlmanları İdarəsinin sabiq sektor müdiri, ilahiyyatçı Elşən Mustafaoğlunun məhkəmə prosesi davam etdirilib. Musavat.com-un əldə etdiyi məlumata görə, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə verib.**

Qeyd edək ki, ilahiyyatçının vəkili Əfqan Məmmədov bildirir ki, ittihamların heç biri mötəbər sübutlara söykənmir və ortada konkret faktlar yoxdur. Qapalı keçirilən məhkəmə prosesi avqustun 25-də davam etdiriləcək. E.Mustafaoğlu bundan əvvəlki məhkəmə prosesində ləğv edilmiş MTN-də ondan Allahşükür Paşazadə və general Rövşən Əkbərovun əleyhinə ifadə almaq istədiklərini demişdi. O, özünün günahsız olduğunu deyir.

E.Mustafaoğlu 2006-2007-ci illərdə “İctimai” TV-də “Cümə söhbəti” verilişinin müəllifi və aparıcısı, 2007-ci ildə ANS TV-də “Allah Haqqı” verilişinin aparıcısı olub.

Xatırladaq ki, E.Mustafaoğlu 2014-cü ilin dekabr ayında həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət) maddəsi ilə cinayət işi açılıb.

❑ **İlkin MURADOV**

## Elmar Vəliyevin oğlu haqda sensasion xəbərləri kim və niyə yayır?

### Elmir Vəliyevin bu yaxınlarda Bakıda bir nəfəri güllələdiyi, mübahisə zəminində olay çıxardığı bildirilir



**Gəncənin icra başçısı Elmar Vəliyevin oğlu haqda sensasion sayıla biləcək məlumat yayılıb. Azərbaycansaatı.tv-nin məlumatına görə, başçının oğlu Elmir Vəliyev Bakı şəhərində qarşılıqlı mübahisə zəminində bir nəfəri güllələyib. Lakin olay zamanı ölən olmayıb. Azərbaycansaatı.tv iddia edir ki, hadisənin üstü dərhal ən yüksək səviyyədə qapadılıb və təbii ki, şikayətin də olmaması, qeydə alınmaması üçün bütün vasitələr işə salınıb. Hadisə təqribən 10 gün əvvəl olub.**

Elmir Vəliyev haqda yayılan bu xəbərin nə dərəcədə doğru olub-olmadığını demək bir az çətindir. Çünki nə hadisənin baş verdiyi məkan göstərilib, nə xəsarət alan şəxsin ad-soyadı yazılıb, nə də hüquq-mühafizə orqanlarının açıqlaması var. Bir sözlə, iddia var, fakt isə yoxdur.

Elmar Vəliyevin oğlu haqda mətbuatda zaman-zaman belə xəbərlər dövriyyəyə buraxılır. Onun adı vaxtaşırı hansısa qalmaqalda hallandırılır. Elmir Vəliyevin Bakıda dəbdəbəli həyat sürdüyü bəllidir. O, Milli Məclisdə işləyir. Bu yaxınlarda oğul Vəliyevin hansısa xarici ölkəyə diplomatik işə göndəriləcəyi ilə bağlı xəbərlər də yayılmışdı. Onun Cənubi Amerika ölkələrindən birinə diplomatik işə göndəriləcəyi bildirildi. Həmin ərəfədə onun adı qalmaqallı xəbərlərdə hallanırdı.

Mətbuatda Elmir Vəliyevin barəsində "Gəncə "şahzadə"sinin qalmaqallı fəaliyyəti..." sərlövhəsi altında yazı təqdim edilmişdi. Həmin yazıda ölkə başçısı İlham Əliyevin məmurlara övladlarının xoşagəlməz hərəkətlərinə görə sərt xəbərdarlıq etdiyi vurğulanır və Vəliyevlərin həyat tərzləri haqda bilgi verilirdi. Gəncənin icra başçısı Elmar Vəliyevin və oğlu Elmir Vəliyevin Bakının Bilgəh qəsəbəsində sabiq polis polkovniki Tofiq Əsədovun bağ sahəsini zəbt etməsi, daha sonra Bakı sakini Səliqə Lətifovanın da eyni şəkildə işlədiyi dövlət qurumlarına müraciətləri diqqətə çatdırılırdı.

Digər bir yazıda isə Elmar Vəliyevin oğlunu "Gəncə Avropa Gənclər Paytaxtı - 2016" İctimai Birliyinin sədri postuna gətirməklə "varis planı" üzərində ciddi şəkildə işlədiyi iddia edilirdi. Elmar Vəliyevin oğlunu yüksək vəzifəyə təyin etdirmək üçün xəsislik etmədiyi, səxavət kisəsinin ağzını gen açdığı bildirilirdi.

Mətbuatda Elmir Vəliyevin PR-ı üçün atılan addımlar da yazılanları dolayısı ilə təsdiqləyirdi. 2015-ci ilin əvvəllərinə qədər Elmir Vəliyevin PR-ı aktiv şəkildə aparılsa da, artıq proses səngimiş kimi görünür. Belə bir şəraitdə icra başçısının oğlu haqda neqativ məlumatın hansı maraqlardan meydana çıxması bilinmir. Elmir Vəliyev haqda yayılmış son məlumata münasibət öyrənmək üçün Gəncə Şəhər İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Qurumdan bildirdilər ki, yayılmış məlumatları şərh etmirlər.

❑ **E.HÜSEYNOV**

## Sabiq polis rəisinə 200 min "atan" qadına 11 il həbs



**Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində Aygün Babaşovanın cinayət işi üzrə məhkəmə prosesi davam edib. Lent.az-ın məlumatına görə, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hakimlər kollegiyasının hökmünə əsasən Aygün Babaşova 11 il müddətinə azadlıqdan məhrum edilib.**

Xatırladaq ki, dövlət ittihamçısı çıxışı zamanı Aygün Babaşovanın 11 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi. Qeyd edək ki, ittiham aktına əsasən, A.Babaşova 8 nəfərin etibarından sui-istifadə edərək ümumilikdə 450 min manat pulu dələduzluq yolu ilə əldə edib. O, həmin şəxslərə bildirib ki, onlarla birlikdə biznes quracaq.

Zərərçəkənlərdən Məhəmməd Məhəmmədov Şəkidə 25 il Dövlət Yol Polisi Bölməsinin rəisi çalışıb. Aygün Babaşova biznes qurmaq adı ilə onun 200 min manatını alaraq dələduzluq edib. A.Babaşova Cinayət Məcəlləsinin 178.3.2. (külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə ittiham olunur.

# Böyük özəlləşdirmə - 65 dövlət əmlakı hərracda...

### Ekspertlər prosesi ölkə üçün faydalı saymaqla bərabər, onun şəffaf aparılmasını zəruri hesab edirlər

**Əmlak Məsələləri Dövlət Komitəsi 65 dövlət əmlakını özəlləşdirməyə çıxarıb. Bu proses ölkə mətbuatında böyük özəlləşdirmə dalğasının başlaması kimi dəyərləndirilib.**

**Komitədən verilən məlumata görə, Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və səmərəliliyinin artırılması sahəsində mühüm yeniliklərə başlanıb, çoxsaylı dövlət müəssisə və obyektləri özəlləşdirməyə çıxarılıb.**




Qeyd edək ki, bu tədbirlər prezident İlham Əliyevin "Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında" 19 iyul 2016-cı il tarixli fərmanına və dövlət başçısının bu sahədəki digər tapşırıqlarına uyğun olaraq həyata keçirilir. Artıq komitə tərəfindən 65 dövlət əmlakının özəlləşdirilməsi barədə hərraclar elan edilib. Bu əmlakların 25-i iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən səhmdar cəmiyyətlər, 2-si qeyri-yaşayış sahəsi, 28-i digər dövlət əmlak və obyektləri, 10-u isə nəqliyyat vasitələridir. Özəlləşdirməyə çıxarılan müəssisələr nəqliyyat, xidmət, kənd təsərrüfatı, o cümlədən qida istehsalı, inşaat və ticarət sahəsində fəaliyyət göstərirlər.

Özəlləşdirmədə mühüm yeniliklər də tətbiq olunacaq. Özəlləşdirməyə çıxarılan dövlət əmlakları inventar qiyməti ilə deyil, bazar dəyərlərinə uyğun qiymətlərlə hərraclara çıxarılıb. Komitədən bildirilir ki, bu addımlar ölkədə iqtisadi aktivliyin yüksəldilməsinə, yeni iş yerlərinin yaradılması ilə yanaşı, özəlləşdirmədən dövlət büdcəsinə daxil olmaların artırılmasına da müsbət təsirini göstərəcək.

**İqtisadçı ekspertlər də özəlləşdirmə prosesinin dövlət daxilolmalarını artıracağını, dövlətin yükünü azaldacağını bildiriblər. İqtisadçı ekspert Ruslan Atakişiyev "Yeni Müsavat"a açıqlamasında bildirib ki, özəlləşdirmə həmin müəssisələrin daha rentabelli işləməsinə səbəb olacaq:** "Devalvasiyadan sonra hökumətə iqtisadi islahatlarla bağlı bir sıra təkliflər verildi. O təkliflərdən bir istiqaməti də bir sıra dövlət müəssisələrinin özəlləşdirilməsi idi. Beynəlxalq təcrübə də onu göstərir ki, qlobal maliyyə böhranı yaşayan bir sıra inkişaf etmiş ölkələrdə dövlət öz bəzi müəssisələrini özəlləşdirib. Bu özəlləşdirmənin əsas əhəmiyyəti odur ki, dövlətin yükü azalır. Çünki Azərbaycanda özəlləşdirilməsi mümkün olan müəssisələrdən əksəriyyəti dövlət sektorundadır, dövlətdən birbaşa dotasiya alır. Lakin onların gəlirlərinin dövlət büdcəsinə xeyri demək olar ki, yoxdur. Bəzi hallarda bu müəssisələr lazımi rentabellik göstərmirlər. Əslində özəlləşdirmənin bir səbəbi də dövlət büdcəsindən həmin qurumların saxlanılmasına ayrılan vəsaitlərə qənaət etməkdir. Digər tərəfdən, özəlləşdirmə həmin müəssisələrin daha rentabelli işləməsinə səbəb olmaqla yanaşı, onların fəaliyyətindən dövlət daxilolmalarının artırılmasına səbəb olacaq".

**İqtisadçı ekspert onu da vurğuladı ki, özəlləşdirmə prosesinin özü dövlət büdcəsi üçün əlavə maliyyə mənbəyidir:** "Məlum olduğu kimi, bu ilin dövlət büdcəsində kəsirlər var və o kəsirlərin doldurulması üçün də dövlət müəssisələrinin özəlləşdirilməsi əhəmiyyət daşıyır. 2015-ci ilin sonunda 2016-cı ilin dövlət büdcəsi təsdiq olunan zaman orada dövlət daxilolmalarının artırılması, neft gəlirlərinin azalması fonunda büdcə gəlirlərinin genişləndirilməsi üçün bəzi məsələlər öz əksini tapmışdı. Burada özəlləşdirmə prosesinin həyata keçirilməsi və bununla da daxilolmaların artırılması məsələsi öz əksini tapırdı. Bəzi dövlət müəssisələrinin özəlləşdirilməsi dövlət üçün əhəmiyyət kəsb etməklə yanaşı, ictimai xidmətlər baxımından da əhəmiyyət kəsb edir. Bu, ictimai xidmətlərin keyfiyyətinin və səmərəsinin daha da yüksəldilməsinə, keyfiyyətə nəzarət sisteminin daha da təkmilləşdirilməsinə səbəb olacaq.

Özəlləşdirilən sahələrdə fəaliyyət göstərən qurumların xidmətində daha ciddi rəqabət mühiti yaranır, artıq onlar bazar tələbləri əsasında fəaliyyət göstərirlər. Bu da keyfiyyətə müsbət təsir göstərir".

**Kommunal xidmət sahəsində fəaliyyət göstərən inhisarçı dövlət qurumlarının özəlləşdirilməsinə gəlincə, iqtisadçı bildirdi ki, inkişaf etmiş ölkələrin təcrübəsində kommunal xidmətlər əsasən bələdiyyələrin nəzdindəki müəssisələr tərəfindən həyata keçirilir:** "Azərbaycanda da bu müəssisələrin özəlləşdirilməsi həm xidmət prosesini asanlaşdırar, həm də keyfiyyəti yüksəldə bilər. O baxımdan gələcəkdə bu məsələyə baxıla bilər. İnkişaf etmiş ölkələrin təcrübəsi də onu göstərir ki, bu kimi xidmət sahələri özəlləşdirildikdən sonra daha effektiv fəaliyyət göstərir".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov deyir ki, qarşıdakı dövrdə daha böyük özəlləşdirmə prosesinin şahidi ola bilərik:** "Bildiyiniz kimi, dövlət başçısı bu anonsu vermişdi və sərəncam da imzalamışdı ki, böyük özəlləşdirmə prosesinə özü nəzarət edəcək. İndi özəlləşdirmə prosesi başladı. Özəlləşdirilməsi nəzərdə tutulan müəssisələr içərisində həm səhmdar cəmiyyətlər var, həm dövlət qurumlarının nəzdində müəyyən müəssisələr var ki, özəlləşdirməyə getməlidir. Mən belə başa düşürəm ki, Dövlət Neft Şirkətinin tərkibində, "Azərenerji"nin tərkibində, digər şirkətlərin, o cümlədən nazirliklərin tərkibində köməkçi müəssisələr var ki, onların özəlləşdirilməsinə start veriləcək və bu proses davam edəcək. Ümumiyyətlə, indiki zamanda özəlləşdirmə prosesinin çox böyük əhəmiyyəti var. Lakin çalışmaq lazımdır ki, proses şəffaf aparılsın.

Özəlləşdirilən qurumlar ən azı 5 il ərazində fəaliyyətlərini davam etdirsinlər, ondan sonra qanunauyğun olaraq profillərini dəyişə də bilərlər".

**İqtisadçı -deputatın fikrincə, özəlləşdirilən sahələrdə yeni investisiya qoyuluşu xidmətin keyfiyyətinə müsbət təsir göstərəcək:** "Özəlləşdirən şəxs öz imkanları hesabına həmin xidmət sahəsində önəmli yeniliklər edə, inkişafa böyük təsir göstərə bilər. Hansı insanların imkanı və şəraiti varsa, onlar bu sahələrə vəsait qoyacaq, modernləşmə aparacaq. Prosesin dövlət büdcəsinə də faydası var, əlavə vəsait daxil olacaq. İndiki şəraitdə prosesi sürətləndirmək üçün buna ehtiyac var. Bildiyiniz kimi, dövlət büdcəsində müəyyən problemlər var. O problemlərin həlli üçün vəsaitlərin dövlət büdcəsinə daxil olması mühümdür".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 180 (6501 17 avqust 2016

# Həbsdəki generalın qanla qazanılan milyonları əlindən alınır

## Akif Çovdarovun daha bir əmlakı üzə çıxdı; Binəqədi Rayon İcra Hakimiyyəti həmin vaxt ağacların kəsilməsinə niyə reaksiya verməyib?

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyində (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəis olmuş, general-mayor Akif Çovdarovun milyonluq əmlaklarından daha biri haqda məlumatlar yayılıb. Avropa.info xəbər verir ki, sabiq MTN generalının inşa etdirdiyi binalardan birinin də Bakı şəhəri, Binəqədi rayonu 7-ci mikrorayon ərazisində yerləşdiyi məlum olub. Məlumata görə, Abay Kunanbayev küçəsində, keçmiş "Bolluq" bazarının qarşısında yerləşən binanın tikintisi Çovdarovun həbsindən dərhal sonra dayandırılıb.**




Əvvəlcə qeydiyyatdan qeyri-yaşayış binası kimi keçirilən tikili daha sonra 42 mənzildən və 6 qeyri-yaşayış obyektindən ibarət yaşayış binası kimi inşa olunub. Qonşuların dediklərinə görə, bina qarşı tərəfdə yerləşən yaşayış binasının həyətində insanların istirahəti üçün nəzərdə tutulmuş park ərazisində tikilib. Binanın təməli qoyularkən ərazidə 120-130 ağac kəsilərək yaşıllıq tamamilə məhv edilib.

Binəqədi Rayon İcra Hakimiyyəti də həmin vaxtda bu qədər ağacın kəsilməsinə heç bir reaksiya verməyib, ya da reaksiya verə bilməyib, bu məlum deyil. Hər halda, 120-dən çox ağacın kəsilməsi və yaşıllığın məhv edilməsi faktdır. Məlumatlara görə, Akif Çovdarov binanı tikdirməyə başlayarkən əvvəlcə bütün sənədlər onun qızının adına rəsmiləşdirilib. Onun həbs edilməsi ərəfəsində isə sənədlər başqa bir şəxsin adına keçirilib. Amma bu addımı da tikilinin Akif Çovdarova məxsusluğunu gizlətməyə imkan verməyib. O, həbs edilən kimi tikintidə işlər dayandırılıb. Binanın bundan sonrakı taleyinin necə olacağı bilinmir.

Akif Çovdarovun çoxsaylı belə tikililəri var və Binəqədi rayonu ərazisində ən məşhuru da adına "Zeytunluq" deyilən massivdə yerləşir. Hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan və özünü öldürmək üçün fürsət axtardığı bildirilən odioz generalın adı vəzifədə olduğu illər ərzində dəfələrlə "yaşıl soyqırım"da hallanıb. 2008-ci ilin fevralında Akif Çovdarov Binəqədi rayonu ərazisindəki "Zeytunluq" adlanan yaşıllıq massivində ağacları kəsdirərkən "Azadlıq" qəzetinin reportyoru Aqil Xəlilin fotokamerasına tuş gəlmişdi. Həmin vaxt Akif Çovdarov jurnalisti boğub öldürməyə cəhd etmiş, buna nail olmadıqda sonradan jurnalistin bıçaqlanması ilə nəticələnən provakasiyaları planlayıb həyata keçirmişdi. A.Çovdarovun qandallanmasından sonra onun Badamdarda böyük ərazini əhatə edən 3 imarətinin videosu da meydana çıxmışdı. Akif Çovdarov bir çox sahibkarların, məmurların cibinə girib özünə çoxsaylı mal-mülklərdən ibarət imperiya qurub. Dəhşətli əməllərə qol qoymaqla, sahibkarları oğurlayıb çoxsaylı villalarının zirzəmilərinə saldırıb pulları qoparmaqla varlanıb. Bu mal-mülkün bir gün başına uçmayacağına əminliyi yeni qanunsuz əməllərə yol açıb. Qollarına açarı başqalarının əlində olan bilərziklər vurulandan sonra Akif Çovdarov üçün geri sayım başlayıb. Qanla qazanılan milyonlar qanunla əlindən alınır.

Xatırladaq ki, A.Çovdarova qarşı Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə, seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

❑ E.MƏMMƏDƏLİYEV

# Azərbaycandakı Gülən tərəfdarlarını hansı maddələrlə ittiham gözləyir?

## Hüquqşünas cinayət maddələri ilə bağlı təxminlərini söylədi

**Türkiyədə dövlət çevrilişinə cəhddə ittiham olunan Fətullah Gülənin tərəfdarlarının Azərbaycanda qanunsuz hərəkətlərinin qarşısının alınması məqsədilə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.**



Prokurorluğun açıqlamasının ardından cinayət işinin konkret hansı maddələr üzrə aparılacağı barədə müəmma yaranıb. Maddələrin açıqlanmaması bəzi sualların meydana çıxmasına səbəb olub. İndiyə qədər gülənçilərdən həbs edilənlərin olduğu istisna deyil. Amma onların hansı maddələr üzrə ittiham olunduqları məlum deyil.

**Hüquqşünas Müzəffər Baxış** konkret maddələr göstərilmədiyindən, cinayət işi çərçivəsində şübhəli bilinəcək şəxslərin hansı maddələrlə ittiham olunacaqlarını indidən deməyin çətin olduğunu bildirdi: "Həmin şəxslərin hansı maddələrlə ittiham olunacaqlarını deməyə çətinlik çəkirəm. Türkiyə qanunvericiliyində dövlətə xəyanət maddəsi bizim Cinayət Məcəlləsi ilə üst-üstə düşsə, o zaman 274-cü maddə ilə həmin şəxslər ittiham oluna bilərlər. Bundan əlavə, hakimiyyəti zorla ələ keçirmə və ya saxlama, konstitusiya quruluşunun zorla ələ keçirilməsinə yönəlik hərəkətlər kimi maddələr Türkiyə Cinayət Məcəlləsində bu maddə üzrə nəzərdə tutulursa, bu ittiham da cinayət işinə salına bilər. Yaxud bizim Cinayət Məcəlləsində silahlı qiyam maddəsi var. Burada 12 ildən 20 ilə qədər cəza nəzərdə tutulur. Azərbaycanın ərazi toxunulmazlığına, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyətinin zərərinə olan, Azərbaycan vətəndaşı tərəfindən qəsdən törədilən əməl, düşmən tərəfə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, dövlətə qarşı düşmənçilik fəaliyyəti kimi ittihamlar da ola bilər ki, burada da 12 ildən 20 ilə qədər, yaxud ömürlük cəza nəzərdə tutulur. Yəni bu maddələri irəli sürə bilərlər. 214-cü maddədə nəzərdə tutulan terrorçuluq, qabaqcadan əlbir olma, mütəşəkkil dəstə yaratma, cinayətkar təşkilat tərəfindən terrorçuluq törətmə, ictimai təhlükəsizliyi pozma, ictimaiyyət arasında vahimə yaratma, dövlət və hakimiyyət orqanlarının, beynəlxalq təşkilatların qərarlarına təsir göstərmək məqsədilə fəaliyyət göstərmək, insanların həlak olması, onların sağlamlığına zərər vurulması kimi maddə tövsif oluna bilər. Bu maddə ilə 14 ildən 20 ilə qədər cəza və ya ömürlük cəza nəzərdə tutulur. Ola bilər ki, o şəxslərə insanlıq əleyhinə olan cinayətlərlə bağlı da ittihamlar verilsin. Onlara qarşı Cinayət Məcəlləsinin 12.1.2.3-cü maddələri də irəli sürülə bilər. Açığı inanmıram ki, bu iş üzrə tam obyektiv araşdırma aparılsın. Yalnız günahı olan şəxslərin cinayət məsuliyyətinə cəlb olunacaqlarına inamım azdır. Hansısa bir şəxs barəsində bu cinayət işi üzrə həbs edilməsi üçün tapşırıq verilsə, əminəm ki, heç bir sübut toplamadan həmin şəxslər cinayət məsuliyyətinə cəlb olunacaqlar. Bizim məhkəmələr də onlar haqqında cinayət hökmü çıxaracaqlar".

❑ Cavanşir ABBASLI



# Bu gün Natiq Cəfərlinin məhkəməsidir

## İlqar Məmmədov Cəfərlinin həbsini özünə təzyiq kimi qəbul edir; Fərəc Kərimli amnistiyaya düşsə də, azadlığa çıxacağı gün məlum deyil...

**Bu gün Bakı Apelyasiya Məhkəməsində ötən həftə həbs edilən REAL-ın icraçı katibi, iqtisadçı ekspert Natiq Cəfərlinin qərardan verdiyi şikayətə baxılacaq. Proses saat 15:00-da hakim Mirzəli Abbasovun sədrliyi ilə başlayacaq. Bu barədə iqtisadçı ekspertin vəkili Cavad Cavadov facebook səhifəsində paylaşdığı statusda məlumat verib. Vəkil məhkəmə prosesinin qapalı keçiriləcəyini bildirib.**

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun avqustun 16-da keçirilən iclasında N.Cəfərlinin məsələsi müzakirə olunub. Bu barədə "Yeni Müsavat"a məlumat verən İşçi Qrupunun üzvü, hüquq müdafiəçisi **Novella Cəfəroğlu** bildirdi ki, iclasda təkcə iqtisadçı ekspert deyil, son günlərdə həbs edilən digər şəxslərin də məsələsini müzakirə ediblər: "Son günlərdə həbs edilən şəxslərlə bağlı müzakirələrimiz oldu. Amma bu təkcə Natiq Cəfərli ilə bağlı olmadı, digərləri barədə də danışdıq. Onlarla bağlı görüşlər təşkil edəcəyik. Kimlərlə görüşəcəyik, o da müzakirələrimiz sırasında oldu. Bu barədə mətbuata məlumat verəcəyik".

Onu da qeyd edək ki, N.Cəfərlinin karantin müddəti başa çatıb. Ailəsi avqustun 17-də təcridxanaya onun üçün sovqat aparıb. Sovqat qəbul edilib. Cəfərli özü təcridxanadan evə zəng edərək, aparılan sovqatın ona çatdırıldığını, vəziyyətinin normal olduğunu bildirib.

Xatırladaq ki, N. Cəfərli avqustun 12-də Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırılıb. Daha sonra Nəsimi Rayon Məhkəməsinə aparılan N. Cəfərlinin barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. O, Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələrinə əsasən təqsirləndirilir.

**Bu arada REAL-ın həbsdəki sədri İlqar Məmmədovun Şəki Apelyasiya Məhkəməsinin qərarından verdiyi kasasiya şikayətinə baxılma müddəti yubadılır. Artıq REAL sədrinin Ali Məhkəməyə müraciətinin üzərindən 1 ay ötür. Onun vəkili Fuad Ağayev məhkəmənin yubadılması ilə bağlı yaranan sualın ona yox, Ali Məhkəməyə ünvanlanmasının vacibliyini vurğuladı:** "Müdafiə tərəfi olaraq, məhkəmənin vaxtını gözləyirik. Görək Ali Məhkəmə hakimləri nə vaxt onların üzərinə düşən vəzifəni icra edəcəklər. İlqar bəylə ötən həftə görüşdüm. Vəziyyətində elə bir dəyişiklik yoxdur".

**İ.Məmmədov icraçı katibinin həbsini özünə qarşı təzyiq kimi qəbul edir. Bu barədə qəzetimizə açıqlamasında onun həyat yoldaşı Vəfa Məmmədova məlumat verdi:** "Bazar günü telefonla danışdıq. Natiqin həbsinə görə çox əsəbi idi. Bildirdi ki, həbs ona təzyiq etmək üçündür".

**Hazırda icra prosesi gedən amnistiya aktına düşən Müsavat başqanının müavini Fərəc Kərimlinin azadlığa çıxacağı müddət isə hələ də məlum deyil. Vicdan məhbusunun atası Raqif Kərimli hazırda oğlunun cəza çəkdiyi 14 saylı cəzaçəkmə müəssisəsində amnistiya icrasının davam etdiyini söylədi:** "Deyirlər ki, amnistiya aktındakı siyahıda Fərəcin adı var. Amma icra prosesi həyata keçirilmir. Aktın icrası 4 ay müddətində həyata keçirilir. Biz də gözləməyə məcburuq. Hər həftə amnistiya ilə azadlığa buraxılanlar var, Fərəcin olduğu cəzaçəkmə müəssisəsindən. O müəssisədən çox məhbus amnistiyaya düşüb, təxminən 200 nəfərdən yuxarı. Onlardan yarısı hələ azadlığa buraxılmayıb. Fərəcin ümumi vəziyyəti yaxşı olsa da, müəssisədə bəzi problemlər var. Su vaxtında verilmir, bəzən də heç verilmir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 180 (6501) 17 avqust 2016

# YAP-çı deputat Qərbi topa tutdu - "Artıq ifşa olunub..."

## Son həbslər Azərbaycan-Qərb münasibətlərini pisləşdirə bilər

**Son günlərdə REAL-ın icraçı katibi Natiq Cəfərlinin həbsi ilə başlayaraq, bəzi siyasi baxışları olan şəxslərin saxlanılması bir çox məsələləri gündəm edib. Bu həbslərin fonunda əsas müzakirə mövzusu olan məsələ isə Azərbaycan-Qərb münasibətlərinin yenidən pisləşə biləcəyi yöndədir.**

Ekspertlərə görə, bununla Qərb dairələrinə bəhanə verilir. Çünki belə həbslər olan zaman ilk reaksiyalar xarici təşkilatlardan gəlir. Məhz bunun nəticəsində ötən ilin sonlarında Azərbaycanla Qərb arasında münasibətlər kəskinləşmiş, lakin ölkə iqtidarı bu ilin əvvəllərindən başlayaraq, tanınmış bəzi şəxsləri azad etməklə bu gərginliyi aradan qaldıra bilmişdi. Amma münasibətlərin soyuqlaşa biləcəyi ehtimalları son günlərin həbsləri ilə yenidən artmaqdadır. Hazırda əsas suallardan biri də həbslərin indiki zamana təsadüf etməsi ilə bağlıdır. Referendum öncəsi bu həbslər lazım idimi?

**YAP-ın Nəsimi rayon təşkilatının sədri, deputat Məlahət İbrahimqızı beynəlxalq təşkilatların siyasi məhbus adından təzyiq vasitəsi kimi istifadə etdikləri qənaətindədir:** "Azərbaycanda siyasi məhbus yoxdur. Sadəcə, beynəlxalq qurumlar bu addan istifadə etməklə təzyiq metodunun ən uğurlu yolunu arayırlar. Hansı ölkəyə təzyiq etmək istəyirlərsə, ilk növbədə, siyasi məhbus variantını önə çəkirlər. Uzun müddət xarici təşkilatlar siyasi məhbus termininin mənasını belə tapa bilmədilər. Çünki demokratik ölkələrdə siyasi baxışlara görə həbslər olmur. Şimali Koreya kimi ölkələrdə bu hallar ola bilər. Azərbaycan demokratiyaya əməl edən sivil ölkədir. Biri cinayət əməli törədir, nəticədə həbs edilir, başlayır ki, mən filan partiyanın üzvüyəm, toxunulmazlıq hüququm var. Bu bizim partiyaya da aiddir. Heç kimin belə bir hüququ yoxdur, yalnız bəzi şəxslərdən başqa. Zaman-zaman bu şəxslərin də üzərindən həmin hüquqlar götürülüb. Hüseyn Abdullayev, Gülər Əhmədova olaylarını xatırlayanlar yaxşı bilirlər. Bir tərəfdən hüququn aliliyi, digər tərəfdən isə toxunulmazlıqdan danışılır. Natiq Cəfərlinin siyasi baxışına görə həbs edilməsinə inanmıram. Görünür, fəaliyyətində qanun pozuntusu olub. Həbsxanalarda elə məhbuslar ola bilər ki, YAP üzvü olsunlar. Hazırda belə şəxslər var. Partiyamızın üzvü olanlar daha çox qanuna əməl etməli, örnək olmalıdırlar. Referendumun bəhanə edilməsi ilə razı deyiləm. Azərbaycanda 700 mindən çox YAP üzvü var. Onlar və qohumları kifayət edir ki, istənilən seçkidə qalib olaq. Bu baxımdan, formalaşan fikirləri əsassız hesab edirəm".

**Xanım deputat Qərbin ünvanına sərt tənqidlər də səsləndirdi:** "Qərb artıq ifşa olunub. Zaman-zaman Qərbin niyyətləri, hansı məqsədə qulluq etdikləri, fəlsəfələrinin ifşa olunması hallarının şahidi olmuşuq. Son zamanlarda bu proses daha da sürətlənib. Qərbin qaçqınlara, sulara qərq olunan insanlara, əzilən və qırğına məruz qalan xalqlara qarşı biganə münasibətləri onların iç üzünü ortaya çıxarıb. Sadəcə, bəzi ölkələr ağalıq etmək niyyətindədir. Suriya, İraq, Liviya, Əfqanıstan və bu kimi ərazilərdə özləri qəsdən problemlər yaradıblar. Onlarda nə ədalət ola bilər? Ümumiyyətlə, ədalətli ola bilərlər? Allahın yaratdığı insanı qorumayan Qərbin nəyindən danışmaq olar? Onlardan nə örnək götürə bilərik? Orta Şərqdən olan qaçqınların taleyini müdafiə etsinlər, ondan sonra danışsınlar. Türkiyənin başına hansı oyunların açıldığı gözümüzün qabağındadır. Parisdə terror olan kimi Qərb ölkələrinin rəhbərləri orada divar çəkmək istədilər. Amma biz daim terrordan əziyyət çəkən xalq olmuşuq. Bir dəfə də olsun ki, bizə qarşı həmrəy olmadılar. İkili riyakarlıqdan əl çəkmədilər. Bizi işğala məruz qoyan ermənilərı də eyni masada oturtdular. Türkiyəni də burada nümunə gətirə bilərik. 15 iyul hadisəsi isə hesab edirəm ki, dünyaya demokratiya dərsi keçən Qərbin utancı idi. Bundan xəcalət hissi keçirib utanmadılar - 15 iyulda reaksiya vermədiklərinə, həmrəylik göstərmədiklərinə görə. Halbuki Türkiyənin Avropa üçün böyük önəm daşıdığını bilirlər. Biz müstəqil dövlətik. Qərbin hansısa bir məsələyə münasibətinin necə olacağı bizim üçün önəm daşımamalıdır. Qoy Qərb desin ki, Azərbaycan nə deyə bilər. Böyük-kiçik qardaş anlayışları artıq yoxdur".



**Məlahət İbrahimqızı:** "Böyük-kiçik qardaş anlayışları artıq yoxdur"



**Novella Cəfəroğlu:** "Hakimiyyətdə kimlərsə yeni həbslərdə maraqlıdır"

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə son həbslərdən narahatdır. O hesab edir ki, Qərb tərəfindən təzyiqlərin yeni mərhələsi başlaya bilər:** "Yunuslar, İntiqam Əliyev, Xədicə İsmayıl, Rəsul Cəfərov kimi tanınmış məhbusları azad etdikdən sonra belə həbslər həyata keçirmək nəyə lazım idi? Demək kiməsə lazımdır. Hakimiyyətdə kimlərsə bunda maraqlıdır. İstəyirlər ki, Azərbaycan Qərblə baş-başa dursun. Son günlərdə deputatın villalarını göstərirlər, hazırda həbsxanada milyonları mənimsəyən şəxslər var, eləcə də milyonlarla kredit götürüb bunu ödəməyənlər var, bunun müqabilində Natiq Cəfərlini tutmaq absurddur. Demək, məqsəd Qərbdən gələn təzyiqləri artırmaqdır. Kimsə bundan məharətlə istifadə edir. Azərbaycana qarşı yeni-yeni layihələr hazırlanacaq, gündəmdən çıxan layihələr gündəmə gətiriləcək. Mitinq yoxdur, dövlətə qarşı təhlükə daxildə görünmür. Sadəcə, hakimiyyətə qarşı tənqidlər var idi ki, bu da normaldır. Sivil dövlətlərin hamısında belədir. Partiyalar, QHT-lər passiv fəaliyyətdədir. Belə vəziyyətdə yeni həbs dalğaları həyata keçirməyin nə mənası ola bilər ki? Demək, burada gizli məqsəd var".

❑ **Cavanşir ABBASLI**

# Yeni dərs ili dollara tələbatı daha da artırıb

## Tələb təklifi 12 dəfə üstələyir; ekspert "proseslər dolların hələ bahalaşacağından xəbər verir" deyir

**Manat günbəgün dəyər itirməkdə davam edir. Mərkəzi Bankın qərarı ilə avqustun 16-da milli valyutamızın dollara olan rəsmi məzənnəsi 1,6124 səviyyəsində müəyyən olunub. Bir gün öncə isə rəsmi məzənnə 1,6102 manat səviyyəsində olub.**

Qeyd edək ki, bu il dolların ən yuxarı həddi martın 11-də müşahidə olunub. Dolların rəsmi məzənnəsi 1.6456 səviyyəsinədək qalxıb, mayın 25-də isə ən aşağı səviyyəyə 1.4900 səviyyəsinədək düşüb. Hazırda demək olar ki, hər gün Mərkəzi Bank manatı cüzi də olsa ucuzlaşdırmaqda davam edir.

**Hazırkı prosesin səbəbləri ilə bağlı "Yeni Müsavat"a açıqlama verən iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, bunun səbəbi dollara tələbatın yüksək olmasıdır:** "Dollara tələb yenə yüksəkdir. Mərkəzi Bankın keçirdiyi hərraclarda dollara tələbin təklifi 12 dəfə üstələməsi qeydə alınıb. Bu isə o deməkdir ki, artıq tələblə təklif arasında ikirəqəmli fərq var. Sözsüz ki, dollara tələbin yüksək olması nəticə etibarilə manatın dəyərinin aşağı düşməsinə gətirib çıxarır və dolların kursunda artımlar müşahidə edilir. Hərraclarda kommersiya bankları manatın məzənnəsini müəyyənləşdirirlər. Nəticədə buna uyğun olaraq da Mərkəzi Bank rəsmi kursu elan edir. Dollara tələbin yüksək olmasının bir neçə səbəbi var. Bəzi kommersiya bankları xarici öhdəliklərini ən qısa zamanda yerinə yetirməyə çalışırlar və dollara tələbat artır. İdxalın artması, bu işlə məşğul olan sahibkarların da dollara tələbini artırır. Xüsusən də dərs ilinin başlaması ilə əlaqədar məktəb ləvazimatlarına, məktəbli geyimlərinə tələbin artması gözlənilir, bu da nəticə etibarilə dollara tələbi artırır. Bu da özünü məzənnədə göstərir".

**Ekspertin sözlərinə görə, digər bir səbəb odur ki, vətəndaşların dollar yığımları davam edir:** "Çünki vətəndaşlar da vəsaitlərini dollarla saxlamağa üstünlük verirlər. Nəticədə dollara tələbat artırır. Növbəti dövrlərdə də tələb yüksək olaraq qalacaq. Tələbin yüksək olması fonunda növbəti dövrlərdə də dolların məzənnəsinin möhkəmlənəcəyi güman edilir. Xatırlayırsınızsa, manatın məzənnəsinin möhkəmləndiyi dövrdə mən öz açıqlamalarımda bunun müvəqqəti olduğunu, yenidən dolların kursunun artacağını proqnozlaşdırmışdım. Çünki həmin dövrlərdə dollara tələbin artması müşahidə olunurdu. Nəticə etibarilə son iki ayda dolar möhkəmləndi. Əgər iyunun əvvəllərində 100 dollar almaq üçün 1149 manat ödəmək lazım idisə, indi 100 dollar üçün 167 manatdan çox vəsait ödəmək lazımdır. Ona görə də, proseslər dolların hələ bahalaşacağından xəbər verir". **Vüqar Bayramov güman edir ki, Mərkəzi Bank artıq prosesə müdaxilə etmək istəmir:** "Bu da onunla bağlıdır ki, Mərkəzi Bank manatın real bazar dəyərinə yaxınlaşmasına çalışır. Əgər Mərkəzi Bank mövcud qaydalar daxilində müdaxilə etməməkdə davam edərsə, əsasən də Dövlət Neft Fondu tərəfindən dollar təklifini həyata keçirərsə, bu o deməkdir ki, manatın dəyərinin aşağı düşməsi və bazar dəyərinə yaxınlaşması müşahidə olunacaq. Ona görə də hələlik manitar siyasət dolların məzənnəsindəki artımlara hesablanıb. Güman olunur ki, Mərkəzi Bank manatın bazar tarazlığını yaratmağa çalışır. Manatın bazar tarazlığı isə indiki məzənnə ilə müqayisədə dolların daha da baha olması deməkdir".




**İqtisadçı məzənnə ilə bağlı konkret fikir söyləməyin hazırda çətin olduğunu da diqqətə çatdırdı:** "Çünki bütün hallarda üzən valyuta rejimi olsa belə, tənzimlənən valyuta rejimi tətbiq edilir. Mərkəzi Bank valyuta ehtiyatlarını bazara çıxarıb istənilən zaman artımın qarşısını ala bilər. Mərkəzi Bank manitar siyasəti dəyişib dolların bahalaşmasının qarşısını almaq istəsə, bu qurumun əlində rıçaqlar var. Lakin güman olunur ki, mərhələli şəkildə manat dollara nisbətdə dəyər itirəcək".

Qeyd edək ki, manatın ucuzlaşmasının səbəbləri ilə bağlı "Azadlıq" qəzetində də maraqlı bir yazı dərc edilib və orada qeyd olunur ki, milli valyutanın dəyərdən düşməsinin səbəbi bahalı villa sahibləridir. İqtisadçı ekspert Nemət Əliyevin sözlərinə görə, onlar daşınmaz əmlaklarının dəyərdən düşdüyünü görüb bazara çıxarır və satdıqdan sonra həmin pula dollar alaraq evdə saxlayırlar və dolların daha yüksək həcmdə bahalaşacağı anı gözləyirlər. Bu isə bazarda dollara tələbi kəskin artırır və manatın ucuzlaşmasına səbəb olur.

**Bu fikri dəyərləndirən iqtisadçı ekspert Rəşad Həsənov isə bildirdi ki, hazırda daşınmaz əmlak bazarında ciddi durğunluq müşahidə olunur:** "Bazarda demək olar alış-satış əməliyyatları dayanmış vəziyyətdədir. Belə bir şəraitdə düşünmürəm ki, asanlıqla qısa müddətə daşınmaz əmlakın likvitliyi təmin edilə bilsin. Buna görə də daşınmaz əmlakdan əldə edilən vəsaitlərin bazarda dollara tələbatı formalaşdırması ehtimalı olsa da, çox cüzi təsirləri ola bilər. Hesab edirəm ki, bunun başqa səbəbləri var. Hazırda valyuta bazarında yaranmış situasiya, manatın dəyər itirməsi daha çox həmin səbəblərdən qaynaqlanır".

❑ **Nərgiz LİFTİYEVA**

**Avqustun 18-də ANS-in qapadılmasının bir ayı tamam olur. Bu müddət ərzində aparılan məhkəmə işləri də bir nəticə verməyib və telekanal rəhbərliyinin iddiaları təmin edilməyib. Xatırladaq ki, ANS TV məhz Türkiyədə baş verən olaylardan sonra, 15 iyul çevrilişinə rəhbərlik etməkdə şübhəli bilinən Fətullah Gülənlə müsahibəni yayımlamaq istədiyi üçün bağlandı. İlk günlərdə telekanalın fəaliyyətinin 1 aylıq bağlandığı deyilsə də, sonradan məhkəmə qərarı ilə lisenziyası tamamilə ləğv edildi.**




ANS rəhbərliyi ilə əlaqə yaradıb münasibət öyrənmək istəsək də cəhdlərimiz nəticə vermədi. Görünür, telekanal rəhbərliyi hələ ki danışmaq istəmir.

Xatırladaq ki, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Res-

# ANS-in bağlanmasından bir ay ötür: "Yeri görünür..."

## Telekanalın şikayəti yenə rədd edildi; **MTRŞ-nin aparat rəhbəri:** "Kanalın lisenziyası məhkəmə qərarı ilə birdəfəlik ləğv edilib"


Elçin Şıxlı


Arif Əliyev

Milli Televiziya və Radio Şurasının ANS-in yayımının dayandırılması ilə bağlı yaydığı məlumatda deyilirdi ki, ANS Müstəqil Yayım və Media Şirkəti Azərbaycan və Türkiyə xalqları arasında qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin ruhuna zidd mövqe tutub, Türkiyə dövlətinin və hakimiyyətinin əleyhinə təbliğat aparıb, bu ölkədə terrorçu təşkilat kimi tanınan, çoxsaylı insan ölümünə səbəb olmuş qanlı hadisələri təşkil edən Fətullah Gülənə və onun tərəfdarlarına dəstək verib. Hadisə baş verən andan ANS telekanalı ayrı-ayrı reportajlarında, müsahibələrdə Azərbaycan ictimaiyyətinə Türkiyədə baş verən hadisələrin "hakimiyyət tərəfindən təşkil edilən şou" olduğunu təlqin etməyə, Türkiyə hakimiyyətinin həyata keçirdiyi tədbirləri gözdən salmağa çalışıb. ANS-in ABŞ-dakı əməkdaşı Türkiyədə hakimiyyət çevrilişinə rəhbərlik etməkdə şübhəli bilinən Fətullah Güləndən müsahibə alıb, bu müsahibə yerli və xarici KİV-lər vasitəsilə anons edilib. Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, ANS telekanalı terrorizmin təbliği istiqamətində fəaliyyətini davam etdirib və sair..."

Daha sonra iyulun 29-da Bakı Apelyasiya Məhkəməsi ANS TV-nin lisenziyasını ləğv edib. ANS telekanalının rəhbərliyi lisenziyaya xitam verilməsi ilə bağlı qərardan kasasiya şikayəti verib. İşə Ali Məhkəmədə baxılacaq, lakin hələ ki məhkəmə vaxtı təyin olunmayıb.

Qeyd edək ki, hazırda ANS TV-nin binası boşaldılıb, qapılar möhürlənib və binaya polis əməkdaşları nəzarət edir. Televiziyanın əməkdaşları məzuniyyətə göndərilib. Rəhbərlik isə ümidlə ANS haqqında müsbət qərar veriləcəyini gözləyir.

ANS-in fəaliyyətinin dayandırılması media ictimaiyyətinin öndə gələn isimlərini də narahat edib. Onlar telekanalın fəaliyyətinin bərpasına çağırış ediblər.

**Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna-Zerkalo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Azərbaycan teleməkanında ANS-in yeri görünür:** "Bu kanal bağlanandan sonra efirdə xəbər adına heç nə qalmayıb. ANS-in açılması Azərbaycan teleməkanı üçün mütləqdir və vacibdir. Bu prosesdə gözləntim odur ki, sağlam məntiq üstün gəlməlidir, ANS açılmalıdır. Lakin indi proses uzana da bilər. Bu, bir neçə ay çəkə bilər. Televiziya elə bir mexanizmdir ki, onu bağlamaq asandır, yenidən bərpa etmək çətin olur. Ancaq hər halda, istərdim ki, ANS telekanalı fəaliyyət göstərsin".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin rəhbəri Arif Əliyev də "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, ANS-in fəaliyyətinin bərpasına ehtiyac var:** "ANS bütün narazılıqlara, ondan gözləntilərin bəzən doğrulmamasına rəğmən Azərbaycan teleməkanında fərqli bir düşüncə idi. Mövzu müxtəlifliyinə görə, ictimaiyyətlə əlaqələrinin çəkisinə görə bu kanal seçilirdi. İndi ANS yoxdur və mənə elə gəlir ki, Azərbaycan televiziya efiri, jurnalistikası özünün inkişafında böyük bir itki verib. Bunun bərpasına gəlincə, nə qədər acı olsa da düşünürəm ki, ANS-i açmaq üçün bağlamayıblar, şəraitdən, bəhanələrdən istifadə edərək çoxdankı bir planı həyata keçiriblər. Mən, açığı, ANS-in bərpasına çox sevinərdim, ancaq bunu olduqca müşkül məsələ hesab edirəm".

**Məsələ ilə bağlı Milli Televiziya və Radio Şurasının (MTRŞ) aparat rəhbəri Toğrul Məmmədov isə bildirib ki, ANS TV-nin lisenziyası məhkəmə qərarı ilə ləğv edilib və bərpası gözlənilmir:** "Qərardan məhkəmə şikayəti vermək onların hüququdur, şikayət verə bilərlər. Lakin lisenziya məhkəmə qərarı ilə birdəfəlik ləğv edilib".

publikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayım və Media" Şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən 1 ay müddətinə dayandırılması, 25 oktyabr 2013-cü il tarixli TR 099 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə məhkəmədə iddia qaldırılması, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununun 23.2.8-ci maddəsinin tələbinə uyğun olaraq "ANS ÇM Yayım və Media" Şirkətinə 25 oktyabr 2013-cü il tarixdə verilmiş TR 100 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə qərar qəbul edib.

Əlavə edək ki, dünən 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində "ANS Müstəqil Yayım və Media" Şirkətinin Milli Televiziya və Radio Şurasına (MTRŞ) qarşı qaldırdığı iddia üzrə məhkəmə iclası keçirilib.

APA-nın məlumatına görə, hakim İlham Əhmədovun sədrliyi ilə keçirilən prosesdə məhkəmənin qəbul etdiyi qərardan "ANS Müstəqil Yayım və Media" Şirkətinin verdiyi şikayətə baxılıb. Şirkətin şikayəti təmin edilməyərək, Bakı Apelyasiya Məhkəməsinə göndərilib.

❑ **Nərgiz LİFTİYEVA**

# Tuninq olunan maşında gəzən çempionu tatamiyə necə çırpdılar...



**Samir SARI**

**Kəndimizin satirik şairlərindən biri hələ sovet vaxtı qudurğanlıq edənlərə dair şeir yazmışdı, iki misrası yadımda qalıb. Beləydi:**

***Dədəsi, babası ulaq minənin***
***Balası "Volqa"da bəy oldu, getdi...***

O vaxt ölkədə iki-üç avtomobil markası vardı, ən bahalısı "Volqa" (QAZ-24, QAZ-31) idi. Bu günün "Mersedes Galendevagen"i nədirsə, o vaxtların QAZ-24-ü də o idi və bu maşından birini alıb altına qoyanlar özlərini kübar kastadan sayırdılar.

Şair də ona vurğu salırdı ki, "Volqa"da şütüyənlərin dədə-babası bir müddət öncə ulaq minirdilər, at minənlərə həsədlə baxırdılar, amma gör dövran necə dəyişibsə, vəziyyət belədir.

Deyim ki, dövran dəyişməyə meylli şeydir, tez-tez dəyişir. Dəyişiklik gah yaxşılığa doğru olur, gah da pisliyə doğru.

Çox az adam olar ki, gün gələ, kasıbçılığın daşını qəfildən ata və qudurmaya. Hər 10 adamdan 8-i, bəlkə də 9-u mütləq əndazəsindən çıxacaq, özünü elə aparacaq ki, sanki həmişə pullu-mallı olub.

O gün dostlar qəfildən varlanan gənc idmançılara dair bəzi şeylər danışdılar... Adam sadəcə mat qalır.

Bilirsiniz, bizim ölkədə kəskin şəkildə varlanmağın yollarından biri yaxşı vəzifəyə keçən qohumunun, tanışının səni gömrük və vergi sisteminə yaxşı işə düzəltməsidirsə, digəri olimpiya və çempionat medalı qazanmaqdır.

Birinci sahə inhisarda olduğu və oraya kasıb adamlar buraxılmadığı üçün kasıbların gücü əzələlərinə çatır, çalışır-vuruşur, gecə-gündüz məşq edir, tatamidə, rinqdə can qoyur, axırda qızıldan-gümüşdən (heç bürünc də pis deyil) bir medal qazanır və həyatlarını dəyişdirirlər.

Bizdə belədir: bir ixtiraçı kimya aliminin, səmərələşdirici neft mühəndisinin 145 ilə qazana biləcəyi pul-paranı bir həftənin içində 20-22 yaşlı gənc idmançıya verirlər. Hələ mükafatlandırma bununla da bitmir. Subay gəncə 3-4 otaqlı, supertəmirli mənzil də bağışlanır. Bəzi böyük şirkətlər, holdinqlər vətənpərvərliyin cuşa gəlməsi prosesində iştirakçı olmaq, bir az da gözə girmək üçün çempion gəncə bahalı avtomobillər hədiyyə edirlər. Gənc bir də baxır ki, əlinin altında yarım milyon pulu, 2-3 mənzili, 5-6 maşını var.

İndi beləsi özünü oliqarx saymasın, neyləsin? Bu qədər var-dövləti yarışmanın yarımfinalı və finalında sərf etdiyi 12 dəqiqənin içində qazanan oğlanın başı, sovet yazarlarının sözü olmasın, müvəffəqiyyətdən gicəllənərmi, gicəllənməzmi?

Əlbəttə, gicəllənər, bəzi başlar buna heç dözməz və tamam gicqulu olar.

Dostlar danışır ki, ötən illərdə ölkəyə medalla qayıdan gənc idmançılardan ikisinə yuxarıda sözünü etdiyim şirkətlərdən biri bahalı maşın bağışlamaq qərarına gəlib. Avtomobillərin təxminən 150 min dollar qiyməti olub və onları evakuatorla gətiriblər federasiyanın qabağına ki, çempionlara hədiyyə etsinlər. Çempionun biri baxıb ki, avtomobillərdən birində gecə eynəyi var, birində yoxdur, tərs kimi, bunun bəxtinə düşəndə eynək yox imiş. İdmançı burnunu sallayıb oturub ki, bu nədir, bu nə ayrı-seçkilikdir. Eynək məsələsi düzələndə çempionun daha bir kaprizi üzə çıxıb, istəyib ki, onun avtomobili tuninq olunsun, yəni maşının vizual görünüşü bəzək-düzəkli olsun. Durduğu yerdə 300 min manat xərcə düşmüş səxavətli şirkətin rəhbərliyinin əlacı kəsilib, fikirləşiblər ki, hadisə mediaya-filana sızar, şirkətin imicinə xələl gələr, ona görə də avtomobilləri yenidən evakuatora yükləyiblər (kilometrajının sıfırı pozulmasın) və tuninq ustasının yanına aparıblar ki, maşın çempionun zövqünə uyğun bəzənsin.

Bu hadisə barədə eşidən hər kəs deyir, vallahi, o şirkət rəhbərinin yerində olsaydım, maşınları çempionlara verməkdən imtina edərdim, soruşanda da deyərdim, sexdədir, bəzənir.

Amma hamımız bilirik ki, bu işlər belə deyil. Güman ki, şirkət rəhbərliyinə çempionları qane etməyi tapşırıblar, onlar da ta neynəsinlər, "qızıl oğlan"ların nazıyla oynamağa məcburdurlar.

Bəs sonrası necə oldu? Heç nə. Çempionlardan biri başını aşağı saldı, məşqini etdi, növbəti yarışlara hazırlaşdı. Amma avtomobilini tuninq etdirən o biri mindi bahalı maşınına, başladı yollarda şütüməyə, bar-bar gəzməyə, xırda çaplı lotuluqlar eləməyə. Nəticəsi də o oldu ki, növbəti yarışlardan birində adamı götürüb çırpdılar tataminin üstünə.



# Məzələşdirmə proqramı, 3-cü hissə

Zamin HACI
zaminhaci@gmail.com

**Guya birinci və ikinci özəlləşdirməni çox yarıtmışdılar, mayda təzə özəlləşdirmə elan elədilər, millətin gözünə bir-iki ay da bununla kül üfürdülər. Hətta mən özüm necə həvəsə gəlmişdimsə istifadəsiz qalmış özəlləşdirmə çekimi axtardım, dedim girişim bu ciddi işə, dövlətçiliyimizə töhfə verim, iqtisadiyyatımızı dəstəkləyim və sairə. Ancaq məlum oldu özəlləşdirmə çekimi güvələr yeyiblər.**

Mayda verilən sərəncam ümumən çox zarafatcıl idi, misal üçün, orda Kərəm Həsənovun Dövlət Əmlak Komitəsinə (DƏK) özəlləşdirmə fəaliyyətini dayandırmaq əmr edilirdi, bu səlahiyyət dövlət başçısına verilirdi. Sanki Kərəm müəllimin komitəsinin bu işləri görməsi üçün səlahiyyətlərini buna qədər Gürcüstan prezidenti müəyyən edirmiş. Ya da belə anlaşılırdı ki, prezident öz komitə sədrinə etibar eləmir. Bəs onu işdə niyə saxlayır? Qəribədir.

İndi isə 3 aylıq dəhşətli, genişmiqyaslı, cahanşümul, fısqırıq hazırlıqlardan sonra 3-cü özəlləşdirmə proqramı açıq elan olunub, özəlləşdiriləcək müəssisə və obyektlərin siyahısı internetə qoyulub. Ən ləzzətlisi odur ki, DƏK bu obyektlərə bütün planetdə, hətta deyərdim kainatda yaranacaq böyük marağı nəzərə alaraq onların yerləşdiyi ərazilərin Google.Maps - peykdən çəkilmə şəkillərini, koordinatlarını, o cümlədən fotolarını sayta yerləşdiribdir.*(ttp://privatization.az/index.php/az/sas-s-hif/mue-ssis-l-r# adlı bir ünvandır, girin siz də tamaşa edin, şəxsən mən dünən xeyli baxdım).* Bax, elə obyektlərin haqqında bu ətraflı məlumatları görəndə Kərəmi ağlamaq tutur. Kərəm Həsənovu yox, bu, ata sözündəki Kərəm obrazıdır.

Öncə onu deyim ki, çağdaş iqtisadiyyat, özəlləşdirmə baxımından cəlbedici ola biləcək xidmət, telekommunikasiya, səhiyyə, infrastruktur kimi sahələrdə ümumiyyətlə 1 ədəd də müəssisə özəlləşdirməyə çıxarılmır. Sənaye bölümündə beş-altı obyektin adı var, onlardan yalnız Daşkəsən Filizsaflaşdırma Kombinatı bir az gurultulu ada malikdir, ancaq onun da xammalı polad istehsalı üçün artıq səmərəli deyil. Üstəlik, vaxtilə bu filizlər Gürcüstana, Rustaviyə aparılıb polad alınırdı, indi kim alar-almaz məlum deyil.

Demək olar bütün bu "zavod" adlı obyektlər sovetdən qalma köhnə, hər mənada çürümüş bina və anbarlardan başqa bir şey deyil. Bəlkə 90-cı illərdə onları kiməsə sırımaq olardı, ancaq indi çətin ağlı başında kimsə bu zibil yığınına yaxın dursun. Əksəriyyəti 1961, 1971-ci illərdə tikilmiş "kombinat" və "zavodlardır". Bildiyiniz kimi, SSRİ-də belə xəstəlik var idi, istənilən balaca sexə zavod adı qoyurdular, sən də deyirdin görəsən bu Mingəçevir Regenerat ZAVODU nə qayırmaqla məşğuldur. Sanki bir hərbi, dövlət sirri adı daşıyırdı. Sən demə maşında ayaq altına qoymağa rezin buraxırmış. DƏK bu "zavod-sex"in xarabalığını almaq üçün "qaz" axtarışlarını cəlbedici etməyə görün necə fənd işlədibdir: saytda yazıblar ki, bu zavodun emalı üçün xammal ölkə ərazisində müftədir. Yəni, hardan istəsən köhnə təkərləri yığıb rezin emal edə bilərsən. Əla təklifdir, vallah. Güvələrin evi yıxılsın, çekimi yeməsəydilər onu bu Degenerat Zavoda yatırardım. Məhlədə bir-iki köhnə təkər də gözaltı eləmişəm.

Özəlləşdirməyə çıxarılan zavodcuqların hamısında hazırkı işçi sayı... 2 nəfər göstərilib, bəzilərində isə utanıb heç göstərməyiblər. Sizcə, o 2 nəfər kim ola bilər? Mən ehtimalımı yazıram: biri zavodun direktorudur, o biri də həyətə toplaşan küçə itlərini qovmaq üçün saxlanan qarovulçu ağsaqqaldır.

Hələ orda "Cəlilabad Məişət" ASC-nin binası var, göydələn kimi yerdir. Bir az uçub-dağılıb, qapı-pəncərəsində hörümçəklər tor qurub, ancaq özəlləşdir, sənin olsun. İstəsən söküb yerində dəlləkxana aç. Sökmədən hər mərtəbədə çayxana, domino oynamaq yeri, gəlin bəzəmə otağı kimi məişət işləri də açmaq olar.

Cəlbedici olsun deyə DƏK obyektlərin yerləşməsinin üstünlüyünü açıqlayıb, misal üçün, çoxunda belə yazıblar: "Yaxınlığında avtomobil yolu var". Nə yaxşı! Yoxsa fotodan elə zənn edirsən, misal üçün, İmişli Yağ-Pendir Kombinatı Suriyanın Homs şəhərində Əl Bağdadinin təzəcə tərk elədiyi binadır, koalisiya ordusunun raket atəşlərindən güclə qurtulubdur.

Uca millətimizi bu böyük özəlləşdirmə münasibətilə təbrik edirəm.

# Şoyqunun qəfil Bakı ziyarətində üçüncü hədəf




# Rus-türk anlaşmasında "Azərbaycan izi" - ilginc gəlişmə

## Ankara-Moskva barışından sonra şimal qonşumuz üçün ölkəmizin geostrateji önəmi ikiqat artıb; Rusiya Xəzərdən Suriyanı vurmaq üçün Bakının razılığını niyə istəyib, Türkiyənin 3 bəndlik həll planı nəyə hesablanıb? Rus hərbi nazirin Azərbaycan səfərinin və dənizdəki son hərbi təlimlərin daha bir pərdəarxası...

**Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Azərbaycana iki günlük işgüzar səfəri haqda yazmışdıq. Səfər çərçivəsində nazirin prezident İlham Əliyev və azərbaycanlı həmkarı Zakir Həsənovla görüşlərində əsasən iki ölkə arasında hərbi-texniki əməkdaşlıqla (silah ticarəti) bağlı məsələ və Qarabağ mövzusunun müzakirə olunduğu deyilirdi.**

Bundan əlavə, yayılan informasiyalara görə, tərəflər bəzi beynəlxalq və regional təhlükəsizlik məsələlərini də diqqət mərkəzində saxlayıb. Lakin həmin məsələlərin nədən ibarət olduğu açıqlanmırdı. Bununla belə, qabarıq şəkildə müşahidə edilən bir detal var. Nədən söhbət gedir?

Ondan gedir ki, Rusiya-Türkiyə münasibətlərinin istiləşməsi Qarabağ problemi ətrafında danışıqlara da yeni stimul və pozitiv dinamika gətirib. Eyni zamanda Azərbaycanın regionda önəmini, o sırada Rusiya üçün geostrateji önəmini xeyli artırıb, adekvat surətdə işğalçı Ermənistanın əhəmiyyətini azaldıb, faktiki, onu "oyundankənar" vəziyyətə salıb. Prezidentlərin uğurlu Bakı zirvəsi, Peterburqda tarixi Ərdoğan-Putin görüşü, yeni Bakı-Moskva-Ankara formatının yaradılması təklifinin gündəmə gəlməsi və son olaraq Sergey Şoyqunun Azərbaycana səfəri bunu təsdiqləmiş oldu.

*****

Bu arada S.Şoyqunun Bakıya səfərinin daha bir ilginc məqsədi üzə çıxıb. Belə ki, "Komsomolskaya pravda" qəzeti yazıb ki, səfərdə əsas məqsədlərdən biri Xəzərdən Suriyaya zərbə endirmək üçün platsdarmın yaradılması olub (virtualaz.org). Nəşr bildirir ki, Sergey Şoyqunun müdafiə naziri Zakir Həsənovla danışıqlarında Moskva və Bakının Xəzərdə birgə hərbi fəaliyyəti barədə söhbət gedib. Bildirilir ki, birgə fəaliyyətlə bağlı bütün məsələləri yerindəcə razılaşdırmaq üçün Şoyqu özü ilə birlikdə mütəxəssisləri də Bakıya aparıb.

Birgə fəaliyyətin mahiyyətinin nədən ibarət olacağı barədə isə heç nə deyilmir. Lakin məlumdur ki, Rusiya Hələb şəhərinin terrorçulardan və müxalif qruplardan təmizlənməsi üçün həlledici, eyni zamanda irimiqyaslı əməliyyata hazırlaşır. Və bu əməliyyatda Xəzərdən də istifadə edəcək. Xəbər verildiyi kimi, Rusiya Suriyadakı hədəflərə zərbələr endirmək üçün qanadlı raketlərin İran və İraq hava sahəsindən keçməsinə dair icazə istəyib. Tehran bu istəyi artıq müsbət cavablandırıb.

Məlumatlara görə, hazırda Rusiyanın Xəzər donanması dənizdə döyüş şəraitinə maksimal yaxınlaşdırılmış hərbi təlimlər keçirir. "Nezavisimaya qazeta" yazır ki, təlimlərə "Kalibr" qanadlı raketləri ilə silahlanmış hərbi gəmilər də qatılıb."Warfare Worldwide" bloqunda isə dünən səhər saatlarında yer alan digər məlumatda isə deyilir ki, Rusiya İranın Həmədan vilayətindəki aviabazaya qırıcı-bombardmançılar yerləşdirib.

**"Bu təyyarələr Hələbdə başladılacaq əməliyyatda istifadə olunacaq. Qırıcıların İranda yerləşdirilməsi onların uçuş məsafəsini azaldacaq və beləliklə də bomba yükünü artırmağa imkan verəcək"** - məlumatda deyilir.

*****

Beləliklə, gözlənilir ki, Rusiya Hələbdən ABŞ-ın dolayısıyla dəstəklədiyi "Əl-Nüsra Cəbhəsi"ni *(indiki adı "Ceyş əl-Şam"dır)* və digər müxalif qrupları vurub çıxarmaq üçün eyni zamanda Xəzər dənizindən, Suriyadakı Hmeymim aviabazasından, İranın Həmədan aviabazasından və Xəzər dənizindən, habelə Aralıq dənizindəki gəmilərdən zərbələr endirəcək. Xəbərlərə görə, Xəzər donanmasının ardınca Rusiya donanması Aralıq dənizində də manevrlərə başlayıb.

Müdafiə naziri Sergey Şoyqu "Rossiya 24" telekanalına müsahibəsində deyib ki, Rusiya ABŞ-la birgə Hələbdə terrorçulara qarşı birgə fəaliyyəti razılaşdırmaq barədə müzakirələr aparır və tərəflər anlaşmaya yaxındır. "The Guardian" qəzeti də Amerikanı Rusiyanın Hələbdə başladacağı əməliyyata dəstək verməyə yaxın olduğunu yazır. Lakin Birləşmiş Ştatların Dövlət Departamenti Rusiya müdafiə nazirinin sözlərinə şərh verməyib.

*****

Maraqlıdır ki, məhz S.Şoyqu Bakıda olarkən Türkiyənin Suriya böhranının həlli ilə bağlı 3 maddəlik planı üzə çıxıb. Bu barədə danışan baş nazir Binəli Yıldırım jurnalistlərə açıqlamasında, üstəlik, Suriya probleminin həllinə çox yaxın olduqlarını bildirib. **"Biz bölgədə marağı olan qüvvələrlə birlikdə problemi həll edəcəyik"** deyən baş nazir məsələnin həlli ilə bağlı Türkiyənin irəli sürdüyü prinsipləri belə sıralayıb: **"1.Suriyanın ərazi bütövlüyü qorunacaq. Başqa sözlə, bu ölkədə PYD-nin (terrorçu PKK-nın Suriyadakı qolu - red.) təsiri altında olacaq bir dövlətin qurulması müzakirə edilməyəcək; 2.Yeni mərhələdə məzhəbə, etnik və regional məsələlərdən birinin üstünlüyünə əsaslanan bir dövlət qurulușu olmayacaq. Məzhəb əsasında bir dövlət qurulmayacaqsa, deməli, Bəşər Əsəd də siyasi səhnədə uzun müddət qalmayacaq; 3. Məsələnin Türkiyə ilə bağlı ən əhəmiyyətli hissəsi isə suriyalı qaçqınların geri qayıtmasıdır. Böhran həll edilməyə başlayandan sonra Türkiyə də daxil olmaqla, bölgə ölkələrinə sığınan və qaçan suriyalı qaçqınlar müəyyən proqram əsasında geri dönəcək".**

*****

Türkiyə baş nazirinin inamlı açıqlamasından ən əvvəl belə qənaət hasil olur ki, Suriya böhranı ilə bağlı Moskva ilə Ankara arasında, hər halda, hansısa ilkin (gizli) anlaşma var. İkinci qənaət budur ki, rəsmi Ankara Bəşər Əsəd məsələsində müəyyən güzəştə gedib və onun aralıq mərhələdə hakimiyyətdə qalmasına artıq etiraz eləmir; **"Bəşər Əsəd siyasi səhnədə uzun müddət qalmayacaq" anonsunun açması yəqin ki, budur. Üçüncüsü, belə görünür, Qərb, ABŞ da bu anlaşmaya loyal yanaşır, Ən azı, Avropaya miqrant axınının durdurulacağına görə»** - bunu da baş nazir Yıldırım anons edib.

Yada salaq ki, 3 bəndlik plandan öncə Türkiyə Rusiyaya Suriyada İŞİD-ə qarşı birgə quru əməliyyat aparmaq barədə təklif vermişdi. Məlumatlara görə, rəsmi Moskva bu təklifi qismən qəbul edib, lakin daha ətraflı öyrənəcəyini bildirib.

Beləliklə, Ankara-Moskva barışından sonra gözlənildiyi kimi, Azərbaycan da daxil, bölgəmiz və onun ətrafında yeni, eyni zamanda taleyüklü proseslər start götürüb. Həssas və mürəkkəb bir mərhələyə adlamışıq. Ötən saylarımızda vurğuladığınız kimi, bu prosesin uğurlu sonluğu, Suriyanın də aktiv müdaxiləsi ilə həlli əsas problemimiz olan Qarabağ məsələsinin də çözümü üçün "yaşıl işıq" yandıra bilər.

**❑ Analitik xidmət**

Dünən Ermənistanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin müdafiə nazirlərinin toplantısı keçirilib. Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, iclasda Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistanın müdafiə nazirliklərindən olan nümayəndə heyətləri, təşkilatın baş katibi Nikolay Bordyuja, Rusiya Silahlı Qüvvələrinin Birləşmiş Qərargahının rəisi Anatoli Sidorov, Rusiyanın müdafiə naziri Sergey Şoyqu iştirak edib.



# Azərbaycanın "Rusiya NATO"suna qoşulmasının tək şərti

## Ekspertlərə görə, öncə Ermənistan qoşunları torpaqlarımızdan çıxarılmalıdır

Bu arada Rusiyanın Azərbaycanı KTMT-yə *(ona "Rusiya NATO-su" da deyirlər)* üzv görmək istədiyi və bu istəyini yaxınlarda rəsmi Bakının nəzərinə çatdırdığı haqda xəbərlər yayılıb. Avqustun 8-də Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Bakıya səfəri, bu səfərdən 4 gün sonra-avqustun 12-də Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Rusiyaya işgüzar səfərə getməsi, bundan iki gün sonra Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Bakıya gəlişi belə xəbərlərin təsadüfi ortaya çıxmadığı qənaətini yaradır.

Əgər deyilənlər doğrudursa, Rusiya Azərbaycanı KTM-yə qoşmaq istəyirsə, Ermənistanın həmin təşkilatda olması və işğal davam etdikcə Azərbaycanın KTMT-yə üzv olması mümkündürmü?

**Sülh və Konfliktlərin Həlli Mərkəzinin sədri Elxan Mehdiyev öncə xatırlatdı ki, Azərbaycan vaxtilə KTMT-nin üzvü olub və 1999-cu ildə oranı tərk edib. Lakin indi hakimiyyətin KTMT-yə üzvlüyə razılıq verməsi gözlənilən deyil:** "Azərbaycanın rayonları yenicə işğal olunmuşdu. 1993-cü ilin ikinci yarısı - Əbülfəz Elçibəy hakimiyyəti devrildikdən sonra yeni hakimiyyət KTMT-yə üzv olmuşdu. 1999-cu ildə isə çıxmışdı. İndiki dönəmdə mən düşünmürəm ki, Azərbaycanın torpaqları işğaldan azad olunmayınca Azərbaycan Ermənistanın da üzv olduğu hərbi blok-KTMT-yə daxil olsun. Öncə torpaqlarımızdan Ermənistan


Elxan Mehdiyev


Qabil Hüseynli


Əhəd Məmmədli

qoşunları çıxarılmalıdır ki, KTMT-yə üzvlüyün ən azından bir məntiqi olsun. Yoxsa Azərbaycanın oraya daxil olması mümkün görünmür və heç bir məntiqə uyğun gəlməz. Bunun üçün isə Rusiya Ermənistana Azərbaycan torpaqlarından öz qoşunlarını çıxarmaq üçün təsir və təzyiq etməlidir ki, Azərbaycan öz torpaqları üzərində suverenliyini bərpa etmiş olsun. Rusiya Azərbaycanı KTMT-də görmək istəyirsə bunu etməlidir".

**Politoloq Qabil Hüseynli də rəsmi Bakının indiki vəziyyətdə KTMT-yə üzvlüyə razılaşacağına inanmır:** "Dağlıq Qarabağ problemi həll edilməyincə, Azərbaycanın işğal edilmiş əraziləri azad edilməyincə, Rusiya bu məsələlərlə bağlı ciddi və real töhfə verməyincə, Azərbaycan nəinki KTMT-yə, heç Avrasiya İttifaqına da daxil olmamalıdır. Azərbaycan nəyə görə və hansı məntiqlə Ermənistanın üzv olduğu hərbi bloka-KTMT-yə girməlidir?! Torpaqlarımızı işğalda saxlayan Ermənistanın təhlükəsizliyini qorumağı belə çıxır ki, öz üzərimizə götürəcəyik?! Axı bu, mümkün deyil. Öncə torpaqlarımızdan erməni qoşunlar çıxmalıdır. Azərbaycan üstəlik də Bloklara Qoşulmayanlar Hərəkatının üzvüdür. Azərbaycan bir hərbi-siyasi ittifaqa üzv olacaqsa, Qoşulmayanlar Hərəkatından çıxmalıdır. Azərbaycan Rusiyadan ərazi bütövlüyünün təmin olunmasına ciddi dəstək görəcəyi və real nəticələrə nail olunacağı halda, Rusiyanın projeləri olan ittifaqlara gedə bilər. Biz yalnız böyük güzəştlər hesabına o ittifaqlara daxil ola bilərik. Azərbaycan artıq beynəlxalq münasibətlərin fəal oyunçularından biridir. Dünyanın böyük beynəlxalq təşkilatlarının hamısında Azərbaycanın özünəməxsus və getdikcə güclənən xüsusi çəkisi formalaşır".

**Sivilizasiyalar və Konfliktlər Analitik Mərkəzinin sədri Əhəd Məmmədli isə bildirdi ki, Rusiya artıq neçə illərdir Azərbaycanı KTMT-yə qoşmaq istəyir və bunun yerinə Azərbaycana vədlər verir ki, guya Qarabağ probleminin həll olunmasına kömək edəcək. Azərbaycan qətiyyən belə vədlərə inanmamalıdır:** "Vaxtilə MDB-yə qoşmaq üçün də bizə oxşar vədlər verirdilər. Azərbaycan MDB-yə daxil oldu, ancaq Rusiya verdiyi heç bir vədi yerinə yetirmədi. Azərbaycan KTMT-yə qoşulsa, Qarabağ məsələsi dondurulmuş vəziyyətdə qalacaq. Uzağı, bizə 5 rayon qaytara bilərlər ki, bu da Dağlıq Qarabağda keçiriləcək referendum əvəzinə. Referendum isə Dağlıq Qarabağın Laçın və Kəlbəcərlə birlikdə tam itirilməsi deməkdir. İşğala tamam son qoyulmayınca, mən inanmıram ki, Azərbaycan hakimiyyəti KTMT-yə üzv olacaq. Bu, həm də iqtidarın balanslaşdırılmış siyasət fəlsəfəsinə tam zidd hərəkət olar. Bununla YAP iqtidarı Amerika və Avropanı özünə qarşı qaldırar. İndiki durumda hakimiyyətə bu lazım deyil".

❑ **Etibar SEYİDAĞA**

# "BMT ya öz gücsüzlüyünü etiraf etməli, ya da..."

## Hərbi və siyasi ekspertlər Qarabağ məsələsinin qurumun müzakirəsinə çıxarılmasından nəticə gözləmir



**"Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" və "GUAM məkanında dondurulmuş münaqişələr, onların sülh, beynəlxalq təhlükəsizlik və inkişaf üçün fəsadları" adlı qətnamə layihələri BMT Baş Assambleyasının 71-ci sessiyasının gündəliyinə salınıb.**

Bildirilir ki, "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə layihəsi BMT Baş Assambleyasının 70-ci sessiyasının gündəliyində olsa da, müzakirəyə təqdim olunmadığı üçün ötən il olduğu kimi bu il də növbəti sessiyanın gündəliyinə daxil edilib. Qeyd edək ki, BMT Baş Assambleyasının 71-ci sessiyası 13-26 sentyabr tarixlərində BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında baş tutacaq.

Bəs Qarabağ məsələsinin BMT gündəliyinə çıxarılması nə vəd edir? Xüsusilə də aprel döyüşlərindən sonra yaşanan təsadüf etməsi Azərbaycana əlavə üstünlük qazandırırmı? Ola bilərmi Azərbaycanın qarşısında "danışıqlara xələl gətirmək"lə bağlı iddialar qoyulsun və rəsmi Bakı məsələnin gündəlikdən çıxarılmasına razılıq versin? Ərazi bütövlüyü məsələsi BMT Baş Assambleyasında səsverməyə çıxarılsa, həmsədrlər yenə bitərəf qala bilərlərmi?

Azərbaycan XİN-dən məsələyə münasibət öyrənə bilmədik. Ekspertlərin isə yanaşması müxtəlifdir. **Politoloq Elxan Şahinoğlu** təəssüflə bildirdi ki, Qarabağ münaqişəsinin BMT səviyyəsində həll perspektivi yoxdur: "Çünki həmsədr dövlətlər - Rusiya, ABŞ və Fransa buna lüzum görmür. Söhbət həm də BMT Təhlükəsizlik Şurasına üzv və veto hüququ olan dövlətlərdən gedir. Hər dəfə Azərbaycan müttəfiqlərinin dəstəyi ilə Qarabağ məsələsini BMT müstəvisinə çıxarmaq istədikdə böyük dövlətlər ünvan kimi ATƏT-i göstərirlər. Halbuki biz ATƏT-dən şikayətçiyik, bu təşkilat münaqişənin ədalətli həllini sürətləndirməkdə, işğalçıya təzyiq etməkdə acizdir. Aprel döyüşləri göstərdi ki, münaqişənin həlli yolu nə ATƏT, nə də BMT-dən keçir, əsas bizim qətiyyətimizdir. Aprel döyüşlərinin Azərbaycan üçün iki müsbət nəticəsi oldu. Birincisi, az da olsa bir neçə strateji yüksəklik əldə etdik, 20 ildən çoxdur qələbəyə susamış bizlər üçün bu vacib idi. İkincisi, məhz aprel döyüşlərinin nəticəsi olaraq bu gün Ermənistan qarışıb, hərbi uğursuzluq və cəbhə bölgəsindəki yüzlərlə itki onları bir-birinə düşmən edib".

**Hərbi ekspert Üzeyir Cəfərov də BMT-dəki müzakirələrdən heç bir gözləntisinin olmadığını bildirdi:** "Ona görə ki, ötən illər ərzində BMT özünün qəbul etdiyi 4 qətnaməyə hörmət qoymadı. Bu qurumun Qarabağla bağlı heç nə etmək fikri yoxdur. Hətta Azərbaycandan olan deputatlar BMT baş katibi Pan Gi Mina Qarabağla bağlı suallar ünvanlasalar da, o, bu sualları cavabsız qoydu. Əslində Azərbaycan BMT-nin vəzifəli şəxslərinə qarşı iddia qaldırmalıdır ki, onlar öz üzərinə düşən vəzifələri yerinə yetirmirlər və məsələnin həllini ATƏT-in üzərinə atıblar. ATƏT-in Minsk Qrupunun həmsədrləri isə sadəcə öz günlərini keçirir. İndi də Anjey Kasprşik monitorinq qrupunun ştatının genişləndirilməsi üzərində işləyir".

**Ü.Cəfərov rəsmi Bakını açıq və qəti mövqe sərgilməyə çağırdı:** "Azərbaycan bütün dünya dövlətlərindən təkidlə tələb etməlidir ki, ya BMT bu məsələnin həllini boynuna götürsün, ya da Azərbaycan birtərəfli qaydada lazımi addımlar atacaq. Azərbaycan əsgəri düşmənə yerini göstərməyə hazırdır. Azərbaycan artıq yumşaq, humanist mövqedən sərt mövqeyə keçməlidir. Çünki yumşaq mövqe tutduqca məsələnin həllini uzadırlar. Düzdür, Rusiya hansısa addımları atmağa çalışır. Ancaq erməni məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına imkan verməyəcək. Rus politoloqların ərazilərin qaytarılacağı barədə açıqlamaları isə vaxtı uzatmağa xidmət edir. BMT ya öz gücsüzlüyünü etiraf etməli, ya da ən sərt şəkildə Ermənistanı cəzalandırmalıdır".

❑ **Cavid TURAN**

# İran öz adamını Ankara və Moskvaya göndərir




**İran xarici işlər nazirinin müavini Hüseyn Cabiri Rusiya və Türkiyəyə səfər edəcək. Axar.az xəbər verir ki, bu barədə informasiyanı İran Xarici İşlər Nazirliyi yayıb.**

Nazirlik Cabirinin Türkiyəyə öz həmkarı Ümid Yalçının dəvəti ilə gedəcəyini bildirib. Bundan sonra isə nazir müavininin Moskvaya gedəcəyi gözlənilir. Hələlik səfərin dəqiq tarixi haqqında heç bir məlumat verilmir.

Qeyd edək ki, dünən Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov İrana səfər edib. O, səfər çərçivəsində Hüseyn Cabiri və İran xarici işlər naziri Məhəmməd Cavad Zəriflə görüşüb. Görüşdə əsas müzakirə mövzusu Suriya olub.

# Hollandiya Jurnalistlər Birliyinin üzvü olan azərbaycanlıdan "Yeni Müsavat"a açıqlamalar

## **Vüqar Abbasov:** "Apreldə ermənilər Hollandiyada təbliğat aparırdılar ki, guya Azərbaycana İŞİD döyüşçüləri kömək edir, Qarabağdakı ermənilərə İŞİD-lə Azərbaycan ordusu birləşərək hücum ediblər"

**Hollandiyada fəaliyyət göstərən "Connect" Təşkilatının sədri, Hollandiya Jurnalistlər Birliyinin üzvü Vüqar Abbasov "Yeni Müsavat" qəzetinin qonağı olub. Təşkilatın fəaliyyəti, Hollandiyada Azərbaycan diaspora təşkilatlarının, həmvətənlərimizin durumu və digər məsələlərlə bağlı qəzetimizə maraqlı müsahibə verib.**

***- Vüqar bəy, "Connect" Təşkilatını nə zaman və kimlərlə yaratmısınız?***

- "Connect" Təşkilatı ötən il təsis edilib və fəaliyyətə başlayıb. 2008-ci ildən Hollandiyanın Zierikze şəhərində yaşayıram. "Connect" Təşkilatını yaratmazdan öncə mən fərdi şəkildə fəaliyyət göstərirdim, yaratmağı planlaşdırdığım təşkilatın Hollandiya ictimai, siyasi çevrələri, media orqanları ilə əlaqələrinin olması üçün öncədən iş aparırdım, əlaqələr qururdum. Hollandiya Jurnalistlər Birliyinin üzvü olmağımdan istifadə edib bir sıra görüşlər keçirmişdim. Nəhayət, keçən ilin sonlarında holland dostlarımla qərara gəldim ki, birlikdə "Connect" Təşkilatını yaradaq. Mən uzun müddət Azərbaycanda AzTV-də işləmişəm, müxtəlif media orqanlarında yazılarım çap edilib, eyni zamanda Bakıda turizm biznesi ilə məşğul olmuşam. Bütün bu təcrübələrim Hollandiyada fəaliyyətimin qurulmasında, istiqamətlənməyimdə rolunu oynayıb. Hollandiyaya köçdükdən sonra öncə holland dilini öyrəndim və 2010-cu ildən bu ölkədə ümumi diaspor fəaliyyətinə qatılmağa başladım. "Connect" Təşkilatı sırf diaspor fəaliyyəti ilə məşğul deyil. Biz Hollandiya və Azərbaycan, eləcə də Hollandiya ilə digər türk dilli ölkələr arasında mədəni, iqtisadi əlaqələrin daha da sıx qurulmasına öz töhfəmizi verməyə çalışırıq. Məqsədimiz odur ki, təşkilatımız heç bir kənar maliyyə dəstəyinə ehtiyac olmadan fəaliyyət göstərmək imkanını əldə etsin. Yalnız belə olduğu halda ortaya səmərəli iş qoymaq mümkündür. Təşkilatımızın bu günə qədər həyata keçirdiyi bütün işləri öz hesabımıza eləmişik. Hər bir azərbaycanlı yaşadığı xarici ölkədə öz bacardığı, imkanı çatdığı qədər Azərbaycanın milli maraqlarını təbliğ eləmədir.

***- İndiyədək təşkilatınız hansı işləri həyata keçirib? Hollandiya cəmiyyətində Azərbaycanı, Azərbaycanın işğala məruz qalan ölkə olduğunu bilirlərmi?***

- Mən hələ 2010-cu ildə Hollandiya parlamentinin üzvlərinə görüş üçün müraciət etdim. Parlamentdə təmsil olunan İşçi Partiyasının üzvü, deputat, ədliyyə naziri statusunu daşıyan türk əsilli Nəbahat Albayarakla görüşdüm. Azərbaycanla, Qarabağ problemi ilə bağlı onu xeyli məlumatlandırdım. Müəyyən qədər informasiyası öncədən də var idi. Bundan sonra bir sıra digər parlamentarilərlə, bələdiyyə başçıları ilə görüşlərimiz olub. Bütün görüşlərimdə Qarabağın Azərbaycan ərazisi olduğunu, Ermənistan tərəfindən işğal olunduğunu tarixi, hüquqi faktlarla diqqətə çatdırmışam. Görüşdüyüm insanların bəzilərinin ermənilərin illərlə apardığı təbliğatın təsiri altında yanlış informasiya ilə yükləndiyinin şahidi olmuşam və həmin adamlara əsl həqiqətin necə olduğunu izah etmişəm. "Connect"in fəaliyyətə başlaması yeni olsa da qeyd etdiyim istiqamətdə addımlarımız davam etdirilir. Bu ilin aprelində Qarabağ cəbhəsində hərbi əməliyyatlar olan zaman bütün erməni saytları, ermənilər Hollandiyada və digər Avropa ölkələrində təbliğat aparırdılar ki, guya Azərbaycana İŞİD döyüşçüləri kömək edir, Qarabağdakı ermənilərə İŞİD-lə Azərbaycan ordusu birləşərək hücum ediblər. Biz Ermənistan səfirliyinin qarşısında etiraz aksiyası keçirirdik və oradan bütün ictimaiyyətə bəyan edirdik ki, ermənilərin İŞİD-in Azərbaycana kömək etdiyi təbliğatına heç kim inanmasına, belə bir şey yoxdur. Bu zaman qəfildən bir dəstə gənc peyda oldu və səfirliyin önündə "Təkbir", "Allahu-əkbər" deyə qışqırmağa başladılar. Ermənilər üçün həmin adamların bu addımı göydəndüşmə fürsət oldu. Səfirliyin pəncərəsindən həmin gənclərin videosunu çəkib öz böhtanlarına "sübut" kimi yaymağa başladılar. Həmin bir qrup gənc əslində öz hərəkətləri ilə Azərbaycanın xeyrinə yox, ziyanına hərəkət etmiş oldular. Mən buradan bütün soydaşlarımıza müraciət edirəm ki, belə məsələlərdə diqqətli olsunlar. Biz müsəlmanıq, azərbaycanlıyıq, amma hansı şüarın harada səsləndirilməsinin lazım olduğunun fərqinə varmaq vacibdir. Mən Hollandiyada keçirdiyim görüşlərdə, verdiyim müsahibələrdə, efirdən çıxışımda deyirəm ki, Qarabağda yaşayan ermənilər də Azərbaycan vətəndaşlarıdır və Azərbaycan dövləti onlara sahib çıxmağa hazırdır. Ancaq bir çox soydaşlarımız bəzən görürsən ki, "erməniləri qıracağıq" kimi ölkəmizin zərərinə olan fikirlər işlədirlər. Biz isə bir təşkilat olaraq avropalıları əmin etməyə çalışırıq ki, Azərbaycan dövləti erməni xalqına düşmən kəsilməyib, torpaqlarımızın işğalına son qoysalar, ermənilərlə birlikdə yaşamaq mümkündür. Ermənilərin Avropada təbliğatına bu cür təbliğatla zərbə vurmaq mümkündür, "erməniləri qıracağıq" təbliğatı ilə yox. Hollandiya Avropa Birliyinin önəmli üzvlərindən biridir və bu ölkənin siyasi, ictimai çevrələrinin mövqeyinə təsir etmək vacibdir. Biz buna çalışırıq.



***- Azərbaycanlılar və ermənilərin Hollandiyada sayı, fəallığını müqayisə edəndə üstünlük hansındadır?***

- Say hesabı ilə azərbaycanlılar ermənilərdən çoxdur. Səfirliyə əsasən statistik məlumat verilmişdi ki, Hollandiyada 20 min azərbaycanlı yaşayır. Əvvəllər azərbaycanlıların aktivliyi ürəkaçan səviyyədə olmasa da, son illər aktivlik, Hollandiya cəmiyyətinə nüfuz etmələri müşahidə edilir. Ermənilərin sayı isə 5 mindən bir az yuxarı olar. Ermənilər bütün dünyada olduğu kimi, Hollandiyada da hansısa qüvvələrin əlində lazım olanda işlədilən, qabağa verilən alət rolunu oynayırlar. Erməni diasporunu güclü göstərməkdə maraqlı dövlətlər, maraqlı qüvvələr var. Həmin dövlətlər və qüvvələr özlərinin etmək istədiyi, göstərmək istədiklərini erməni diasporasının adı ilə edirlər. Nəticədə belə bir rəy yaranır ki, erməni diasporu çox güclüdür. Hollandiyada erməni diasporası əslində heç də güclü deyil. Deyilə bilər ki, Hollandiyanın paytaxtında "erməni soyqırımı"na abidə ucalda biliblər. Əslində burada da məhz dediyim maraqlı qüvvələrin istəyi rol oynadı. Həmin abidə ucaldılan zaman mən Hollandiya parlamentinin üzvləri ilə görüşdüm və nədən qondarma "erməni soyqırımı"na abidə qoyulmasına icazə verildiyini sual etdim, etirazımı bildirdim. Hollandiya mətbuatında Azərbaycanla bağlı, Qarabağ problemi ilə bağlı onlarla yazıların dərc olunub, müsahibələrim olub.

***- Hollandiyada azərbaycanlıların diaspora təşkilatlarının bir-biri ilə əməkdaşlığı varmı?***

- Mən çox tənqidə yol vermək istəmirəm. Təşkilatlarımız çoxdur, hər kəs də bacardığı və səviyyəsinin yol verdiyi çərçivədə fəaliyyət göstərir.

***- Azərbaycan Diaspora üzrə Dövlət Komitəsi ilə əlaqələriniz hansı səviyyədədir?***

- İlk dəfə idi ki, bu il dünya azərbaycanlılarının 4-cü qurultayına Azərbaycan Diaspora Komitəsi məni dəvət etdi. Mən də gəlib iştirak elədim. Mən özümlə yanaşı rəhbərlik etdiyim təşkilatın iki holland üzvü ilə gəlmişdim ki, onlar qayıdıb öz ölkəsində Azərbaycanla bağlı yazılar yazsınlar, müsahibələr versinlər. Belə də oldu. 4-cü qurultaya beş qovluq təkliflər hazırlayıb gəlmişdim. Təkliflərim Diaspora Komitəsinə, Təhsil Nazirliyinə, Xarici İşlər Nazirliyinə, Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilmək üçün idi. Bizə deyilmişdi ki, bu qurumlar bizimlə görüşəcəklər. Təəssüf ki, görüş olmadı. Mən də həmin qovluqları Diaspora Komitəsinin nümayəndəsinə təqdim eləyib həmin ünvanlara çatdırılmasını xahiş etdim. Mənim təkliflərimin bir çoxu ölkə prezidenti cənab İlham Əliyevin 4-cü qurultayda çıxışında irəli sürdüyü təkliflərin bir çoxu ilə üst-üstə düşürdü. Məsələn, cənab prezident çıxışında bildirdi ki, Azərbaycan reallıqlarını təbliğ etməyin ən səmərəli yollarından biri azərbaycanlıların yaşadıqları ölkələrdə həmin ölkələrin xalqlarının dilində saytlar açmasıdır. Mən də hazırladığım təkliflər sırasında bu məsələ əksini tapmışdı. Ancaq hələ ki prezidentin irəli sürdüyü bu ideyanın gerçəkləşməsi istiqamətində təəssüf ki, addımlar atılmayıb. Halbuki bu çox vacib, həllini gözləyən məsələdir.

Mən Hollandiyaya dönəndən sonra planımda var ki, Azərbaycanın müstəqilliyinin bərpa edilməsinin 25-ci ildönümü ilə bağlı ancaq hollandların iştirakı ilə bir böyük tədbir keçirim. Artıq yerli media və siyasət adamları ilə bu barədə danışmışam, hazırlıq gedir. Diaspora Komitəsi ilə bu tipli tədbirlərin keçirilməsində, saytlar yaradılması işində əməkdaşlıq yaxşı olardı. Mənim dövlətimizin qəpiyində gözüm yoxdur.

❑ **Etibar SEYİDAĞA**



## Xalq artistinin doğum günündə də miras qalmaqalı səngimir

### Məhkəmə Orxanın İlhamə Quliyevanın oğlu olmadığı haqda qərar çıxarıb

**Bu gün mərhum xalq artisti, müğənni İlhamə Quliyevanın doğum günüdür. Bununla belə, onun miras qalmaqalı səngimək bilmir. Bu dəfə də miras qalmaqalının yenidən gündəmə gəlməsinə səbəb xalq artistinin qohumu, müğənni Əli Mirəliyevin sensasion açıqlamaları olub. Onun sözlərinə görə, məhkəmə miras qalmaqalına artıq son qoyub və mərhum sənətçinin hüquqi varisləri yalnız bacıları İradə və Gülbahar Quliyevalardır.**

Mərhum müğənninin oğulluğu Orxan Nadirov isə məsələ ilə bağlı azvision.az saytına açıqlama verərək Əli Mirəliyevin dediklərini təkzib edib: "Əli Mirəliyev yalan danışır. Məhkəmə mirasla bağlı qərar qəbul etməyib. Əgər məhkəmə qərar veribsə, qərarın surətini çıxarıb göstərsinlər. Əli Mirəliyevin nə məhkəmədən, nə də hansısa sərvətdən xəbəri var. Onun dedikləri ağ yalandır. Şayiə yaymaq, ictimaiyyət arasında psixoloji təzyiq göstərmək metodudur. Əli Mirəliyevə bir daha xəbərdarlıq edirəm ki, yaşına-başına hörmət etsin. Ayıbdır, yalan danışmaq kişiyə yaraşmaz".

**O.Nadirov mirasla bağlı məhkəmənin nə zaman keçiriləcəyindən məlumatsız olduğunu deyib:** "Hələ ki araşdırma aparılır. Araşdırmaya əsasən sonda qərar qəbul ediləcək. Əgər mirasa onlar layiqdirlərsə, mən kənara çəkiləcəyəm. İnanıram ki, ədalətli qərar veriləcək".

**Orxan Nadirovun vəkili Habil Vəliyev isə "Yeni Müsavat"a daha ilginc açıqlama verib. Vəkil bildirib ki, Orxanın övladlığının müəyyənləşdirilməsi ilə bağlı verdiyi şikayət məhkəmə tərəfindən rədd edilib:** "Qeyd edim ki, bacılar (İradə və Gülbahar Quliyevaları nəzərdə tutur - G.X.) məhkəməyə müraciət etməyib. Biz məhkəməyə övladlığın müəyyən olunması ilə bağlı müraciət etmişdik. Müəyyən yol verilmiş yanlışlıqlar, səbəblər üzündən şikayət rədd olunub. Yəni heç kimin xeyrinə qərar qəbul edilməyib".

**Vəkil onu da vurğuladı ki, tezliklə məsələ ilə bağlı Apelyasiya Məhkəməsinə müraciət olunacaq:** "Burda problem yoxdur. Tezliklə övladlığın müəyyən olunması ilə bağlı qərar qəbul olunduqdan sonra məsələyə tam aydınlıq gətiriləcək".

Xatırladaq ki, bu gün mərhum müğənninin doğum günüdür. Yaşasaydı müğənninin 73 yaşı tamam olacaqdı. Onun vəfatından bu günədək oğulluğu Orxan Nadirov, bacıları və yaxın qohumları arasında varislik və sərvət qalmaqalı səngimir.

❑ **Xalidə GƏRAY**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 180 (6501) 17 avqust 2016

**Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Azərbaycana səfəri Ermənistanda o dərəcədə həyəcan doğurdu ki, işğalçı ölkənin mətbuatı dərhal Moskvanı şantaja başladı. Ermənilər bu dəfə də iddia etdilər ki, Rusiya Qarabağda aprel döyüşlərinin təkrar olunacağı halda Azərbaycana dəstək verəcək.**






# Rusiya Ermənistanı ovundurmaq üçün hərəkətə keçdi

## Azərbaycana silah satışını davam etdirməkdə qərarlı olan Rusiyada Ermənistan silahlı qüvvələri üçün kadrların hazırlanması barədə razılıq əldə olundu; **politoloq:** "Moskva hələ ki rayonların boşaldılması üçün Ermənistana təsir etmək istəmir"

Ermənistanın rahatlığını pozan təkcə Moskvanın Azərbaycana silah satışını dayandırmayacağı barədə prezident Putin səviyyəsində verilən son qərar deyil. İşğalçı ölkə həm də Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Moskva səfərindən və rusiyalı həmkarı ilə görüşündən dərhal sonra S.Şoyqunun Bakıya gəlməsi, yüksək səviyyədə görüşlər keçirməsindən narahatdır. Onsuz da son zamanlar düşmən ölkədə Rusiyanın Ermənistanı "satması" ətrafında ajiotaj yaşanır. Erməni ideoloqları iddia edir ki, Kreml Dağlıq Qarabağ ətrafındakı 5 rayonun azad edilməsinə qərar verib və bununla bağlı Serj Sərkisyana təzyiqlər göstərir. Erməni prezident Rusiya səfəri zamanı da V.Putindən Azərbaycanda aparılan danışıqların detalları barədə soruşmuşdu. Görünür, Putinin Sərkisyana dedikləri nə onun özünü, nə də erməni xalqını razı salmadığı üçün növbəti dəfə İrəvanın meydanlarında "Qarabağ bizimdir" şüarı eşidilməyə başlayıb. Hər halda, Sərkisyan "xalq etirazı" faktorundan yararlanmaqla güzəştlərdən yayınmaq istəyir. Ancaq Rusiya bu prosesdə həm özünə xal qazanmaq, həm də bölgədə uzunmüddətli sülhü təmin etmək üçün heç olmasa fərqli nəticəyə nail olmaqda iddialıdır. Hər halda, Putinin "hər iki xalq qalib olacaq" məzmunlu açıqlaması da masa üzərindəki layihədən xəbər verir. Ağır durumunu yaşayan ermənilərin isə Moskvaya qarşı çıxmaq şansı yoxdur. Onlar ən uzağı şantaja əl atmaqla vəziyyətdən çıxmağa çalışırlar.

Rusiya müdafiə nazirinin rəsmi səfərinə qarşı ən sərt təpki Ermənistanın radikal-millətçi KİV-ləri tərəfindən gəlib. Məsələn, Iragir.am yazır ki, Şoyqu Bakıya Azərbaycanı müharibəyə hazırlaşdırmaq üçün gedib. Çox güman ki, Rusiyanın müdafiə naziri Ermənistandakı narahatlığı önləmək üçün Bakıdan sonra İrəvana uçub. Düzdür, nazir Ermənistan paytaxtında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) müdafiə nazirləri şurasının iclasında iştirak edəcək. Ancaq aprel döyüşlərindən sonra qurumun İrəvandakı toplantısı baş tutmamışdısa, bu dəfə iclasın keçirilməsinə qərar verildi. Demək, Rusiya Ermənistanı nəzarətdən kənarda qoymamağa üstünlük verir. S.Şoyqu 16 avqustda erməni həmkarı Seyran Ohanyanla görüşüb. Görüşdə Cənubi Qafqazda təhlükəsizlik və ikitərəfli hərbi əməkdaşlıq məsələləri müzakirə olunub. S.Şoyqu Rusiya Müdafiə Nazirliyinin ali məktəblərində pulsuz təhsil alan erməni hərbçilərinin sayını artırmağa hazır olduqlarını da deyib. Bununla da Rusiya Ermənistanı hərbi dəstəkdən məhrum etmədiyinə dair mesaj verib. Məlumata görə, Ohanyan da öz növbəsində Rusiya ilə nəzərdə tutulan bütün hərbi planları yerinə yetirdiklərini diqqətə çatdırıb. Nazirlərin görüşünün təfərrüatları barədə danışan Rusiya müdafiə nazirinin müavini Anatoli Antonov isə bildirib ki, görüş zamanı Rusiyada Ermənistan silahlı qüvvələri üçün kadrların hazırlanması məsələsi müzakirə olunub. O qeyd edib ki, hazırda Rusiya Müdafiə Nazirliyinin 24 təhsil müəssisəsində 203 erməni hərbçi ödənişsiz təhsil alır: **"Bu il daha 211 hərbçi qəbul olunacaq".** "Rusiyanın Ermənistandakı hərbi bazası Qafqazda sabitliyin təminatçısıdır" deyən A. Antonov qeyd edib ki, hər iki ölkənin ordularından ibarət birləşmiş dəstə yaradılır: **"Bu barədə razılaşmanın imzalanmasına hazırlıq yekunlaşmaq üzrədir".** O, indiyə qədər Ermənistan və Rusiya arasında 50 hərbi razılaşmanın imzalandığını bildirib. Yeri gəlmişkən, Rusiya bundan öncə Cənubi Osetiya və Abxaziya ilə vahid qoşun birliklərinin yaradılması haqqında müqavilə imzalayıb.

Rusiya və Ermənistanın birgə hərbi dəstələr yaratması isə əslində Azərbaycana təhdiddir. Əgər bu vaxta qədər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının yaradacağı təhlükədən söhbət gedirdisə, sonuncu razılaşma ilə artıq iki ölkənin birgə silahlı birləşmələrinin yarada biləcəyi təhlükə müzakirə mövzusudur. Heç şübhəsiz, bununla Rusiya tam nəzarət altına aldığı Ermənistana "mənsiz yaşaya bilməzsən" mesajını verməklə bərabər, Qərb düşüncəsində olan erməniləri də yerində oturtmaq istəyir. Lakin son nəticə Azərbaycanın əleyhinə işləyir. Doğrudur, erməni ziyalıları ölkənin fəlakətli durumda olduğunu dərk edirlər. Ancaq hələ ki hakimiyyətdə Qarabağ terrorçuları və canilərdirsə, ziyalıların çağırışları da nəticə verməyəcək. **"Ermənistanı sanki bütün regional hadisələrdən və layihələrdən kənarlaşdırırlar"** deyən professor Vardan Bostancyanın fikirləri nümunədir.

Ermənilər arasında güzəştlərə etiraz ovqatı davam etsə də, bir məqam diqqətdən yayınmır. Belə ki, xüsusilə də Putinin son mesajlarından sonra hətta Qarabağ separatçılarında da mövqe dəyişikliyi hiss olunur. Separatçı qurumun rəhbəri Bako Saakyan deyib ki, biz güzəştə gedə bilərik, ancaq gərək Azərbaycan Qarabağın təhlükəsizliyinə problem yaratmasın. Düzdür, baş separatçı bir sıra absurd fikirlər də səsləndirib, həmçinin "ölkəmiz" dediyi Qarabağın danışıqlar masası ətrafında oturmasına razılıq verməyi təklif edib. Ancaq separatçının dedikləri ilə son zamanlar səslənən 5 rayonun azadlığı barədə müzakirələr arasında bir uyğunluq hiss olunur. Bu mənada güman olunur ki, ermənilər ətraf rayonların azad olunması müqabilində Dağlıq Qarabağda möhkəmlənməyi düşünürlər. Bu arada ATƏT sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşikin də Xankəndinə gedərək separatçı rəhbərliklə görüşməsi maraq doğurur.

**Sabiq xarici işlər naziri, təcrübəli diplomat Tofiq Zülfüqarov teleqraf.com-a maraqlı fikirlər söyləyib. Eks-nazir də təsdiqləyib ki, sanki Sankt-Peterburq və Vyana görüşündən sonra Ermənistana bir müddət vaxt verilib.** "Söhbət 5 rayonun azad edilməsindən gedir. Bundan sonra proses davamlı olacaq. Azərbaycan tərəfi buna razılıq verib. İndi hamı gözləyir ki, Ermənistan normal hala gəlsin və bu addımlar atılsın. Bir sözlə, prosesə təkan verilib, indi Ermənistanın addımları gözlənilir", - deyə, Zülfüqarov bildirib. Hər halda T.Zülfüqarov diplomatik kanallarla əlaqəli şəxsdir və onun dedikləri təsadüf ola bilməz. Bir məqamı da xatırlayaq ki, Rusiya XİN başçısı Sergey Lavrov aprel döyüşlərindən sonra bölgəyə səfər edərkən xalqların sülhə hazırlanmasına yönəlik mesaj vermişdi. Görünür, Moskva hərbi ritorikanın tam aradan qaldırılmasını və ictimai rəyin sülh planına hazırlanması planını "ev tapşırığı" kimi tərəflərə təqdim edib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu dedi ki, Rusiya və Azərbaycan rəsmilərinin bir-biriləri ilə intensiv görüşləri və müzakirələri açıq-aşkar Ermənistan siyasi və ekspert dairələrini qorxudub:** "Üstəgəl də Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan Putinlə görüşdə Türkiyə-Rusiya-Azərbaycan üçtərəfli formatını yaratmağı təklif edib. İrəvanı həm də o qıcıqlandırır ki, Rusiya Azərbaycana silah satmaqda davam edəcək. Bunu prezident Putindən tutmuş müdafiə naziri Sergey Şoyquya qədər hamısı təkrarlayır. Azərbaycan Rusiya üçün potensial alıcıdır və Moskva bizim kimi alıcıdan imtina etməyəcək. Çünki ortada milyardlarla dollarlıq müqavilələr var. Heç bir dövlət bu cür gəlir imkanlarından imtina etmək istəməz. Ermənistan siyasi dairələri və cəmiyyəti məntiqsiz olaraq Rusiya hakimiyyətinə sual verir ki, "sizin bölgədəki hərbi strateji müttəfiqiniz biz olduğumuz halda, düşmənimizə niyə silah satırsınız?" Daha anlamırlar ki, birincisi, Azərbaycan Ermənistanın düşmənidir, Rusiyanın yox. İkincisi də, Ermənistan Rusiyaya yükdür, silahlar pulsuz verilir, Azərbaycan isə milyardlarla dollar ödəməklə Rusiyaya xeyir verir. Əlbəttə, Rusiya-Azərbaycan və Rusiya-Türkiyə əlaqələrinin inkişafı və təmaslarının artmasının Qarabağ münaqişəsinin ədalətli həllini sürətləndirəcəyini söyləmək çətindir. Moskva hələ ki Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması məqsədilə Ermənistan hakimiyyətinə təsir etmək istəmir. Ancaq Ermənistan rəsmilərinin sabaha inamı yoxdur. Odur ki, Ermənistanın siyasi dairələri ehtiyat edir ki, bir gün Moskva İrəvana təzyiqə üstünlük verəcək və belə olan halda Ermənistanın güzəştə getməkdən başqa çarəsi qalmayacaq".

***

**Türkiyənin prosesə qoşulması ciddi hadisə sayılır. Hətta bu arada həmsədrlərin Ankaraya səfəri məsələsi yenidən aktuallaşıb və bunun baş verəcəyi istisna olunmur. Erməişünaslıq Mərkəzinin rəhbəri, professor Qafar Çaxmaqlı isə "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, Türkiyə hər zaman Rusiya ilə danışıqlar prosesinə Qarabağ məsələsini daxil edir və bu məsələ müzakirə edilərkən Ermənistanın da Rusiya ilə müttəfiq olması nəzərə alınır:** "Rusiyanın Qarabağ məsələsində son zamanlar mövqeyinin yumşalması fonunda bəzi irəliləyişlər gözlənilə bilər. Amma bunlar münaqişənin birdəfəlik həllinə təsir etməyəcək. Azərbaycanın Rusiya üçün önəmi coğrafi məna kəsb etdiyindən Moskva onu da Qərbin əlindən almaq planını işə salmaq istəyir. Avrasiya Birliyinin qurulması ideyasında Azərbaycan yer almaqdadır. Türkiyənin özü də buna müsbət yanaşarsa, iki türk dövləti bu ittifaqı daha güclü edə bilər. İranı da Rusiya bu ittifaqa cəlb edərsə, çox təsirli bir birlik qurmuş olar. Ermənistan bu məsələdə əl-ayağa dolaşacaq gücdə deyil. Ən azından Rusiya belə hesab edir. Ermənistandakı olaylar da sübut etdi ki, Rusiya istənilən an bu ölkəni qarışdıraraq və hətta Azərbaycanın cəbhədə üstünlüyünü təmin edə bilər. Bütün bunlar ABŞ-ın bu bölgədəki planlarını pozmaq üçündür. Amma düşünürəm ki, Türkiyə NATO kimi bir alyansdan çıxa bilməz. Baxmayaraq Türkiyədə bəzi siyasətçilər FETÖ-nün çevriliş cəhdinin arxasında Amerikanın durduğunu iddia edərək bu alyansdan çıxmaq kimi bir tələb irəli sürməkdədirlər".

**Bununla belə, Q.Çaxmaqlı hesab edir ki, yaxın aylarda Avrasiya İttifaqı məsələsi aktuallaşa bilər:** "Bu ittifaqda Türkiyə və Azərbaycanı görməsi Rusiya üçün həyati əhəmiyyətli məsələ olardı. Hər halda, Moskva buna çalışacaq. Qarabağ məsələsinin həlli və Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsi də aktuallaşa bilər. Bu iki məsələnin bir-biri ilə əlaqəli olduğu bəllidir. Türkiyənin erməni ordusunun Azərbaycan ərazilərindən çıxarılması şərtini dəyişməsi mümkün olmadığından, bu iki məsələ birlikdə həll olunacaq. Buna isə hələ münbit şərait yoxdur, yəni məsələ yetişməyib. Çünki Türkiyə ilə Ermənistan arasında danışıqlar başlamayıb. Tərəflər heç buna hazır da deyil".

Bu arada danışıqların növbəti raundu barədə də açıqlamalar səslənməkdədir. Özü də budəfəki açıqlamalar Qarabağda yeni hərbi əməliyyatların başlaya biləcəyi barədə xəbərlərdən sonraya təsadüf edir. Görünür, indiki halda hərbi əməliyyatların başlaması həmsədrlər üçün arzuolunan deyil.

ATƏT-in Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə növbəti görüşün təşkili ilə bağlı Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sərkisyanla əlaqə saxlayır. Bunu "Ria Novosti" saytına açıqlamasında ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik deyib. "Putinin və Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin qarantı kimi çıxış etməsi səylərini alqışlayırıq". Bunu da Uorlik söyləyib. O bildirib ki, Dağlıq Qarabağda təhlükəsizliyi təmin etmək məqsədilə beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi həmişə münaqişənin həllinin bir hissəsi kimi nəzərdən keçirilib. Bu anonslardan da görünür ki, payız aylarında havanın temperaturu aşağı düşsə də, Qarabağ danışıqlarında hərarət yenidən qalxacaq...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 180 (6501) 17 avqust 2016

# "Onlar satqın, vətən xainidirlər"

## Əli Mirəliyev: "ANS xalqın bir gözünü açır, bir gözünü bağlayırdı... "

**Müğənni Əli Mirəliyev "Yeni Müsavat"a maraqlı müsahibə verib. Sənətçi müsahibəsində son günlər şou-biznes aləmində baş verən qalmaqallardan, ictimai olaylardan, mərhum xalq artisti İlhamə Quliyevanın mirası və doğum günü ilə bağlı keçiriləcək tədbirdən söz açıb.**

Müğənni ilk öncə yay istirahətini harada və necə keçirməsindən danışdı: "Bəzi şou nümayəndələri yalan-palan bildirirlər ki, guya gediblər Bodruma, İtaliyaya, Almaniyaya dincəlməyə. Amma səs-soraqları Maştağadan, Zabratdan gəlir... Mənim də dincəlməyə öz yerim, Mərdəkanda bağım var. Oturmuşam burda, ağacları sulayır, belləyirəm, göyərtilərə baxıram. Bu mənim üçün istirahətdir."

***- Nadir Qafarzadə Türkiyədəki istirahətindən olan şəkillərini sosial şəbəkədə paylaşaraq "Mən kefdəyəm, Allah sizi kölə, şanssız və yazıq yaradıb" deyə xoşagəlməz, söyüş dolu ifadələr işlədib. Tanınmış bir sənətçinin ictimaiyyətə qarşı bu cür davranışını necə qiymətləndirirsiz?***

- Yadınıza gəlirmi, bir dəfə o, İsraildə Xocalı günündə səhnədə olmuşdu. Buna görə onu efirə buraxmadılar. Sonra efirə də çıxdı, oxudu da, öz sözünü də dedi. Nadiri pisləyənlər sabah onu toya aparır. Ümumiyyətlə, bu müğənni kimdir ki, camaatı təhqir etsin, aşağılasın. O Azərbaycan xalqının sayəsində Nadir olub. Xalqı aşağılamaq, yuxarıdan aşağı baxmaq, necə başa düşək bunu? Bu nə deməkdir?! Bu şou-biznesin başı batsın... Hərdən toylara gedirəm,



görürəm ki, musiqiçiləri sayan yoxdur. Çünki bu cür insanlar özləri özlərini gözdən salıb.

***- Son vaxtlar xalq artisti Ramiz Novruzun adı daha çox stilist qızının erməni əsilli həmkarı ilə bağlı qalmaqallarda hallanır. Bəziləri həmin stilistin yalnız anasının erməni olduğunu əsas gətirərək bu məsələnin tənqid və ya müzakirə edilməsini qınayır. Bəs siz necə düşünürsüz?***

- Tək Xocalıdakı olan faciəni xatırlamaq bəsdir. Şəxsən mən ata-anamı, nəslimi, qohum-əqrəbamı öldürən bir millətin nümayəndəsi ilə necə şəkil çəkdirib paylaşa, oturub bir yerdə yemək yeyə bilərəm?! Onda mən kiməm, alçaq, biqeyrət?! O adamlar ki, bu cür hərəkətlər edir, onlar satqın, vətən xainidirlər! Damarından azərbaycanlı qanı axan şəxs heç vaxt erməniyə salam verməz.

***- Bugünlərdə Azərbaycanın nüfuzlu efir məkanlarından biri, ANS TV bağlanıldı. Bu qərarı ədalətli hesab edirsinizmi?***

- Qətiyyən! ANS lazım idi xalqa. O, bir kanal kimi xalqın bir gözünü açırdı, bir gözünü bağlayırdı. Amma açmağı da var idi axı, məmurların düzgün işləmədiyi haqda iradlarını bildirirdi... ANS ən gözəl televiziya kanalı idi. Mən ANS və ANS-çiləri dəstəkləyirəm.

***- Sabah (müsahibə avqustun 16-da alınıb X.G.) mərhum xalq artisti İlhamə Quliyevanın doğum günüdür. Məlumata görə, oğulluğu... (sözümü yarımçıq kəsir)***

- Mən xahiş edirəm, bir kəlmə də olsun "oğulluğu" sözünü işlətməyin! Onun oğulluğu yoxdur. İlhamə Quliyevanı saxlayan tək mənim qızım olub. O, qızımın mənəvi anası olub. Amma onun mənəvi oğlu yoxdur. Xalasının nəvəsini şou xətrinə, yalandan "oğlumdur" deyə yanında aparırdı. Orxanın familiyası Nadir, atasının adı Əhmədağadır. Onun İlhamə Quliyevaya nə dəxliyi var?! Onun dayısı oğlu Eldar İsmayılovdur, dayısının kürəkəni mənəm, qızım mənim Samirə və bacısı İradə, bu dörd nəfər onun ətrafı, qohumudur.

***- Yayılan məlumatlara görə, İlhamə Quliyevanın evində doğum günü ilə əlaqədar mərasim keçiriləcək. Siz və qızınız həmin mərasimə dəvətlisiz?***

- Xeyr. Biz onun ad gününü ayrıca, "Xoş gəldin" restoranında keçirmək istəyirik. Siz bilirsiz ki, məhkəmə İlhamənin bacılarının xeyrinə qərar çıxardıb? Orxan kimdir ki, İlhamənin evində nəsə keçirsin?! Onun buna ixtiyarı yoxdur. Biz istəyirdik ki, avqustun 18-19-u ad günü mərasimini keçirək. Sonradan Mədəniyyət və Turizm Nazirliyinin işçiləri dedilər ki, camaat istirahətdə, məzuniyyətdə olacaq. İstəyirlər ki, bütün televiziyaların, nazirliyin nümayəndələri, İlhaməsevərlər tədbirdə iştirak etsin. Biz də siyahı tutmuşuq, hardasa 100-ə yaxın adamın adı var. Xaricdən, İsveçrədən də gələn olacaq. Beləliklə, mərasimi sentyabr ayına saxlamışıq.

***- Bayaq dediniz ki, miras məsələsi həll olunub, miras bacılarına qalıb. Bu, rəsmi, yoxsa sizə gəlib çatan məlumatdır?***

- Necə yəni, mən bilmirəm? Bu işin içində mən də varam. Məhkəmə oldu və onların xeyrinə qərar qəbul etdi. Vəssalam! Biz bəlkə də ürəyimizdə bunu istəmirdik, amma belə oldu də. Biz neyliyə bilərik? Əllərində qanuni sənəd var ki, onlar İlhamə Quliyevanın bacısıdır. Onlar Orxan kimi qışqırıb hay-küy salmırlar. Sadəcə, oturub sakitcə deyirlər ki, bu, bizim bacımızdır... Gülbahar eynilə İlhamə Quliyevaya oxşayır, elə bilirsən ki, İlhamədir.

***- Bəs siz hansı qərarın verilməsini istəyirdiz?***

- Mənim üçün fərq etməz. Mənim onsuz da yaşım ötüb, həyatda gördüyümü görmüşəm. Mənim heç maşınım da yoxdur, amma heç vaxt özümü o qədər alçaldıb kiminləsə pul söhbəti etmərəm. Məhkəmə kimə lazımdırsa mirası verib. Qızım uzun illər ona baxıb, 10 il xidmət edib. Qızım da haqqını halal edir... İlhamə çox gözəl müğənni idi. O getdi, amma onun şəxsiyyət vəsiqəsi, pişiyi bizdədir. Pişiyini biz saxlayırıq.

❑ **Xalidə GƏRAY**

# "Bizi seçkilərə 10 manata əl çalmağa aparırdılar"

## Əməkdaşımız "Qul bazarı"ndakı fəhlələrin bir günü haqda yazır

**Ölkədə və dünyada baş verən böhran tikinti sektoruna təsir etdi. Bakıda tikinti sektorunda gedən qızğın işlər dayandı. Maddi durumu aşağı olan fəhlələr günəmuzd işləmək üçün hər zamankı kimi "Qul bazarı"na üz tutsa da, bir tikə çörək qazanmaq ümidləri boş çıxır.**





Paytaxtda fəhlələrin ən çox toplandığı yerlər hər kəs tərəfindən onların məkanı kimi bilinən körpülər və bazarlardır. Qazanc dalınca düşənlər gündəlik dolanışıqları üçün soyuqda da, istidə də gəlib burada dayanmağa, iş axtarmağa məhkumdurlar.

"Yeni Müsavat" qəzetinin müxbiri metronun "Xalqlar dostluğu" stansiyasının yaxınlığında yerləşən və "Qul bazarı" kimi tanınan ərazidə olub, fəhlələrlə söhbətləşib.

"Xalqlar körpüsü" kimi tanınan yerdə 100-ə yaxın fəhlə iş arzusu ilə gözləməkdədir. Artıq günorta saatları olsa da, səhər tezdən gələn fəhlələr hələ də ümidlə gözləyir, gözləri yol çəkir. Onları əsasən əl-ayaq işləri, həyətlərin təmizlənməsi, bağbanlıq, tikinti və sair işlərə aparırlar. Səhər saatlarından buraya gələrək gündəlik işlərə gedib, zəhmətlə ailələrinə çörəkpulu aparırlar. 5- 10, bəzən 15 manata işləyən fəhlələr, dediklərinə görə, çox zaman günlərlə çörəkpulunu belə çıxara bilmirlər...

### "Evə gedəndə balalarım əlimə baxır, mən də yazıq-yazıq onların üzlərinə baxıram. Çarəsizəm..."

Tikinti sektorunda işlərin dayanması fəhlə və usta sinfini işsiz qoyub. Bu səbəbdən də buraya gələnlərin sayı artmaqdadır. İşçilər çox olduğundan hamıya iş düşmür. Bir çox hallarda iş üstündə günəmuzd işləməyə gələnlər arasında mübahisələr də yaşanır. Ərazidə olduğumuz zaman işçi aparmağa gələn avtomobilin ətrafına onlarla fəhlə toplandığını görürük. İşləmək istəyən fəhlələr özlərini avtomobil şüşəsindən içəri salmağa cəhd edirlər. İş tutmaq, pul qazanmaq üçün bəzən dalaşırlar.



Günəmuzd iş axtaran Əfqan adlı fəhlə deyir ki, işçi çox olduğundan işin qiyməti də ucuzlaşıb: "Səhər saatlarında iş üçün gələnlər daha çox olur. Günortaya doğru nisbətən azalır. Bu gün tezdən buradayam, 6-7 maşın gəlib, o da ki, yüngül işlərə. Cəmi 20-yə yaxın fəhlə işləməyə gedib. Gələn adamlarda da insaf yoxdur. Görür hamı boş əyləşib, işsizdir, qiymət "öldürür". 20 manatlıq işi 10-12 manata danışırlar. Məcbur qalıb, gedirik, əlacımız yoxdur. Altında 100 minlik maşın sürür, qəpik-quruş söhbəti eləyir. Üstəlik də adamla "ayə" ilə danışırlar. İnsanları belə alçaldırlar. Fəhlə olduğumuz üçün bizə xor baxırlar".

**Adının çəkilməsini istəməyən başqa bir fəhlə isə bildirdi ki, artıq günorta saatlarına baxmayaraq heç bir işə getməyib, yəni pul da qazana bilməyib:** "12 gündür ki, səhər saat 6-da buraya gəlirəm. Ancaq heç bir iş tutmamışam. Tikinti də yoxdur ki, işləyək. Hara gedirəm, "iş yoxdur" deyirlər. Tikinti sahəsi də çöküb. Rayondan gəlmişəm, fəhləlik edib, ailə saxlayıram. Şəhərdə yenə arada iş olur, rayonda isə ümumiyyətlə, həyat dayanıb. Azyaşlı uşaqlarım, xəstə anam var. Aldığı məvacib heç dərman pulunu eləmir. Bakıda axtarmadığım iş yeri qalmayıb. Evə gedəndə balalarım əlimə baxır, mən də yazıq-yazıq onların üzlərinə baxıram. Çarəsizəm..."

**Həmsöhbət olduğum fəhlələrdən biri bir maraqlı məqama da toxundu. Bildirdi ki, parlament seçkilərində namizədlər üçün günəmuzd olaraq əl də çalmağa gedirlər:** "Deputat seçkilərində gəlib maraqlı bir fəhlələri yığırlar. Bir-iki saat iştirak etməyimiz üçün 10 manatdan pul paylayırdılar. Şərtləri isə belə idi: oraya gedib əl çalmalı, fitləməliyik. Adı yadımdan çıxıb, hansısa deputat seçkilərə namizədliyini vermişdi. Bir nəfər bir "paçka" pul gətirib elə körpünün altındaca paylayıb, bizi avtobusa yığıb apardı. Biz də getdik, elə deyilən kimi də elədik. Əl çaldıq, dedik, güldük, 10 manatımızı da alıb, qayıtdıq. Həmin vaxtlar işimiz də yox idi. Göydən düşmə oldu. Belə işlər olanda xəbər eləsinlər, biz hər zaman hazırıq. Fəhlə təşkilatı da yarada bilərik"(gülür).

**Müsahibim deyir ki, "Qul bazarı"na naməlum şəxslər gələrək onlara oğurluq kimi cinayət əməlləri də təklif edirlər:** "Bir də görürsən ki, "Qul bazarı"na tanımadığımız şəxslər gəlir. Onlar iş axtaranlara oğurluq kimi pis təkliflər edirlər. Oğurlanacaq malların və ya əşyaların koordinatını verirlər. Biz sözlə, əlacsız qalan fəhlələrdən istifadə etmək istəyirlər. Biz fəhlələri onlardan uzaq olmaları barədə xəbərdar edirik".

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 180 (6501) 17 avqust 2016






# “Sovetski” ətrafında obyektlərin qiyməti qalxacaq

## Layihənin icra olunduğu ərazi xüsusi çəpərə alınıb

**Bakının “Sovetski” kimi tanınan məhəlləsinin söküntülər aparılan ərazisində işlər müvəqqəti olaraq dayandırılıb. Bildirilir ki, bunun səbəbi layihənin icra olunacağı ərazidə daha sökülləcək evin qalmamasıdır.**

Söküntü aparılan ərazidən kənarda yaşayan sakinlər bildirdilər ki, ötən aylarda ərazidə aparılan qızğın işlər bir neçə gündür ki, yavaşıyıb. Lakin buna baxmayaraq, abadlıq işlərini tamamilə dayanmış saymaq olmaz.

Ərazidə olarkən müşahidə etdik ki, bir zamanlar sahibləri müvafiq şərtlərlə razılaşmayıb köçmək istəməyən qədim tikililərin heç birinin daşı daş üstündə qalmayıb. Onların hər biri sökülüb və ərazi tikinti materiallarından tamamilə təmizlənib. Narazı sakinlər isə verilən kompensasiya ilə razılaşıblar.

Söküntü aparılan ərazi ilə “Sovetski”nin yaşayış olan küçələri arasında xüsusi çəpər çəkilib. Həmin çəpərlərdən sonrakı “Sovetski” olduğu kimi qalır. Orada hər hansı iş aparılmayıb. İnsanlar yenə də orada kiçik mənzillərdə yaşamağa davam edirlər. Layihənin icra olunduğu ərazidən keçməsi nəzərdə tutulan magistral yolların isə artıq kiçik bir hissəsi çəkilib.

Onu da qeyd edək ki, “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin məlumatına görə, işlərin birinci mərhələsində 26 hektarda yolların salınması və abadlıq işlərinin görülməsi nəzərdə tutulub. Buraya həmçinin 23 hektar sahədə yaşıllaşdırma və abadlıq, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir. Lakin hələ ki yuxarıda da qeyd etdiyimiz kimi, ərazinin iki tərəfində kiçik ölçüdə yol çəkilişinin aparıldığını və bununla da işlərin dayandığını müşahidə etdik.

**Məsələ ilə bağlı “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli “Yeni Müsavat”a bildirdi ki, əslində çəkilən həmin yol, sadəcə, olaraq nümunə xarakteri daşıyır: “İşlərin dayanmasına gəlincə isə bu, belə deyil. Orada görülən işlər birbaşa ölkə rəhbərliyinin nəzarəti əsasında aparılır. Bununla bağlı sərəncam da verilib. Ola bilər ki, müvəqqəti olaraq işlərdə fasilə yaransın. Ancaq ümumilikdə işlər dayanmayıb. Orada çəkiləcək magistral yol hazırda nümunə kimi çəkilən yolun yerində olacaq. Lakin ərazidə ümumilikdə uzunluğu 6 kilometrdən çox olan 5 küçədə əsaslı şəkildə yenidənqurma işləri aparılacaq. Həmin küçələrə Balababa Məcidov, Abdulla Şaiq, Mirzəağa Əliyev, Füzuli küçəsinin davamı və Nəriman Nərimanov küçələri daxildir. Yenidənqurma işləri çərçivəsində küçələr həm genişləndiriləcək,həm də enli piyada səkiləri inşa ediləcək. Yenidən qurulacaq küçələrdə mühəndis kommunikasiyaları - su, məişət və yağış suları üçün kanalizasiya, işıq, qaz, rabitə xətlərinin dəyişdiriləcək müasir tələblər səviyyəsində qurulması nəzərdə tutulur”.**

Əldə etdiyimiz məlumata görə, “Sovetski”də bütün bu işlər görüldükdən, abadlıq işləri aparıldıqdan sonra oraya yaxın yerləşən obyektlərin, mağazaların qiymət və icarə haqlarında artım olacaq. Eyni hal vaxtilə şəhərin digər yerlərində də müşahidə olunub. Misal üçün, bir zamanlar “Qış bulvarı” ərazisinə yaxın yerləşən obyektlərin qiymətlərində orada park salınıb, abadlıq işləri aparıldıqdan sonra qiymət artımı müşahidə edilmişdi.

**İqtisadçı ekspert Rəşad Həsənov “Yeni Müsavat”a bildirdi ki, “Sovetski”də abadlıq işlərinin aparılması oradakı obyektlərin də qiymətinə təsir edəcək:** “Doğrudur, hazırda daşınmaz əmlak bazarında durğunluqdur. Lakin orta və uzunmüddətli dövr üçün söyləmək olar ki, orada qiymətlər artacaq. ”Sovetski"nin əvvəlki ərazisi hər kəsə məlumdur. Orada obyektlərin fəaliyyət imkanları bərbad vəziyyətdə idi. Lakin buna baxmayaraq, şəhərin mərkəzi olması qiymətlərə müsbət mənada təsir edirdi. İndi isə ətraf mühitin normallaşdırılması qiymətlərin daha da artmasına səbəb olacaq".

❑ Əli RAİS

❑ Fotolar müəllifindir

# Dietoloqdan yay tövsiyələri

## “Energetik içkidən, qazlı sudan uzaq durun, qarpızı isə...”

**Yayın son ayında günlər daha qızmar keçir. Havaların istiləşməsi insanların gündəlik həyatına da mənfi təsir göstərir. Qida vərdişlərində dəyişiklik, tərlə birlikdə itirilən maye başgicəllənmə, halsızlıq, ürəkbulanma, yüksək təzyiq yaradır.**



Lakin isti günlərdə sağlam qidalanmaqla bəzi sağlıq problemlərini azaltmaq, kilo artımının qarşısını almaq mümkündür. Bəs bunu necə edək? Dietoloq Leyla Zülfüqarova musavat.com-a isti günlərdə düzgün qidalanma yollarından bəhs edib.

“İsti günlərdə detoks effekti verən qidalara üstünlük verilməlidir ki, bədənimizdəki artıq toksinləri ataq və bədən tempuraturumuz yüksək olmasın. İnsanlar daha çox qatıq, ayran, doğramac, vitamin C ilə zəngin olan meyvə-tərəvəzlərlə qidalanmalıdır. Hər mövsümün özünəməxsus qidaları var. Yay mövsümündə su çox içilir ki, bədənin mayeyə olan tələbatı ödənsin. Maye deyərkən qazsız su nəzərdə tutulur. İnsanlar isə daha çox qazlı sular, energetik içkilər qəbul edirlər. Elə bilirlər maye balansını doldururlar. Bu ciddi səhvdir. Qazlı içkilərin bədəndə yaratdığı toksinlər də bədənin təmizlənməməsinə səbəb olur. Qida vasitəsilə orqanizmə düşən toksik maddələr bədəndə toplanıb qalır və insanın kilo almasına səbəb olur. Ona görə də düzgün maye seçilməlidir. Yay mövsümündə insanlar xəmir yeməklərindən, çörəkdən, un məmulatlarından uzaq durur, amma insanların çəkisi yenə artır. Bunun səbəblərindən biri meyvə-tərəvəzdir. Meyvələri də müəyyən vaxt kəsiyində və lazımi miqdarda yemək lazımdır. Qızmar günlərdə qarpızdan bol-bol istifadə edirlər, düşünürlər ki, bədən təmizlənir. Lakin qarpızdan çox istifadə edəndə bədəndə fizioloji problemlərə yol açır. Diabetik mərhələdən əziyyət çəkən insanlara isə qarpız olmaz”.

**L.Zülfüqarova oturaq iş rejimində çalışanlara da məsləhət verib:** “İsti günlər insanlarda halsızlıq və aşağı əhval-ruhiyyə yaradır. Oturaq həyat sürən insanlar bədən tərbiyəsi ilə məşğul olmalıdır. Gün ərzində 3 dəfə ana pay, 3 dəfə isə ara pay yeməli, normal qidalanmalı, maye də bol-bol qəbul etməlidirlər. Bədən tərbiyəsi deyərkən fitnes zallara gedib bütün günü idman etməyi nəzərdə tutmuram. Gün ərzində açıq havada vaxt keçirmək, müxtəlif idman hərəkətləri etmək kifayətdir. Yay aylarının bizə verdiyi ən böyük hədiyyə isə dəniz mövsümünün açıq olmasıdır. Bir insan hər gün 1 saat dənizdə üzərsə, xeyli kalori itirər. Oturaq şəraitdə çalışan insanlar boş vaxtlarında müxtəlif idman hərəkətləri etməli və bol-bol maye qəbul etməlidirlər. O zaman daha gümrah olarlar”.

❑ Könül İBRAHİM




# Hüquqşünas sosial şəbəkələrdən danışdı: “Adınıza saxta profil açılıbsa...”

**Sosial şəbəkələr həyatımızda artıq özünəməxsus yer tutub. Cəmiyyətin aktiv təbəqəsi saatlarla ondan istifadə edir, məlumat toplayır, paylaşır və ünsiyyət qurur. Sosial şəbəkələrdən kommersiya vasitəsi kimi istifadə edənlər də az deyil.**

Lakin şəbəkələrin faydaları qədər problemləri də var. Bəzən kimlərsə istifadəçinin adından istifadə edərək yeni səhifə yaradır, onun fotolarından istifadə edir, adından əxlaqsız fikirlər paylaşır. Bu cür hallar tək tanınmış simaların başına gəlmir, adi insanlar da tez-tez sözügedən mənfi halla rastlaşır. Bəs bunun qarşısını necə almaq olar?

Məsələ ilə bağlı **hüquqşünas Ruslan Əhmədoğlu** bildirdi ki, adından istifadə olunan şəbəkə istifadəçiləri hüquq-mühafizə orqanlarına müraciət etməlidir: “Dünya praktikasında belə bir hal var ki, sosial şəbəkə istifadəçisi tanınmış şəxs olduğu halda onun razılığı ilə adına fan-klubların yaradılır və orada həmin şəxsin fotoları, xəbərləri paylaşılır. Fan-klubun açılması sırf tanınmış şəxsin icazəsi ilə baş tutur və mütləq fan-klub olduğu yazılır. Söhbət qeyri-qanuni məsələlərdən gedirsə, istifadəçinin adından, fotosundan istifadə olunması, kommersiya vasitəsi kimi gəlir əldə edilməsi cinayət xarakteri daşıyır. Həmin şəxs hüquq-mühafizə orqanlarına müraciət etməlidir. Azərbaycanda isə çox zaman bu cür məsələlərə görə polisə müraciət etmirlər, öz haqlarını tələb etməyə meylli deyillər. Amma bu, düzgün yanaşma deyil. Qanun pozuntusuna yol verən şəxs cəzasını almalıdır. Adından istifadə edilən şəxs hüquq-mühafizə orqanlarına müraciət etdiyi halda həmin hüquq pozuntusunun hansı formada baş verdiyi müəyyənləşir. Hər bir hüquq pozuntusuna özünə uyğun hüquqi qiymət verilir. Bu, hüquq-mühafizə orqanlarına bağlı olan məsələdir. Birmənalı olaraq istifadəçinin razılığı olmadan onun adından əxlaqsız statuslar, şərhlər yazmağa, fotolarından biabırçı şəkildə istifadə etməyə, qeyri-etik təkliflərdən istifadə etməyə görə həmin şəxslər cavab verməlidir”.

**“İstifadəçinin adından istifadə edən şəxsi hansı cəza gözləyir” sualına isə R. Əhmədoğlu belə cavab verdi:** “İstifadəçinin hansı formada hüquqlarının pozulmasını polis özü müəyyən edir. Biri var dələduzluq halı kimi, biri də var əxlaqsızlıq kimi insanın adından istifadə etmə. Saxtakarlıq müəyyənləşəndən sonra həmin şəxsin cəzası bəlli olur. Qalan məsələlər qanunvericiliyə uyğun tənzimlənir”.

❑ Könül İBRAHİM

# Toyuq fermasının altından çıxan tariximiz

## Şəkidəki "Əbədi sükut dünyası" muzeyi bir möcüzədir, amma biganəlikdən məhv olur...

**Şəkinin Fazıl kəndində bir muzey var- "Sükut dünyası-Labirint"...Muzeyinin özəlliyi bu zəngin tarixin yerin altında yerləşməsi və arxeoloji qazıntılar zamanı tapılan mədəniyyət abidələrinin, qəbirlərin aşkar edildikləri yerdə saxlanılmasıdır. Muzey onun yaradıcısı olan iki nəfərin AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şəki-Qax-Oğuz Arxeoloji Ekspedisiyasının rəhbəri Nəsib Muxtarov və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqu İntizar Bədəlovanın hesabına yaranıb. Onlar bütün çətinliklərə rəğmən muzeyi ayaqda saxlamağa çalışırlar.**




Min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır devizini əsas tutaraq yolumuzu Şəkinin Fazıl kəndində yerləşən bu əsrarəngiz muzeydən saldıq. Yeraltı muzeyə daxil olarkən sanki qədimlərə, e.ə.3-4-cü minilliklərə doğru gedirdik. Muzeyin adı "Əbədi sükut dünyası " olsa da, içəridə sükut yox idi. Oradakı hər bir qəbir, əşya sanki o dövrləri vəsf edir, gördüklərini danışırdı. Ancaq təəssüf ki, yaranmasından 10 il keçməsinə baxmayaraq hələ də dövlət statusu almayıb. İçəridə olan nəmişlik buradakı tarixi eksponatlara təhlükə yaradır. "Əbədi sükut dünyası-Lbirint" qədim dövrdə əhalinin məişət şəraitini, dini təsəvvürlərini özündə əks etdirən dəfn adətləri ilə yaxından tanış olmaq imkanı verir. Burada yer alan bizim eradan əvvəl 3-cü və 4-cü minilliyə aid olan eksponatlar heç yerdə yoxdur. Ritual qəbirlərdə kökü kəsilən heyvanların sümüklərinə də rast gəlmək mümkündür. **İrəlidikcə muzeydə yer alan eksponatlardan, sirli qəbirlərdən danışan arxeoloq Nəsib Muxtarov buranın bir möcüzə olduğunu deyir:** "Biz arxeoloq kimi burada qazıntı işi aparmışıq. Burada nə görürsünüzsə, onu elə çıxdığı yerdə saxlamışıq. Biz bunu ona görə etmişik ki, burada muzey işçisindən, alimdən





çox qoy eksponatların özü danışsın. Mən buranı yaradanda düşünürdüm ki, necə edək ki, arxeoloji qazıntılar aparılandan sonra həmin abidələr məhv olmasın. Onlar yerində qalanda daha böyük fayda verə bilər".

N. Muxtarov Qafqaz Albaniyası dövrünü əhatə edən qəbirlərin üstünü açdıqdan sonra onları saxlamaq üçün 70 metrlik yeraltı muzeyin yaradılmasına nail olsalar da, indi həmin muzeyə sahib çıxanın olmamasından gileyləndi. O, tək istəyinin tariximizə bu biganə münasibətə son qoyulmasının olduğunu dedi.

**Muzeyi ekskursiya zamanı bir qəbir diqqətimizi çəkdi. Belə ki, qəbrin başında at, bir tərəfində inək, digər tərəfində isə qoyun, it, pişik dəfn olunmuşdu. N. Muxtarov bu qəbrin Azərbaycan folklorunun əsl siması olduğunu dedi:** "Bu, Azərbaycanın antik dövr abidəsidir. Bizim əcdadlarımız Aralıq dənizinə qədər gedib çıxıb. Həmin qəbirlərdə elə büt abidələr var ki, onlara dünyanın heç yerində rast gəlinmir. Gördüyünüz bu qəbrin yanında müxtəlif qablar da var. Digər ekspozisiyaya diqqət edin. İki insan dəfn edilib. Bunların dəfn vəziyyətləri burada 2 cür dəfn adəti olduğunu deməyə əsas verir. Digər qəbirdə isə insanın yalnız çənə və qol sümüyü dəfn olunub. Bu da Azərbaycanda eneolit, tunc dövründə də insan bədəninin bir hissəsinin dəfn olunması adətini əks etdirir. Şəki ərazisində apardığım arxeoloji qazıntı zamanı başının yerində dopu olan insan qəbri aşkar etdim.. Digər ekpozisiya isə genotafdır. Bir qab var ki, tipik ayıya oxşayır. Çünki bu qabın açılan yeri yoxdur. Tək oturacağı var, üstü də yumrudur. Bunu tapanda məndə fikir yarandı ki, hələ antik dövrdə də Azərbaycanda ayı kulturu təmiz aradan çıxmamışdı. Bu qab həm də musiqi alətinə oxşayır. Digər bir qabda isə sənətkar o naxışlarla həmin dövrün dini təsəvvürləri, inanc sistemləri haqda bizdə təsəvvür yaradıb. Başqa bir qabda isə həmin dövrdə dünya necə təsəvvür olunurdusa, o qabda özünü əks etdirib. Qab sanki ilandır, qıvrılıb yatır. Eyni zamanda buna ördəkburun qab da deyilir. O vaxtlar qazlar, ördəklər müqəddəs, günəşin bəlgəsi sayılırdı. Həmçinin qabda keçi rəmzi, günəş, planetlər, aypara da var".

N. Muxtarov deyir ki, bura keçmişdə qazma tipli mal ferması olub: "Yerin üstündə isə toyuq ferması olub. Biz buranı düzəldəndə mal ferması yox idi. Amma toyuq ferması hələ dururdu. Ona görə də mən toyuq fermasının bünövrəsini saxlamışam. Mən ilk dəfə 1984-cü ildə burada qazıntı aparanda yerli kənd camaatından eşitmişdim ki, 30-40-ci illərdə mal tövlələri düzəldiləndə buradan nə qədər tarixi əşyalar, sandıq tapılıb. Onların hamısını yığıb Əyriçaya töküblər. Bax, o zamankı laqeyd münasibət bu gün də Labirintə münasibətdə davam edir".

**Yeraltı muzeyi gəzdikcə divarlardakı, çat və nəmişlik arxeoloqu sanki yaralayırdı. O dərindən ah çəkərək təəssüflə yaratdıqlarına onun kimi sahib çıxan olmadığını deyirdi:** "Bu muzeyə mindən çox dünya arxeoloqları baxıb və onlar buranı möcüzə adlandırıblar. Muzeydə 30-dan çox xarici ölkənin səfirləri, beynəlxalq təşkilatların nümayəndələri baxıb. İndi bu muzeyin nəm çəkən divarlarını, uçan yerlərini görəndə özüm özümə əsəbiləşirəm. Axı tariximizə belə laqeydlik düzgün deyil".

**Muzeyin əməkdaşı, arxeoloq İntizar Bədəlova muzeyə dövlət statusu verilərsə, onu ayaqda saxlamağın mümkün olacağını dedi:** "Bura dövlət statusu verilsə, muzeyin işçisi olacaq, üstü götürüləcək. Yəni bu muzey iki nəfər arxeoloqun öz maliyyəsi hesabına ayaqda saxlanıla bilməz. Bu muzeyi yaradanda bizə kömək edənlər də olub. Amma 2006-cı ildən öz hesabımıza nə maliyyə düşübsə, bu muzeyə sərf etmişik». **N. Muxtarov mədəniyyət nümunəsinə bu cür laqeyd münasibətin səbəbini anlaya bilmədiyini deyirdi:** "Mən arzulayardım ki, nazirlik strukturunda çalışan məmurlar burada çalışan fəhlələr qədər abidələr haqqında məlumata malik olardılar, onun dəyərini bilərdilər».

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





YENİ MÜSAVAT
N 180 (6501) 17 avqust 2016

**Braziliyada keçirilən olimpiada həyəcanı davam edir. Rio 2016-ya 56 idmançı ilə qoşulan Azərbaycan komandasının bu günə qədər göstərdiyi nəticələri yəqin ki, uğurlu hesab etmək olmaz. Avqustun 16-na olan nəticələrə görə, artıq 30 idmançımız turniri medalsız başa vurub. Bu 30 idmançı arasında Azərbaycanın böyük ümidlər bəslədiyi, medal gözlədiyi təmsilçilərimiz də var.**

# İdmanımızın legioner bəlası

## Rio olimpiadasından vətənə medalsız qayıdan 30 idmançının əksəriyyəti legionerdir




Avqustun 5-dən start götürən turnirdə komandamızın aktivinə hələ ki cəmi 3 medal yazılıb. Onlardan ikisi gümüşdür. Cüdoçularımız Rüstəm Orucov və Elmar Qasımov final görüşündə məğlub olublar. 130 kq çəkidə mübarizə aparan legioner güləşçimiz Sabah Şəriəti isə bürünc medala sahib çıxıb.

Boksçumuz Kamran Şahsuvarlı da olimpiya oyunlarında da yolunu davam etdirir. Yarımfinala yüksələn K.Şahsuvarlı artıq bürünc medalı təmin edib. Rio 2016-da çıxış edən idmançılarımızdan 35-i legioner, 21-i isə yerli idmançılardır. Olimpiya oyunları ilə vidalaşan 30 idmançının əksəriyyəti legionerdir. Legionerlər komandamızı atletika, üzgüçülük, qılıncoynatma, güllə atıcılığı, akademik avarçəkmə, kanoe kimi idman növlərində təmsil edirdilər. Onların əksəriyyəti elə ilk görüşdəcə yarışlarla vidalaşdılar.

Legioner idmançılarımız arasında biabırçı nəticə göstərənlər də az olmadı. Məsələn, üzgüçümüz Boris Kirillov 26 iştirakçı arasında 26-cı yeri tutdu. Velosipedçimiz Maksim Averin 144 idmançının iştirak etdiyi yarışda finişə çata bilmədi və s.

**İdman jurnalisti Natiq Muxtarlı musavat.com-a danışarkən olimpiya oyunlarında legionerlərimizin çıxışını və Azərbaycanın legioner siyasətini şərh edib. N.Muxtarlı da hər kəs kimi legionerlərimizin nəticələrindən narazı olanlardandır.**

"Legionerləşdirmə siyasətinin Azərbaycanda hansı məqsədlərə xidmət etdiyi bəllidir. Azərbaycanda sırf bəzi idman növlərinin varlığını göstərmək üçün xaricdən legionerlər gətirilib. Həm də Azərbaycanda yerli idmançıların yetişdirilməsinə çalışmadan. Heç bir ölkə özünün bir nömrəli idmançısını başqa bir ölkəyə verməz. Buna görə də Azərbaycan həmişə xaricdən üçüncü və dördüncü dərəcəli idmançıları gətirir, onlara burada pul xərcləyir. Məsələn, bu olimpiadada qeydə alınan bir fakta diqqət çəkək. Azərbaycanın milliləşdirdiyi iranlı güləşçi iranlı idmançıya uduzdu. Bu amil özü onu sübut edir ki, biz İrandan aşağı səviyyəli idmançıları legioner olaraq gətirmişik. Ancaq Azərbaycanın özü güləşçilər məskənidir. Biz bu güləşçiləri özümüz yetişdirməliyik. Çünki güləş bizdə ənənəsi olan bir idman növüdür" deyə, N.Muxtarlı qeyd edib.

Onun sözlərinə görə, legionerlərə xərclənən pulların hesabına yerli idmançıların yetişdirilməsi mümkündür: "Ənənəsi olmayan idman növlərində- yelkənli qayıq, gimnastika, oxatma kimi idman növlərinə külli miqdarda vəsait sərf edilir. Atletika sahəsində də heç bir iş görülməyib. Federasiya idmançı yetişdirmək üçün bir məktəb belə açmayıb. Avropada və dünyada böyük uğur göstərən atletimiz Ramin Quliyev ölkədən getdi. İndi Türkiyənin şərəfini qoruyur. Biz isə əvəzinə legioner gətirmişik. Halbuki Ramin Quliyev cəmi aylıq 5 min manat məvacib istəyirdi. O pulu ona vermədilər, ancaq gedib legioner gətirib ona külli miqdarda pul xərclədilər. Ortada da nəticə yoxdur. Bir faktı da diqqətinizə çatdırım. Oleq Stepko adlı gimnastımız Avropa Oyunlarında qızıl medal qazandı, yüksək nəticə göstərdi. Amma olimpiya oyunlarında biabırçı nəticə göstərdi. Olimpiya çempionatı ən yüksək səviyyəli idmançıların iştirak etdiyi turnirdir. Həmin yarışda bizim legionerlərin səviyyəsi bəlli olur.

Azərbaycanın bütün idman sferasında köklü dəyişiklik olmalıdır. Öz idmançılarımızın yetişdirilməsinə başlamaq lazımdır. Çünki elə bizə medal qazandıranlar yerli idmançılarımızdır. Belə olan halda biz legionerə niyə pul xərcləməliyik? Qazanılan medallardan ikisi yerli cüdoçularımızındır. Ancaq cüdonun bir il əvvəlki vəziyyətinə baxın. Onlara pul ayıran, məşq keçən yox idi. Füzuli Ələkbərov idmançıları sahibsiz qoymuşdu, federasiya başsız qalmışdı. İndi cüdoçularımızın uğurunu gördük. Əgər həmin boşluq olmasaydı, indi nəticə daha yaxşı ola bilərdir.

Güləşdə də uğurlarımız yaxşı olub. Amma biz gedib bölgələrdə məktəblər açmaq, idmançı yetişdirmək əvəzinə legioner gətiririk. Öz idmançılarımız isə legioner kimi başqa ölkələrdə çıxış edir. Ağırlıqqaldırmada gördünüz ki, Nicat Rəhimov Qazaxıstana qızıl medal qazandırdı. Bizim bir nömrəli idmançımız başqa ölkənin legioneri oldu. Nicat Rəhimov gedişi ilə Azərbaycanda legionerləşdirmə siyasətini ifşa etdi. Bolqarıstandan baş məşqçi, başqa ölkələrdən idmançı gətirdilər. Nicatın vaxtı ilə federasiya ilə bağlı dediklərini qulaqardına vurdular. Nicat uğuru və gedişi ilə hər şeyi sübut etdi. Bundan sonra islahatlar başlamasa, baş verənlərdən nəticələr çıxarılmasa, bizim idmanımızın sabahı yoxdur. Rio olimpiadası onu göstərdi ki, Azərbaycanın idman ölkəsi kimi göstərilməsi sabun köpüyündən başqa bir şey deyildi".

**N.Muxtarlı olimpiya mükafatçılarına yüksək məbləğdə mükafatın verilməsinə də münasibət bildirdi:** "Bizim idman funksionerlərimiz unudurlar ki, idmançıya yüksək məbləğdə pul verməklə uğur qazanmaq mümkün deyil. Medal qazanmaq üçün gecə-gündüz məşq etmək lazımdır, peşəkar səviyyə olmalıdır. Olimpiada da uğur qazanan idmançılarımız yüksək məbləğlə mükafatlandırıldıqdan sonra onların idmana marağı ölür. Bütün olimpiya çempionlarımızın hamısı konfort həyatla təmin olunduqdan sonra idmanı demək olar ki, unudurlar. Buna görə də bizdə ikiqat olimpiya çempionu yoxdur. Olimpiya mükafatçılarına bu qədər mükafat vermək istər-istəməz cəmiyyət arasında da qıcıq yaradır. Əhali onsuz da kasıb yaşayır. Biz bununla dünyaya nəyi sübut etmək istəyirik?"

İdman jurnalisti Elsəvər Məmmədov da legionerlərin və ümumiyyətlə komandamızın Riodakı çıxışından narazı qaldığını deyir: "Çox biabırçı nəticələr var. Məsələn, Oleq Stepko Avropa Oyunlarında 3 medal qazandı. Amma olimpiadada çıxışına baxın. Eləcə də digərləri. Görünən odur ki, bu legionerlər digər ölkələrə lazım olmayanlardır. Ümumi çıxışlara gəlincə, cüdoçularımızdan ən azı qızıl medal gözləyirdim, amma olmadı. 33 idmançı artıq çıxışını başa vurub və cəmi 4 medalımız var. 3-nün əyarı bəllidir, boksda Kamran Şahsuvarlı ən azı bürünc medalı təmin edib. Məncə, qənaətbəxş nəticə deyil. Güləşçilərimiz də yarışlara pis başladı. Belə getsə, ümumiyyətlə fiasko olacaq. Qızılsız qalacağıq. Maraqlısı da odur ki, heç bir rəsmi bu uğursuzluqlar barədə açıqlama vermir".

Sonda olimpiya oyunlarında medal qazanan idmançılarımıza verilən mükafat haqda məlumat vermək istərdik. Olimpiya çempionu olan idmançımız 400 min manat, məşqçisi 200 min manat, gümüş medalın sahibi olan idmançımız 200 min manat, məşqçisi 100 min manat, bürünc medal qazanan 100 min manat, məşqçisi isə 50 min manat məbləğində mükafata layiq görülür. Məlumat üçün onu da qeyd edək ki, Azərbaycan dünya ölkələri arasında olimpiya oyunlarında medal qazanan idmançıya ən yüksək məbləğdə mükafat verən ölkədir.

❑ **İlkin MURADOV**




# Himayəsində 6 uşaq olan Bakı sakininə niyə sosial yardım verilmir?

## Əkbər Əliyev: "Nazirlik deyir ki, sosial yardım düşür, amma vermirlər"

**Himayəsində 6 uşaq olan Bakı şəhər sakini 2 ildir sosial yardım almaq üçün döyməədiyi qapı qalmayıb. Sosial yardım alması üçün tələb olunan bütün sənədləri hazır olsa da, vətəndaş iddia edir ki, yardımın ayrılması üçün ondan rüşvət tələb olunur.**

Sabunçu rayonu, Bakıxanov qəsəbəsi A.Krılov küçəsi ev 27-də yaşayan 1979-cu il təvəllüdlü Əliyev Əkbər Qurbanəli oğlu musavat.com-a müraciət edərək bildirir ki, 2 il əvvələ qədər sosial yardım alsa da, indi Sabunçu Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində get-gələ salınır. Əvvəl ondan sosial yardım verilməsi üçün rüşvət tələb edilsə də, indi rüşvət istənilmir. Ə.Əliyev deyir ki, bunun səbəbi nazirliyə və digər dövlət qurumlarına etdiyi şikayətlərdir.

Sosial yardım almaq üçün lazımi sənədlərinin qaydasında olduğunu deyən Ə.Əliyev qarşılaşdığı vəziyyəti belə izah edir: "Hər dəfə bir bəhanə ilə məni geri qaytarırlar. 17 sənəd tələb edirdilər. Mən də bir-bir hamısını topladım. Uzun müddət sənədlərdə səhv axtarmağa başladılar. Əvvəlcə ilk 8 ayın yardımının onlara qalmasını istədilər. Razı olmayandan sonra get-gələ salmağa başladılar. Bütün sənədlər qaydasındadır. Sonra müharibə iştirakçısı olduğumu, əsirlikdə olduğumu deyib guya mənə güzəşt etdilər. Dedilər ki, ilk 4 ayı bizə verərsən. Bununla da razılaşmadım. İndi nə vaxt gedirəmsə, bir bəhanə tapıb geri qaytarırlar. Deyirlər ki, get, biz səni özümüz çağırarıq".

**Ə.Əliyev məsələ ilə bağlı rayon icra hakimiyyətinə müraciət edib, Prezident Administrasiyasına da məktublar göndərib. Lakin bu şikayətlər Sabunçu Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin rəhbər şəxslərini daha da qəzəbləndirib:** "Sabunçu Rayon İcra Hakimiyyətində Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Qəzənfər Həsənovun qəbulunda olmuşam. Çox gözəl qarşılandım və oradan mərkəzə mənə köməklik göstərilməsi ilə bağlı müraciət edildi. Bu müraciətdən sonra qara günlərim başladı. "Niyə bizdən şikayət etmisən" deyib məni daha da incitməyə başladılar. İndi nə edəcəyimi bilmirəm. 4 uşağım var. Qardaşım vəfat edib. Onun iki körpəsini qəyyumluğa götürmüşəm. Özüm satıcı işləyirəm. Yaşadığımız ev bərbad vəziyyətdədir. Ailəni dolandıra bilmirəm. Sosial yardım almaq haqqımız deyilsə, desinlər istəməyək. Ancaq bu qədər özbaşınalıq olmaz. Niyə mən öz haqqımı kiməsə verməliyəm? 2014-cü ildə sosial yardım alandan sonra icraçı 200 manat istədi. Verəcəyimi dedim. Baş məsləhətçi Sultan Həsənov iş yerimə gəldi və dedi ki, sən fırıldaqçısan. 50 manat verdim, deyir bu nədir?"

**Narazı vətəndaş deyir ki, 3 dəfə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində qəbulda olub. Ona nazirlikdən bildirilib ki, bütün sənədləri qaydasındadır və sosial yardım almaq üçün rayon şöbəsinə müraciət etməlidir.**

"İndi qalmışam nazirliklə rayon şöbəsi arasında. Şöbədən deyirlər ki, sənə sosial yardım düşmür. Nazirlik isə deyir ki, verilməlidir. Öz uşaqlarımla yanaşı, anası və atası olmayan iki uşağı da qəyyumluğa götürmüşəm. Kiçik bir daxmada 6 uşaqla yaşamağa çalışıram. Şöbədən deyirlər ki, "sən bizim hesabımıza varlanmaq istəyirsən". Bunları başa sala bilmirəm ki, mən öz haqqımı tələb edirəm. Mübahisə edən kimi də deyirlər ki, polis çağırırıq. Adama hədə-qorxu gəlməyə başlayırlar. Müraciət etmədiyim yer qalmayıb. Kimə dərdimizi deyək?"

Sabunçu Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin baş məsləhətçisi Sultan Həsənov Əkbər Əliyevin iddialarına cavab olaraq musavat.com-a bildirib ki, Ə.Əliyevin sonradan sosial yardım ala bilməməsinin səbəbi onun banklardan birində adına kreditin olmasıdır.

❑ **İ.MURADOV**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 180 (6501) 17 avqust 2016*




# Arı südü belə möcüzə yaradır

Arı südü - cavan işçi arıların udlaq və üst çənə vəziləri tərəfindən hazırlanır. Arı südünün tərkibində orqanizmə lazım olan 20-yə yaxın amin turşusu, çoxlu vitaminlər, mikroelementlər və mineral maddələr, 110-a yaxın bioloji aktiv birləşmələr vardır. İnsan arı südü qəbul etdikdə onun infeksion xəstəliklərə qarşı müqaviməti artır, maddələr mübadiləsi yaxşılaşır. Ümumi tonus qüvvətlənir, insan gümrahlaşır, cavanlaşır, daxili sekresiya vəzilərinin fəaliyyəti normallaşır. Arı südü aterosklerozda, mədə və 12-barmaq bağırsaq yaralarında, qaraciyər xəstəliklərində, uşaqlarda fiziki və zehni inkişafın zəifliyində, orqanizmin ümumi zəifliyində, süd əmizdirən qadınlarda süd azlığında müsbət təsir göstərir. Sidikqovucudur, piylənməni ləngidir, qanyaranmanı normallaşdırır, endokrin vəzilərin funksiyasını tənzim edir, qocalma prosesini ləngidir, yaddaşı və görməni yaxşılaşdırır, cinsi vəziləri fəallaşdırır və iştahanı artırır. Arı südündən radioaktiv zonalarda işləyənlərdə hüceyrələrin bərpa olunmasında və şüalanmanın zərərli təsirlərinin qarşısının alınmasında effektiv dərman kimi istifadə oluna bilər.

# 60 yaşdan sonra idman edənlər...

İngiltərədə yayımlanan "Sport Medicine" adlı qəzetdə uzun müddət davam edən araşdırmaların nəticələrini yayımlayıb. Qəzetdə yayımlanan yazıda deyilir ki, 60 yaşdan sonra idmanla məşğul olmaq insanın həm yaddaşını gücləndirir, həm də ömrünü uzadır. Yaşı 60-dan çox olan 3 min 500 nəfərin üzərində aparılan araşdırmalardan sonra məlum olub ki, insanlar idmanla məşğul olmağa başladıqdan sonra onların ömürləri 8 il uzanır. İdman ürək-damar sistemi xəstəliklərinin qarşısını alır, diabet, yaddaşsızlıq və depressiya riskini azaldır.



# Arvadı ilə yaşamaq istəmədiyi üçün... həbsə girdi

Rusiyada bir kişi ailə problemlərini maraqlı üsulla düzəltmək istəyib. O, qalmaqallı arvadından canını qurtarmaq üçün soyğun etmək qərarına gəlib. Kişi bu yolla arvadı ilə üz-üzə gəlməmək üçün həbsə düşmək istəyib. Bu fikri həyata keçirmək üçün qonşuluqda yerləşən mağazanı soyub. Müşahidə kameraları kişinin kassirə yaxınlaşıb bütün pulları ona verilməsini tələb etdiyi anları çəkib. O, kassada oturan şəxsi hədələmək üçün özü ilə silah gətirməyib. Onu inzibati cəza və cərimə gözləyir.

Qeyd edək ki, analoji hadisə Nigeriyada da yaşanıb. Nigeriyalı bir kişi arvadından qorunmaq üçün məhkəməyə müraciət etmişdi. Kişinin sözlərinə görə, həyat yoldaşı onu mütəmadi olaraq döyür. "O, ailədə başçılıq edir. Mən daha bununla barışa bilmərəm. Mənim arvadım normal adam deyil", - deyə kişi bildirib. Nigeriyalı hökumətdən arvadının onu öldürməyəcəyi haqqında təminat tələb edib.







# Bu evin zooparkı da var, limanı da

Amerikanın qumarxanaları ilə məşhur olan Las-Veqas şəhərindəki bir ev görənləri heyrətləndirib. Dəyəri 48 milyon dollar olan evin hava limanı belə var. Las-Veqasın mərkəzindəki villa 8 binadan ibarətdir. 61 min kvadratmetr ərazidə tikilən ev sentyabr ayında 70 milyon dollara satışa çıxarılmışdı. Lakin gözlənilən qədər tələb gəlmədiyi üçün evin qiyməti 22 milyon aşağı düşdü. Hazırda həmin bina 48 milyon dollara satılır.

"Casa de Shenandoah" adlı evdə 37 at saxlanılır. 7 maşınlıq qarajı olan evin kiçik zooparkı və tennis sahəsi də var. Evin ən böyük özəlliyi hava limanının olması və orada yeni bir "F-28" markalı kiçik təyyarənin saxlanılmasıdır.




QOÇ - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

BUĞA - Böyük dəyişikliklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz məsələləri isə təxirə salmalısınız.

ƏKİZLƏR - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kandara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

XƏRÇƏNG - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki bu təqvimdə sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşəcəksiniz. Bəxtinizdə pul var.

ŞİR - Bu enerjili təqvim bürcünüz üçün ən perspektivli zaman kəsiyinə çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

QIZ - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam rəqiblərinizdən təhlükə gözlənilir.

TƏRƏZİ - Olduqca səmərəli bir təqvim yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Ağır fiziki işlərə ara verin.

ƏQRƏB - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən və yeni sövdələşmələrdən uzaq olmalısınız.

OXATAN - Bu gün ümumi gərginlik sizi müşayiət etsə də, çılğınlıq göstərməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Saat 15-18 arası səbəbsiz münaqişələrdən uzaq olun.

OĞLAQ - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

SUTÖKƏN - Səhər saatlarından etibarən həmkarlarınızla, eləcə də yaxın münasibətdə olduğunuz bəzi kəslərlə mübahisələriniz mümkündür. İki gündən bəri bürcünüzdə bərqərar olan Ay sizdən mülayimlik tələb edir.

BALIQLAR - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu tarixdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 12 yaşından bəri hər gün əriyən adam



İngiltərədə yaşayan Tom Staniford adlı kişi qəribə xəstəlikdən əziyyət çəkir. O, dünyada yalnız 8 nəfərin tutulduğu "MDP sindromu" adlı xəstəliyin daşıyıcısıdır. Tomun dərisi yağ saxlamır. Ona görə də o, kökəlmir və dayanmadan arıqlayır. Exeter Universitetinin professorları Tomun genetik pozğunluğa görə bu xəstəliyə tutulduğunu deyirlər. Boyu 1 metr 90 santimetr olan oğlanın çəkisi cəmi 66 kilodur. Həkimlər onun xəstəliyini müalicə edə bilməsələr də Tom həyatı və yaşamağı çox sevir. O, velosiped sürməyi çox sevir və olimpiadalarda iştirak etmək istədiyini deyir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750



# Yalanın gözdən salınması

Zamin HACI
zaminhaci@mail.ru

**YAP rəhbərliyindəki şəxslərdən birinin adından sosial şəbəkədə nəsə xəbər yayılıbmış. Əgər diqqət elədinizsə, mən həmin adamın adını yazmıram. Şəxsi mövqeyi olmayan, boz kütlədən ibarət təşkilatın hər hansı üzvünün xüsusi isim şəklində adı ola bilməz. O üzdən, mən yapistlərin hansısa formada nömrələnməsinin tərəfdarıyam, bizim söz açdığımız adam da olsun "İqrek 69 müəllim". Lap Ayzek Azimovun "Gecənin gəlişi" hekayəsinin qəhrəmanları kimi.**

Uzun sözün qısası, həmin bu İqrek 69 müəllim indi deyir o xəbər yalandır, ümumiyyətlə, sosial şəbəkələr ağını çıxardıblar, adamların saxta profilləri yaradılır, adlarından doğru olmayan məlumatlar yayılır. Gərək biz bu işə əncam çəkək, sosial şəbəkələrdə xəbər yayanlar, fikir bildirənlər cəzalansın. Guya indiyə qədər tək facebookda şərh yazan, nəinki şərh, hətta adi "bəyənmə" düyməsini tıklayan onlarla insanı cəzalandıran sistemin nümayəndəsi bu deyil. Sosial şəbəkə dustaqlarımız "en" qədərdir. Xarici İşlər Nazirliyi bir ara qarın ağrısına düşüb xaricə qaçqın diplomat ifraz edəndə həmin ifrazatların statuslarını "like" edənləri yıxıb yerə üzr istəməyə məcbur elədilər.

Şəxsən mənim özümü keçən il facebook şəbəkəsindəki tam qanuni fikirlərimə görə - Bakıda bina yanıb 16 insan öləndə camaatı həmin penoplast üzlükləri sökməyə çağırmışdım - Bakı Şəhər Polis İdarəsinə çağırıb xəbərdarlıq edən bəlkə Şimali Koreya rejimi idi? Halbuki mənim polis idarəsində olduğum dəqiqələrdə hökumət elə özü həmin üzlükləri sökməyə qərar vermişdi.

Sözümün canı odur ki, Azərbaycanda internetin guya azad olması tamamilə yalandır. Ölkə ərazisində istənilən şəxsi yazdığı xəbərə, şərhə görə tapıb tutmaq üçün hökumətin əlində min cür texniki vasitələr vardır, bunlardan yeri gələndə yararlanırlar. Yeri gəlmişkən, yapistlər hətta xaricdə yaşayan sosial şəbəkə fəallarına qarşı da əməliyyatlar hazırlayırlar, misal üçün, bir ara Almaniyada yaşayan nüfuzlu blogger Həbib Müntəzirin həyatına qəsd üçün agent göndərildiyi məlumatları ortaya çıxmışdı.

İqrek müəllimin çıxışına bu mənada, heç diqqət yetirməmək olardı, sadəcə, onun danışdığı kontekst çoxdan düşündüyüm bir mövzunu yadıma saldı. Həyatdır, bəzən mal təzəyinin içindən də brilyant tapa bilərsən, neyləmək olar... Mövzu yalanın gözdən düşməsi mövzusudur.

Yapistlərin Azərbaycanda uzun illər hakimiyyətdə qalmasının mənfi tərəfləri saysızdır, ancaq müsbət tərəfi də var ki, onlar yalanı gözdən salıb, hörmətsiz ediblər. Artıq bu ölkədə kimsə yalan danışıb, gopa basıb hakimiyyətə gələ bilməyəcək. Elə onların getməməyinin səbəblərindən biri, hətta mənim aləmimdə birincisi elə bu yalanın üzərindədir - xalq onların yalanına alternativ ola biləcək, yapistlərin yalanını əvəzləyəcək yalanı yetişdirməkdə çətinlik çəkir, çünki Azərbaycan xalqı bəlkə minillik yalan potensialını bunlara yükləmişdir, cəmiyyət içində böyük yalan vakuumu, boşluğu, qıtlığı yaranmışdır. Bu, analoqu olmayan yalandır, Bütün Qafqazın liderliyinə layiq yalandır, musiqili, muğamatlı, dopinqlə, neftlə şişirdilmiş əzələli yalandır.

Müxalifət sayılmağa, adlanmağa iddialı qüvvələrin yalnız bir yolu qalmışdır: doğruçu olmaq, dürüst olmaq. Yüngülvari yalanlarla baş aldadıb dekorativ dəyişikliyə getməyə xalq mandat verməyəcək. Kristal təmiz olmağa məhkumdurlar. Mən diqqət eləmişəm, xalq iqtidardakıların div boyda nəhəng yalanlarına dözsə də müxalifətçilərin cücü boyda xırda yalanlarına dözmür. Çünki yenə yazıram: xalqa alternativ lazımdır. Gerçək alternativ. Yalanın yekəsi varımızdırsa, balacasını neynəyirik? Avtoritarizm, şəxsiyyətə pərəstiş, bütpərəstlik varımızdır. İndi bizə demokratiya, liberalizm, azadlıq lazımdır.

Yazını sovet dissidenti Soljenitsinin "Yalansız yaşamaq" adlı tanınmış essesindən bir sitatla bitirirəm - mövzumuza tam dəxli olmasa da o essedən çox xoşum gəlir: "Azadlığa çıxmağın indiyəcən məhəl qoymadığımız ən adi, ən sadə açarı elə buradadır - şəxsən yalana qoşulmamaq! Qoy yalan dünyanı bürüsün, qoy yalan hamıya hakim kəsilsin, ancaq kiçicik bir şeydə möhkəm duraq - yalanın hakim kəsilməsində mənim əlim olmasın!"

# Türkiyənin Bakıdakı səfiri: "Qərb səmimiyyət testindən keçə bilmədi"

## İsmayıl Alper Coşqun: "Azərbaycana güvənə biləcəyimizi bir daha gördük, bu, bizə güc verdi"



**Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alper Coşqun "Yeni Müsavat" qəzetinin redaksiyasında olub. Qəzetimizin baş redaktoru Rauf Arifoğlu ilə görüşdə səfirliyin ikinci katibi Oğuzhan Albayraq və mətbuat müşaviri Hamit Karadeniz də iştirak edib. Cənab səfirin olduqca ilginc məqamlarla zəngin olan müsahibəsinin sonuncu bölümünü təqdim edirik:**

(əvvəli ötən saylarımızda)

**Baş redaktorumuz ANS-lə bağlı səfirin dediklərinin qarşılığında növbəti sualı ünvanlayır:**

***- Amma önlənmə çox da sərt olmadımı? Çünki müsahibəni götürən jurnalist Qənirə Ataşova bir ərdoğançı çıxdı, hətta Amerikada mitinqlərin önündə olub, etiraz bildirib. Bu mənada insanların sualı var, fürsət düşmüşkən sizə yönəldirik...***

**Səfir:**

- Yaxşı edirsiniz. Amma mənim şərhim o xanımla, kanalla və ya şəxslə əlaqəli deyil. Mən sizə prosesdən bəhs edirəm. Bu prosesin içində yer almamaq, qənaətimcə, ən doğru yoldur...

***- Hörmətli səfir, 15 iyuldan keçən son 25 gündə Türkiyəni hədəfə alan DAEŞ (İŞİD) və PKK terroru sanki fasilə götürüb. Yalnız dünən (ötən həftədən söhbət gedir - E.P.) xain bir terror aktı oldu, əsgərlərə hücum etdilər... Bunun səbəbi nədir? Hətta bəzi iddialar da var ki, çevriliş cəhdini edənlərlə digər terror təşkilatları anlaşma içərisində olublar və baş verən terror əyləmləri eynilə 1980-ci illərdəki kimi, hərbi çevrilişə əsas yaratmağa xidmət edib...***

- Bununla bağlı dəlil varmı, bilmirəm. Səmimi deyirəm, tam cavab verəcək durumda deyiləm. Amma birlikdə nə olduğuna baxaq: adamlar 15 iyulda nə etdilər? F-16-larla, helikopterlərlə dövlətə, xalqa hücum etdilər. Demək, bu düşüncədə olan bir təşkilat günahsız insanların da canını almaqdan çəkinmir. Dolayısı ilə, bu iddia araşdırılması gərəkən məsələdir. Amma bu çevriliş cəhdinin uğursuzluğundan sonrakı hadisələrə baxın, çox həzin mənzərələr var. Helikopterlə bilmirəm haraya keçənlər oldu...

***- Yunanıstana...***

- Bəli, hərbçi geyimində olanlar oraya sığındılar, bunu yaxşı anlamaq lazımdır. Bəzi xəbərlərə görə, PKK-ya sığınanlar da olub. Bu terror təşkilatları istər ən sağçısı, istər ən solçusu olsun, istər FETÖ kimi guya inanclı, mühafizəkar, bilmirəm nə ruhlu olsun... Bunların ruhu da, məqsədi də eynidir. Bütün anlatdıqları hekayələr də bəhanədir. Bunlar gözləri dönmüş terrorçulardır. Adı-sanı heç önəmli deyil, ehtiyac hiss etdikləri halda bunlar eyni masanın ətrafında toplanır, eyni məclisdə də görüşürlər. Buna azacıq şübhə də yoxdur. Hörmətli prezidentimiz də bunu söylədi, DAEŞ gəlir, PKK gedir, FETÖ dövriyyəyə girir, digəri çəkilir... Yəni sizin dediyiniz kimi, bu silsilə necə olur, bunun arxasında bir qurğu varmı, bunu bilmirəm. Amma bu, gerçəkdir ki, bunlar bir-biri ilə hər cür işbirliyinə gedərək, tək məqsədləri Türkiyəyə və ya dinc əhaliyə zərər verməkdirsə, bunu edəcək düşüncədədirlər.



**"Təyyarə vurulma hadisəsindən sonra Moskvadan gələn embarqo qərarlarına baxmayaraq, Türkiyə Rusiyanı "dostlar" siyahısından çıxarıb "düşmənlər" siyahısına daxil etməyib"**

**Bunun ardınca Türkiyə-Rusiya münasibətlərindən bəhs etdik:**

**Zahid Səfəroğlu:**

***- Cənab səfir, dediniz ki, terror təşkilatları ilə bağlı bir siyahı yoxdur. Amma hər bir dövlətin təhlükəsizlik doktrinası deyilən bir sənədi olur, yəqin ki, Türkiyənin də var. O sənəddə dövlətin dostları və düşmənləri əksini tapır. Rusiya ilə barış baş tutdu, artıq hörmətli prezidentin Sankt-Peterburqa səfəri oldu. Son olaylardan sonra Türkiyə bu doktrinaya hər hansı bir düzəliş etməyi düşünürmü? Yəni dostların yeri dəyişdirilə bilərmi? Rusiya ilə müttəfiqlik haraya qədər gedə bilər? Qərb düşərgəsində də bir əndişə var ki, bu münasibətlər hətta bir hərbi blok, müttəfiqlik şəklinə qədər çata bilər. Türkiyə Qərbdən ayrılıb Rusiya tərəfə gedə bilərmi?***

- Bir şeyi xatırlatmaq lazımdır. Biz indi biz 15 iyuldan bəhs edirik, Fətullahçı Terror Təşkilatının (FETÖ) böyük günaha yol verdiyini söylədim. Amma bu məsələ oradan başlamadı. 2-3 il əvvələ getsək, Türkiyədə bu məsələ ilə bağlı çox ciddi mübarizə aparılırdı. FETÖ ilə bağlı... Ötən dövrdə də Türkiyədə Milli Güvənlik Qurumu (MGK) tərəfindən FETÖ qeyri-qanuni fəaliyyət göstərən, amma leqal örtüklü bir terror təşkilatı olaraq tanınmışdı. Dolayısı ilə, Türkiyə Cümhuriyyəti bütün dövlət mexanizmləri, təhlükəsizlik orqanları ilə FETÖ-nü terror təşkilatı olaraq gördüyünü və ona qarşı mübarizə aparmağa qərarlı olduğunu daha əvvəldən də elan etmişdi. Bu, 15 iyuldan sonra yox, daha öncə olan hadisədir... İkincisi, şübhəsiz ki, hər bir ölkənin təhlükəsizlik doktrinası var. Xüsusilə də milli təhlükəsizlik orqanları bu mənada dövlətə önəmli tövsiyələr verib... Bu məsələ birdəfəlik qəbul olunmalıdır ki, Türkiyə NATO-da önəmli bir aktyordur, orada Türkiyə fəaldır...15 iyul çevriliş təşəbbüsündən sonra bəzi absurd spekulyasiyalara, yanlış şərhlərə yol verildi. Hətta Türkiyənin NATO üzvlüyü ilə bağlı heç bir əsası olmayan müzakirələr aparıldı. Bunlar absurd iddialardır. Türkiyə 15 iyul hadisəsi ilə əlaqədar olan səbəblərlə nə NATO-dakı yerini itirəcək, nə də oradan çıxarılması və ya ondan imtina edəsi deyil... 15 iyul hadisəsinə bütün ölkələrin sərgilədikləri davranış bizim üçün bir səmimiyyət testidir. Azərbaycanımız bu səmimiyyət testindən necə bizim içimizi çox duyğulandıracaq şəkildə çıxdısa, müttəfiqimiz olmasına rəğmən bir çox ölkələr, ABŞ da daxil, verdikləri cılız təpkilərlə bizim gözümüzdə qırıq qiymət aldılar... İndi bu, bizim gözümüzdə səmimiyyət testi olduğu üçün şübhəsiz, oturub bəzi məsələləri düşünməyimizə səbəb olacaq, bu gerçəklik qarşımızda durur. Amma bu gerçəkliklər səbəbindən Türkiyənin birdən-birə mövqeyini 180 dərəcə dəyişdirəcəyini gözləmək lazım deyil, xarici siyasət belə olmur. Rusiya məsələsi bunun ən gözəl nümunəsidir. Biz "soyuq müharibə" zamanında da NATO-nun Cənub qanadındakı ən önəmli və ən çətin qolu sayılan ölkələrdən biri olmağımıza rəğmən, Rusiya ilə bəzi məsələlərdə əlaqələr qurmaq axtarışında olmuşuq, qarşı blokda yer almış olsa da. "Soyuq savaş" sonrasında ən gözəl nəticə Azərbaycanımızın müstəqilliyi oldu şübhəsiz ki. Amma digər önəmli bir nəticəsi isə NATO müttəfiqi olmağımıza baxmayaraq, Türkiyə olaraq Rusiya ilə əlaqələrimizi inkişaf etdirməyimizdir. Təyyarə vurulması hadisəsinə gələnə qədər, aşağı-yuxarı son 20 illik zaman çərçivəsində Rusiya ilə başda iqtisadi sahədə, eyni zamanda bəşəri məsələlərdə də çox faydalı əməkdaşlığın olması faktdır. Biz o dönəmdə Rusiyanı bir yerdən alıb başqa yerə qoymadığımız kimi, təyyarə vurulduğu andan etibarən də Türkiyədən verilən bütün açıqlamalara baxın, heç zaman Rusiyaya qarşı düşmənçilik mövqeyi ifadə olunmayıb. Hətta Rusiyadan gələn, doğrusu, bizi o zaman üzən, heyrətləndirən, fərdi hücumlar da daxil olmaqla, edilən bütün təhrikçi açıqlamalara baxmayaraq, Türkiyə soyuqqanlı hərəkət edib və hər zaman bu mövqeni ifadə edib: bu hadisə ilə əlaqədar çox üzüldük, ancaq bunun nədən baş verdiyini hər kəs bilir, bununla bağlı müzakirələrə hazırıq, Rusiya bizim üçün önəmli bir ortaq ölkədir, rus xalqını biz dost bilirik və yenidən əlaqələrimizi bərpa etmək iradəsinə sahibik, hazırıq. Yəni təyyarə vurulma hadisəsindən sonra Moskvadan gələn embarqo qərarlarına baxmayaraq, Türkiyə Rusiyanı "dostlar" siyahısından çıxarıb "düşmənlər" siyahısına daxil etməyib. Amma Rusiyanın etdiyi həmlənin Türkiyəyə o dönəmdə zərər vermə arayışının təbii ki, Ankarada diqqətə alınmaması mümkün deyil. Ancaq bunun əbədi bir davranış olmayacağına, Rusiyada rasional təfəkkürün qələbə çalacağına ümid etdiyimizi hər zaman söylədik və nəticədə iki lider qarşılıqlı faydalı mesajlar verməklə, inşallah, həmin dönəmi geridə qoyduq. İndi bu nöqtədə birdən-birə "hə, Rusiya ilə əlaqələr düzəldi, Türkiyə NATO-dan çıxacaq, Rusiya ilə müttəfiq olacaq", fikirlərini də süni və şişirdilmiş sayıram. Amma belə nəticə var: Qərb səmimiyyət testindən keçə bilmədi. Moskva, hörmətli prezidentimizin də dediyi kimi, burada daha düzgün refleksləri sərgilədi.

**"Türkiyə 15 iyul hadisəsi ilə əlaqədar səbəblərlə nə NATO-dakı yerini itirəcək, nə də ordan çıxarılası və ya ondan imtina edəsi deyil"**

***- Putinin zəngi....***

- Rusiya bizim əlaqələrimizi inkişaf etdirməyə hər zaman önəm verdiyimiz, o 8 aylıq çətin dönəm daxil, bu iradəni təkrar etdiyimiz önəmli bir ölkədir. Rusiya-Türkiyə dostluğunun hər iki ölkəyə və bu coğrafiyaya fayda verəcəyinə inanırıq, bu əlaqələri davam etdirəcəyik. Türkiyənin müttəfiqlik əlaqələrinin kimlərlə, haraya qədər olduğu aşkardır. Azərbaycanla tale müttəfiqliyimiz bambaşqa, müqayisə olunmayan bir şeydir. Rusiya ilə də bir çox sahədə strateji ortaqlığımız var.

***- Cənab səfir, Rusiya-Türkiyə yaxınlaşması şəraitində təbii ki, Azərbaycan da rahat nəfəs alır və pozitiv qarşılayır. Bu yaxınlaşma fonunda Qarabağ məsələsində irəliləyiş olacağı ehtimalları var.***

- İnşallah.

***- Hətta Ermənistanla sərhədlərin açılacağı deyilir, Rusiya və Qərb mətbuatı bu məsələdən yazır. Siz bu barədə nə deyə bilərsiniz? İki ölkənin yaxınlaşmasının Qarabağ məsələsinin həllinə təsiri ola bilərmi? Türkiyənin Rusiya üzərindən ermənilərə təsir imkanları yarana bilərmi? Azərbaycan insanı üçün Qarabağ məsələsi bir nömrəli məsələdir...***

- Haqlısınız. Bizimçün də elədir. Bunu bilmək lazımdır ki, bu bölgədə Türkiyə də, Rusiya da önəmli dövlətlərdir... Bu bölgədə aparıcı oyunçular olan Türkiyə və Rusiya faydalı məsələlərlə bağlı bir araya gəldikləri halda, Ankarada mövcud olan Rusiya ilə sıfırtoplamlı yarış içində olmadığımız, problemlərin həllinin sadəcə Türkiyəyə deyil, Rusiyaya da fayda verəcəyi inancının Moskvada da qəbul edilməsi halında Suriyada da, Dağlıq Qarabağ məsələsinin həllində də bütün bölgənin ali mənfəətlərinə xidmət edəcək nəticələr əldə edə bilərik. Biz Türkiyədə səmimiyyətlə buna inanırıq. Bizim bu bölgədə kiminləsə geopolitik rəqabət aparmaq niyyətimiz yoxdur.

***- Bölgə deyərkən?***

- Cənubi Qafqaz, Orta Asiya, Orta Şərqi nəzərdə tuturam. Türkiyənin tək istəyi budur: biz bu bölgədə sabitlik, dinclik istəyirik. Sabitlik və dincliyin olması üçün də Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli lazımdır. Barış və sabitlik şəraitində iş adamlarımızın, yatırımçılarımızın daha fəal ola biləcəyi bir şərait əldə edə bilərik. Bu, yalnız Türkiyəyə xidmət etməz; bu, elmi dəlillərlə də təsdiqlənmiş məsələdir. Bu, digər toplumlara, coğrafiyalara da faydalı xidmət olacaq, orada da rifahın artmasına səbəb olacaq. Bakı-Tiflis-Qars dəmir yolu işlək hala gəldiyi zaman bütün daşımaçı mərkəzlər, Şərq-Qərb dəhlizindəki bütün marşrutlar işlək hala gəldiyi zaman bunlar bir-birini tamamlayan, əlavə dəyər yaradan hərəkətlər olacaq. Biz bu fəlsəfə ilə bu bölgədə toplumların bütün problemlərinin həll ediləcəyi düşüncəsində də deyilik, anlaşılmazlıqlar davam edəcək. Ancaq beynəlxalq hüququ əsas götürərək, torpaq zəbti, daxili işlərə qarışmaq kimi sevdalardan imtina edilsə, o təməllər, kriteriyalar çərçivəsində iqtisadi rəqabəti yeni qaydalar çərçivəsində qura bilsək, bu bölgədə yalnız Türkiyənin deyil, hər kəsin qazanacağına inanırıq. Və burada sözü Ermənistanın üzərinə gətirmək lazımdır. Demoqrafik, iqtisadi, siyasi olaraq itirmə girdabına yuvarlanmış bir Ermənistanın ağır taleyini döndərmək imkanı var. Düzgün qərarlar verərsə, yeni işğala son verərsə, sülh yolunda addımlar atarsa...

***- Amma Ermənistan müstəqil deyil, Rusiyadan asılıdır...***

- Əgər Rusiyada bu problemi çözməklə bağlı iradə varsa, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması şərtilə, Türkiyənin mövqeyi bəllidir. Bizim dərdimiz bu bölgədə normallaşmaya nail olmaqdır. Sərhədlərin çərçivəsi bəlli, Ermənistanın olduğu yer bəlli, Azərbaycanın beynəlxalq aləm tərəfindən tanınmış ərazisi bəllidir. Bunlar əsas götürüldüyü təqdirdə, Azərbaycanın qəbul etdiyi formul ortaya çıxarsa, Türkiyə sonadək bu həll planına dəstək verər və o prosesdə nə lazımdırsa, Türkiyə o addımları atar. Sərhədlərin açılması məsələsinə gəldikdə, heç bir zaman Azərbaycanın arzusuna zidd olaraq və ya ürəyincə olmayan addımlara gedilməyəcək, bunu rahatlıqla deyirəm.

***- Aprel döyüşlərindən sonra Azərbaycanda torpaqların azad olunması barədə çağırışlar dəfələrlə artdı. Lakin danışıqlar prosesinə rəhbərlik edən Rusiya müharibəni tam istisna edir. Eyni zamanda Ermənistanın müdafiə naziri Seyran Ohanyan bugünlərdə işğal olunmuş ərazilərimizdən bəyan etdi ki, müharibə başlasa, Rusiya Ermənistanı müdafiə edəcək. Bəs o halda güvəndiyimiz Türkiyə, Türk ordusu ötən əsrin əvvəllərində olduğu kimi, Azərbaycanın arxasında dayanacaqmı, yoxsa yaxşılaşan Ankara-Moskva münasibətləri buna əngəl olardı?***

- "Rusiya Ermənistanın arxasında duracaq"- sözünü erməni deyir. Ruslar deyirmi? Xeyir! Elə isə siz də erməninin dediklərinin cavabında "Türkiyə bizim arxamızda olacaq", deyin.

**Söhbətin sonunda Azər Ayxan azərbaycanlı qəzetçilərin elə bu hadisələrlə əlaqədar Türkiyə prezidenti və ya baş naziri ilə görüşünün təşkil olunması ideyasını səsləndirir, böyükelçi "iyi olur", cavabını verir. Eyni zamanda təklif edir ki, bununla bağlı rəsmi müraciət edək.**

Söhbətin yekununda səfir bir daha Azərbaycana təşəkkürlərini dilə gətirir:

- Azərbaycana güvənə biləcəyimizi bir daha gördük, bu, bizə güc verdi. Allah razı olsun! Bu, çox önəmlidir. Səmimiyyətlə deyirəm, bunun dəyərini nə mən sözlə yetərincə ifadə edə bilərəm, nə də başqa bir şəkildə. Həm prezidentimiz, həm baş nazirimiz, həm də bütün nazirlərimiz Azərbaycan adına zikr edərək bunu deyirlər. Bu, sadəcə, cənab prezidentimizin, dövlətimizin Azərbaycana görə sərgilədiyi refleksdən dolayı deyil, küçələrə çıxan azərbaycanlıların şəxsində bildiyimiz bütün Azərbaycanın əhval-ruhiyyəsindən irəli gəlir. Bəzən əcnəbilər "siz eyni dili anlayırsınız" deyə, soruşurlar. Dili bir tərəfə qoyaq, bu, ruh birliyidir. Azərbaycandakı fəaliyyətimin 4-cü ilinin sonudur. Bunu yaşamaq mənimçün ən qiymətli təcrübələrdən biridir. Təəssüf ki, bu dəfə bunu məlum mənfi hadisə ilə yaşadıq, amma o gücü hiss etmək gözəl bir şeydir...

❑ Elşad PAŞASOY
FOTO: İkin ZƏFƏRLİ

**"Bölgədə sabitlik və dincliyin olması üçün də Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli lazımdır"**





**"Azərbaycanın qəbul etdiyi formul ortaya çıxarsa, Türkiyə sonadək bu həll planına dəstək verər və o prosesdə nə lazımdırsa, o addımları atar"**